AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

ISSN 2709-247X (Print)
ISSN 2709-2488 (Online)

MƏKTƏBƏQƏDƏR və İBTİDAİ TƏHSİL

ELMİ-METODİK JURNAL

2020, №4 /233

JOURNAL of PRESCHOOL and PRIMARY EDUCATION

Jurnalın indekslənməsi / Indexed by

Azərbaycan Respublikasının
Prezidenti yanında
Ali Attestasiya Komissiyası

DOAJ DIRECTORY OF OPEN ACCESS JOURNALS

НАУЧНАЯ ЭЛЕКТРОННАЯ БИБЛИОТЕКА eLIBRARY.RU

SOBIAD

Crossref

Google Scholar

ИСТИНА
Интеллектуальная Система
Тематического Исследования
НАукометрических данных

idealonline

EBSCO

Academia.edu

ResearchGate

tei türk eğitim indeksi

CiteFactor
Academic Scientific Journals

INTERNET ARCHIVE

INDEX COPERNICUS
INTERNATIONAL

DRJI Directory of Research Journal Indexing

MƏKTƏBƏQƏDƏR və İBTİDAİ TƏHSİL
Elmi-metodik jurnal. 1970-ci ildən «Azərbaycan məktəbi» jurnalına əlavə kimi nəşr olunur. ISSN 2709-247X (Print) lSSN 2709-2488 (Online)

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 05 may 1997-ci il tarixli Nizamnaməsi ilə təsdiq edilmiş, Ədliyyə Nazirliyində «İbtidai məktəb və məktəbəqədər tərbiyə» adı ilə dövlət qeydiyyatına alınmışdır. Qeydiyyat şəhadətnaməsi № 544. 2009-cu ildə jurnalın adı dəyişilərək «Məktəbəqədər və ibtidai təhsil» adlandırılmışdır (AR Ədliyyə Nazirliyinin 11/648 №-li, 20.05.2009-cu il tarixli məktubu).

«Məktəbəqədər və ibtidai təhsil» jurnalı məktəbəqədər və ibtidai təhsil sahəsində elmi-nəzəri məqalələrin, müasir dövrün tələblərinə uyğun milli və xarici təcrübəni praktik və nəzəri baxımdan əks etdirən araşdırma materiallarının nəşrini həyata keçirir. Jurnalda təlimin məzmununu, tərbiyəçi və müəllimlərin, psixoloq və defektoloqların pedaqoji təcrübəsini ümumiləşdirən məqalələrə yer verilir. Müasir təlim texnologiyalarının, pedaqoji innovasiyaların təbliği, ailə-məktəb, müəllim-şagird, tərbiyəçi-uşaq münasibətlərinin pedaqoji-psixoloji aspektlərini əks etdirən yazıların dərci jurnalda daim diqqət mərkəzində saxlanılır. Məqalələr Azərbaycan, rus, ingilis və türk dillərində dərc olunur. Müəlliflərin şəxsi maraqlarını əks etdirən, elmi-metodiki nəticəsi olmayan məqalələr qəbul edilmir. Jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlər sırasındadır.

PRESCHOOL and PRIMARY EDUCATION
Scientific and methodological journal. It has been published since 1970 as a supplement to the «Azerbaijan Journal of Educational Studies».
ISSN 2709-247X (Print) ISSN 2709-2488 (Online)

The journal «Preschool and primary education» publishes scientific and theoretical articles in the field of preschool and primary education, research materials reflecting national and international experience from a practical and theoretical point of view in accordance with the modern requirements. The journal also publishes articles summarizing the content of training, the pedagogical experience of educators, teachers, psychologists and disability specialists. Promotion of modern learning technologies, pedagogical innovations and articles that reflect pedagogical and psychological aspects of family-school, teacher-student, educator-child relationships are always in the focus of the journal. Articles are published in Azerbaijani, Russian, English and Turkish languages. Articles that reflect the conflict of interests and have no scientific methodological purpose are not accepted. The journal is among the recommended scientific publications of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan.

© Məktəbəqədər və ibtidai təhsil / Preschool and Primary Education, 2020

Təsisçi
AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Baş redaktor
Yəhya Kərimov

Redaksiya heyəti
Böyükağa Mikayıllı (məsul katib)

Akif Abbasov (Azərbaycan Respublikası Təhsil İnstitutu)
Asəf Zamanov (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
Aydın Əhmədov (Azərbaycan Respublikası Təhsil İnstitutu)
Azadxan Adıgözəlov (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
Bibixanım İbadova (Azərbaycan Respublikası Təhsil İnstitutu)
Elvin Rüstəmov (Azərbaycan Respublikası Təhsil Nazirliyi)
Esmira Ağayeva (İ.Əfəndiyev adına Elitar Gimnaziya)
Fərrux Rüstəmov (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
Həqiqət Hacıyeva (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
Xalidə Musayeva (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
İradə Məlikova (74 nömrəli tam orta məktəb)
Könül Pirverdiyeva (Başkent Universiteti, Türkiyə)
Laləzər Cəfərova (Azərbaycan Respublikası Təhsil İnstitutu)
Müseyib İlyasov (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
Nabat Rəfiyeva (316 nömrəli Körpələr evi-uşaq bağçası)
Nərminə Alnağıyeva (Azərbaycan Respublikası Təhsil Nazirliyi)
Nurlana Əliyeva (Azərbaycan Slavyan Universiteti)
Pavel Luşin (Ukrayna Pedaqoji Elmlər Akademiyası)
Rahil Nəcəf (Azərbaycan Respublikası Təhsil Nazirliyi)
Ramiz Əliyev (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
Şəhla Əliyeva (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
Taliə Nəbiyeva (23 nömrəli tam orta məktəb)
Vaqif Əmiraslanov (Bakı Sosial-Pedaqoji Kolleci)
Vəfa Məmmədova (155 nömrəli tam orta məktəb)
Vidadi Xəlilov (Azərbaycan Respublikası Təhsil İnstitutu)
Vidadi Orucov (Lənkəran Dövlət Universiteti)
Vira Remajevskaya («Lewenia» Təhsil və Reabilitasiya Mərkəzi, Ukrayna)
Zemfira Əsədova (175 nömrəli körpələr evi-uşaq bağçası)
Zöhrə Əliyeva (111 nömrəli körpələr evi-uşaq bağşası)

Redaksiya
Kəklik Məmmədova, İlhamə Əsədova, Məhəbbət Əliyeva, Landa Cəfərova, Aytən Həsənova, Nərgiz Muradova, Leyla Məmmədova.

Redaksiyanın ünvanı:
AZ 1065, Bakı şəhəri, Azad Mirzəyev küçəsi, 236
Telefon: (012) 538 82 65; (012) 538 82 67; (012) 510 19 65
E-mail: mekteb@edu.gov.az
http://www.journal.edu.az

THE MINISTRY OF EDUCATION OF THE REPUBLIC OF AZERBAIJAN
JOURNAL of PRESCHOOL and PRIMARY EDUCATION

Editor-in-Chief
Yahya Karimov

Editorial Board
Boyukagha Mikayilli (Executive Editor)

Akif Abbasov (Education Institute of the Republic of Azerbaijan)
Asef Zamanov (Azerbaijan State Pedagogical University)
Aydin Ahmadov (Education Institute of the Republic of Azerbaijan)
Azadkhan Adigozalov (Azerbaijan State Pedagogical University)
Bibikhanim Ibadova (Education Institute of the Republic of Azerbaijan)
Elvin Rustamov (Ministry of Education of the Republic of Azerbaijan)
Esmira Aghayeva (Elite Gymnasium named after I. Efendiyev)
Farrukh Rustamov (Azerbaijan State Pedagogical University)
Hagigat Hajiyeva (Azerbaijan State Pedagogical University)
Irada Malikova (Secondary school No. 74)
Konul Pirverdiyeva (Bashkent University, Turkey)
Khalida Musaeva (Azerbaijan State Pedagogical University)
Lalazar Jafarova (Education Institute of the Republic of Azerbaijan)
Museib Ilyasov (Azerbaijan State Pedagogical University)
Nabat Rafieva (Kindergarten-Nursing Home No. 316)
Narmina Alnaghieva (Ministry of Education of the Republic of Azerbaijan)
Nurlana Aliyeva (Azerbaijan Slavic University)
Pavel Lushin (Academy of Pedagogical Sciences of Ukraine)
Rahil Najaf (Ministry of Education of the Republic of Azerbaijan)
Ramiz Aliyev (Azerbaijan State Pedagogical University)
Shahla Aliyeva (Azerbaijan State Pedagogical University)
Talia Nabieva (Secondary school No. 23 named after T. Hasanov)
Vafa Mammadova (Secondary school No. 155)
Vagif Amiraslanov (Baku Socio-Pedagogical College)
Vidadi Khalilov (Education Institute of the Republic of Azerbaijan)
Vidadi Orujov (Lankaran State University)
Vira Remajevskaya (Education and Rehabilitation Center «Lewenia», Ukraine)
Zemfira Asadova (Kindergarten-Nursing home No.175)
Zohra Aliyeva (Kindergarten-Nursing home No. 111)

Editorial Team
Kaklik Mammadova, Ilhama Asadova, Mahabbat Aliyeva, Landa Jafarova,
Aytan Hasanova, Nargiz Muradova, Leyla Mammadova.

Adress:
236 Azad Mirzayev St., Baku, Azerbaijan 1065
Tel: + 994 12 538 8265; 12 538 8267; 12 510 1965
E-mail: mekteb@edu.gov.az
Homepage: http://www.journal.edu.az

İÇİNDƏKİLƏR / № 4, 2020

- PEDAQOGİKA

Fatmaxanım Bünyatova, Yuliya Kərimova
Dayanıqlı təhsilin transformasiyası. Tamlıq və qeyri-səlis təhsil modeli 9–26

Könül Nəbiyeva
Təlim-tərbiyə müəssisələrində dini və milli-mədəni dəyərlərimizin pedaqoji tələblərə uyğun maarifləndirmə işinin təşkili 27–35

- TƏHSİL STRATEGİYASI

İlhamə Əsədova
Ümumtəhsil məktəblərində reytinq sisteminin təkmilləşdirilməsinə təsir edən amillər 37–54

- METODİKA

Aynur Axundova
Müasir təhsil və STEM+A-ya inteqrasiya 55–67

Mahirə Abdullayeva.
Fasilə və onun ifadəli oxu prosesində rolu 69–78

Arif Kazımov
Öyrənənlərin məntiqi təfəkküründə və nitqinin inkişaf etdirilməsində tapmacaların rolu 79–87

- AİLƏ və MƏKTƏB

Vüsalə Əliyeva
Uşaqların mənəvi tərbiyəsində valideynlərin rolu 89–98

- TƏHSİL TARİXİMİZDƏN

Fərrux Rüstəmov
Azərbaycan pedaqoji mətbuatı tarixilik və müasirlik müstəvisində 99–114

CONTENTS / № 4, 2020

- PEDAGOGY

Fatmakhanim Bunyatova, Yulia Karimova
Transformation of sustainable education. Full and fuzzy education model 9–26

Konul Nabiyeva
Organization of educational work in educational institutions in accordance with the pedagogical requirements of our religious and national-cultural values 27–35

- EDUCATİONAL STRATEGY

Ilhama Asadova
Factors influencing the improvement of the rating system in secondary schools 37–54

- METHODS

Aynur Akhundova
Modern education and integration into STEM + A 55–67

Mahira Abdullayeva
Pause and its role in expressive reading 69–78

Arif Kazimov
Learners' logical thinking and the role of riddles in speech development 79–87

- FAMILY and SCHOOL

Vusala Aliyeva
The role of parents in the spiritual development of children 89–98

- EDUCATIONAL HISTORY

Farrukh Rustamov
Azerbaijani pedagogical press: on the plane of history and modernity 99–114

Pedagogy

Transformation of sustainable education. Full and fuzzy education model

Fatmakhanim Bunyatova
Director of the educational center
"Cognitive School"
Baku city. Azerbaijan.
E-mail: fatmaxanım@rambler.ru
https://orcid.org/0000-0002-1972-7176

Yulia Karimova
Director of the comprehensive school
No. 23 named after T. Hasanov
Baku city. Azerbaijan.
E-mail: karimovay@yahoo.com
https://orcid.org/0000-0003-1092-9940

Abstract. The article describes the transformation of sustainable education into a model of complete and fuzzy education. The author points out that in order to solve the problem of individual thinking in the learning process, the goals of learning to learn and learn should be transformed into goals to learn and create. To achieve this, the knowledge structures that students have mastered in the learning process must be logically changed. The author also notes that when replacing the theory of teaching sustainable education with the theory of learning, thinking begins to act. When this movement is built on natural and artificial cognitive theories created by J. Piaget and L. Zade, the system of sustainable education is transformed into a new model of education – the "Model of complete and fuzzy education".

Keywords: sustainable education, transformation, learning theory, theory of study, thinking, the theory of J. Piaget of natural perception, the theory of artificial knowledge L. Zade, "Model of complete and fuzzy education".

http://dx.doi.org/10.29228/edu.343
To cite this article: Bunyatova F., Karimova Y. (2020) Transformation of sustainable education. Full and fuzzy education model. *Journal of Preschool and Primary Education,* V. 233, Issue IV, pp. 9–26.
Article history: Received – 08.09. 2020; Accepted – 15.09.2020

Pedaqogika

Dayanıqlı təhsilin transformasiyası. Tamlıq və qeyri-səlis təhsil modeli

Fatmaxanım Bünyatova
Bakı şəhəri, "İdrak məktəbi" təhsil mərkəzinin direktoru.
Bakı, Azərbaycan.
E-mail: fatmaxanım@rambler.ru
https://orcid.org/0000-0002-1972-7176

Yuliya Kərimova
Bakı şəhəri, T. Həsənov adına 23 nömrəli tam orta məktəbin direktoru.
Bakı, Azərbaycan.
E-mail: karimovay@yahoo.com
https://orcid.org/0000-0003-1092-9940

Xülasə. Məqalədə dayanıqlı təhsilin transformasiyasından, tam və qeyri-səlis təhsil modelindən söhbət gedir. Müəllif qeyd edir ki, təlim prosesində fərdin təfəkkürünün hərəkətə gətirilməsi problemini həll etmək üçün təlimin öyrətmə və mənimsəmə məqsədi öyrənmə və yaratma məqsədinə dəyişdirilməlidir. Bu məqsədə çatmaq üçün təlim prosesində şagirdlərin mənimsədikləri biliklərin struktur quruluşu məntiqi cəhətdən dəyişməlidir. Müəllif, həmçinin vurğulayır ki, dayanıqlı təhsilin öyrətmə nəzəriyyəsini öyrənmə nəzəriyyəsi ilə əvəz etdikdə təfəkkür hərəkətə gəlir. Bu hərəkəti J. Piajenin və L. Zadənin yaratdıqları təbii və süni idrak nəzəriyyələri əsasında quranda dayanıqlı təhsil sistemi transformasiya olunaraq yeni bir təhsil modelinə – "Tamlıq və qeyri-səlis təhsil modeli"nə çevrilir.

Açar sözlər: dayanıqlı təhsil, transformasiya, öyrətmə nəzəriyyəsi, öyrənmə nəzəriyyəsi, təfəkkür, J. Piajenin təbii idrak nəzəriyyəsi, L. Zadənin süni idrak nəzəriyyəsi, "Tamlıq və qeyri-səlis təhsil modeli".

http://dx.doi.org/10.29228/edu.343
Məqaləyə istinad:
Bünyatova F., Kərimova Y. (2020) Dayanıqlı təhsilin transformasiyası. Tamlıq və qeyri-səlis təhsil modeli. «Məktəbəqədər və ibtidai təhsil», № 4 (233), səh. 9–26.
Məqalə tarixçəsi: göndərilib – 08.09. 2020; qəbul edilib –15.09.2020

Giriş / *Introduction*

Təhsil sistemində islahatların aparılmasında məqsəd təhsilalanların bu günün, gələcəyin tələblərinə uyğun intellektual, sosial bilik və bacarıqlara yiyələnmələri, onları daim inkişaf etdirmələridir. Müasir dövrdə təhsil almaq çox zaman bilikləri öyrənib yadda saxlayaraq, düzgün tətbiq etməkdən ibarətdir. Bu, təfəkkür bacarıqlarının ibtidai səviyyəsidir: şagird bilikləri öyrənir, anlayır və tətbiq edir, lakin yüksək təfəkkür səviyyəsinin bacarıqları verilənləri analiz və sintez etməkdən başlayır. Hər bir fərd təfəkküründə bu strukturları qurandan sonra, öz bilikləri üzərində əməliyyatlar apararaq, onları zənginləşdirir, əvəz edir, ümumi cəhətləri olan bir çox sahələrdə tətbiq edərək, yeni biliklər yaratmaq və onları qiymətləndirmək bacarığına malik olur.

Bu gün öyrənənlərin tədris prosesində öz təfəkkürlərində yüksək əqli bacarıqları inkişaf etdirmələri və onları həyatda tətbiqetmə yollarına yiyələnmələri həlli tapılması olan vacib problemlərdən biridir.

İKT-nin sürətlə inkişafı və tədris prosesində tətbiqi tədrisdə olan problemlərin tezliklə həll ediləcəyinə ümid yaradırdı, lakin onun geniş tətbiqi də bu günə qədər problemlərin həllinə ciddi təsir göstərə bilmir. Səbəbi ondan ibarətdir ki, insan idrakının süni forması kimi yaradılan İKT-ni təlim prosesində tətbiq edərkən onun daxilinə əsrlər boyu sistemsiz, məntiqi əlaqələri olmayan, fərdlərin fərqliliyinə hesablanmadan tərtib olunmuş biliklər yığılır. İKT metodik cəhətdən görmə və eşitmə vasitəsi ilə biliklərin yalnız vizual ötürülməsinə istiqamətlənib. Bu da təlim prosesinə yalnız zahiri görüntü gətirərək, biliklərin yadda qalmasına, mənimsəmə faizini yüksəltməyə səbəb olurdu, lakin insan beyninin yaddaşı hüdudsuz deyil və hər bir şeyin həddi olduğu kimi, onun da həddi var. Burada çıxış yolu təfəkkürü fəaliyyətə sövq etməkdir. Bu gün təlim prosesində təfəkkürün fəaliyyəti 2–3%-ə yaxındır [Bünyatova F. Konstruktiv təlim: mahiyyəti, prinsipləri və dərslərdən nümunələr. Bakı, 2008]. Əgər təlim prosesində təfəkkürü hərəkətə gətirən amilləri artırsaq, onda təhsilin keyfiyyəti gözə çarpacaq dərəcədə dəyişər.

Əsas hissə / *Main Part*

Təlim prosesində şagirdin təfəkkürünün hərəkətə gətirilməsi problemini həll etmək üçün təlimin *öyrətmə* və *mənimsəmə* məqsədi *öyrənmə* və *yaradıcılıq* məqsədi ilə əvəz olunmalıdır. Bu məqsədə çatmaq üçün təlim prosesində şagirdlərin öyrənəcəkləri biliklərin struktur quruluşu məntiqi cəhətdən dəyişməlidir.

İnsan təfəkkürünün inkişaf yollarını 1940-cı illərdə İsveç alimi J. Piaje özünün idrak nəzəriyyəsi"ndə göstərmişdi. İdrakın inkişafını göstərmək üçün o, riyazi məntiqdən istifadə edərək, tamlıq məntiqini yaratmışdı. J. Piajenin təbii idrakın inkişafı yollarını əks etdirən tamlıq məntiqinin psixoloji alətləri didaktikada tətbiq edilərək, ilk dəfə "Ana dili biliklərinin tamlıq modeli" yaradılmışdı [Piajete, J.

The Selected Papers. Moscow, 2001]. Bu modeldə dil bilikləri məntiqi tamlıq sxemində göstərilmişdi. Təlim zamanı J. Piajenin psixoloji alətləri ilə tamlıq sxemindəki biliklər məntiqi hərəkətə gətirilir. Bu məntiqi bilikləri öyrənən şagirdlər öz təfəkkür strukturlarını, biliklərini tamlıq məntiqinə uyğun şəkildə qurmağa başlayır və öyrənmə yolunu tapırlar.

Ötən əsrin 80-ci illərində Lütfi Zadə qeyri-səlis məntiq nəzəriyyəsində süni idrakın yaranma yollarını riyazi dillə göstərmişdi [Asker Zadeh Lotfi. The concept of linguistic variable and its application to the adoption of approximate solutions. Moscow: Mir, 1976]. Onun süni idrakı məntiqi hərəkətə gətirən riyazi alətlərin açıqlaması J. Piajenin psixoloji alətlərinin açıqlaması ilə üst-üstə düşür və bu açıqlamaların əsasında süni idrakın alətləri ilə Azərbaycan dili fənninin süni modelini yaratmaq olur. Süni idrakın təhsildə tətbiqini araşdırarkən belə qənaətə gəlirik ki, Azərbaycanda ilk dəfə 2007-ci ildə F. Bünyatova təhsilin məzmun quruluşunda süni modeli tətbiq etmişdir.

Dayanıqlı təhsilin öyrətmə nəzəriyyəsini öyrənmə nəzəriyyəsi ilə əvəz edəndə təfəkkür fəaliyyətə başlayır. Bu fəaliyyəti J. Piajenin və L. Zadənin yaratdıqları təbii və süni idrak nəzəriyyələri əsasında qurduqda dayanıqlı təhsil sistemi transformasiya olunaraq, yeni bir təhsil modelinə – "Tamlıq və qeyri-səlis təhsil modeli"nə (TQSTM) çevrilir.

"Tamlıq və qeyri-səlis təhsil modeli"–TQSTM Bakı şəhərinin Nəsimi rayonunda yerləşən T. Həsənov adına 23 nömrəli tam orta məktəbdə ibtidai və orta məktəb səviyyəsində 2017-ci ildən "Öyrətmədən öyrənməyə keçid" layihəsi adı altında həyata keçirilir.

"Tamlıq və qeyri-səlis təhsil modeli"nin (TQSTM) quruluşu

Bu modeldə fənn bilikləri tam və qeyri-səlis struktur formasında olur. Təlim prosesində biliklərin bu məntiqi quruluşunu şagird təfəkküründə konstruktiv hərəkətə gətirən və bununla da təlimin bütün komponentlərini dəyişdirən J. Piajenin tamlıq və L. Zadənin qeyri-səlis məntiqlərinin alətləri olur.

Dayanıqlı təhsilin "Tamlıq və qeyri-səlis təhsil modeli" ilə əvəzlənməsində nə dəyişir və bu proses necə baş verir? Əvvəlcə, Azərbaycanda dayanıqlı təhsil haqqında qısa bir arayışı diqqətə çatdıraq.

Müasir kurikulum proqramlarında (2007-ci ildən bu günə qədər) nəzərə çarpacaq qədər proqressivizm, eksperimentalizm, ekzistensializm, praqmatizm, realizm yanaşmalarının meyarları öz əksini taparaq, təhsilin inkişafına təkan vermişdir, lakin bu inkişaf öyrətmə – verilənlərin mənimsənilməsi məqsədini daşıdığı üçün burada təfəkkürün yüksək səviyyəli bacarıqlarının inkişaf etdirilməsi bir o qədər də mümkün olmur. Proqramların 5 ildən bir yenilənməsi keyfiyyətin artmasında bir o qədər də nəticə vermir, çünki bu yeniliklər öyrətmə istiqamətlərinə yönəldilir.

Komponentlərin dəyişməsi

Dayanıqlı təhsil sistemində	**"Tamlıq və qeyri-səlis təlim modeli"ndə**
1. Təlimin öyrətmə məqsədi;	1. Təlimin öyrənmə məqsədi;
2. Təlim strategiyası olan fəal təlim;	2. Konstruktiv təlim;
3. "Bilik vahidləri" anlayışı;	3. "Bilik strukturları" anlayışı;
4. Proqram biliklərinin ənənəvi quruluşu;	4. Biliklərin "Tamlıq və qeyri-səlis təlim modeli"ndə quruluşu;
5. Şaquli bilik strukturları;	5. Biliklərin tamlıq sxemi;
6. Fənn biliklərinin müəyyən edilmiş qaydada proqram quruluşu;	6. Proqramların "Tamlıq və qeyri-səlis təhsil modeli" quruluşu;
7. Yaddaşa istiqamətlənən təlim fəaliyyəti;	7. Əqli fəaliyyət;
8. Bilikləri yaddaşda möhkəmləndirmək üçün verilən tapşırıqlar;	8. Təfəkkürü hərəkətə gətirən tapşırıqlar;
9. Dərsin planlaşdırılması;	9. Dərsin layihələşdirilməsi;
10. Ənənəvi proqram quruluşu;	10. Genetik (ardıcıllıq) proqram quruluşu;
11. Sinif–dərs sistemi;	11. Çoxsəviyyəli dərs sistemi;
12. Bilikləri mənimsəmə meyarları.	12. Biliklərin yaradılması və təfəkkürün inkişaf səviyyəsinin ölçü meyarları;
13. Müəllimin öyrədən, bilik ötürən və şagirdlərin bilik qəbul edən rolları;	13. Müəllimin dərsin dizayneri, moderatoru, tyutoru rolları, şagirdin əqli təlim fəaliyyətində bilikləri yaradan rolu;
14. Psixopedaqoji yanaşma.	14. Nanopsixopedaqoji yanaşma.

1. Təlimin "öyrətmə" məqsədinin "öyrənmə" məqsədi ilə əvəzlənməsi.

Tədris prosesində kurikulumun təlim strategiyası olan fəal təlimin *öyrətmə* məqsəd və vəzifələri "Tamlıq və qeyri-səlis təhsil modeli"nin (TQSTM) *öyrənmə* məqsədi ilə əvəzlənir (Cədvəl 1). Təhsil sisteminin məqsədi elmi və mədəni irsə aid olan biliklərin şagirdlərə ən optimal yolla öyrədilməsidir. Şagirdlər isə bilikləri fəal şəkildə mənimsəməli və düzgün tətbiq etməlidirlər. Biliklərin mənimsənilməsi, biliklərlə işləmək *öyrətmə* deməkdir və bu fəaliyyətlər idrakın ibtidai səviyyəsinə aiddir.

Öyrənmə prosesində şagirdlərin biliklər üzərində müstəqil mənimsəmə və dərketmə işi gedir. Bu prosesdə müəllim ancaq fasilitator (bələdçi) rolunu oynayır.

Burada bilikləri əldə etmək, onları təhlil və əvəz etmək, qiymətləndirmək kimi yüksək səviyyəli idraki fəaliyyət həyata keçirilir. Beləliklə, təhsilin *öyrətmə* məqsədi *öyrənmə* ilə əvəz olunur.

2. Dayanıqlı təhsil sisteminin təlim strategiyası olan fəal təlimin konstruktiv təlimlə əvəzlənməsi.

Biliklərin mənimsənilməsi məqsədi biliklərin yaradılması ilə əvəz ediləndə təlimin paradiqmaları dəyişir. Öyrətmə – *bixeviorizm* nəzəriyyəsi öyrənmə – *konstruktivizm* nəzəriyyəsi ilə əvəzlənir. "Modelin əsası olan F. Bünyatovanın konstruktiv təlimində şagirdlər öz daxili duyğu və idrak səviyyələrindən çıxış etməklə biliklər üzərində məntiqi təfəkkür əməliyyatları aparırlar. Nəticədə, yeni bilikləri yaradıcı fəaliyyət prosesində əldə edirlər. Bu yaradıcılıq həm fərdi, həm də kooperativ – yəni birgə fəaliyyət xüsusiyyətləri daşıyır. Bu prosesdə şagirdlər yüksək əqli bacarıqları mənimsəyərək, onları inkişaf etdirirlər" [F. Bünyatova. "Kurikulum", 2008].

3. *Bilik vahidləri* anlayışının *bilik strukturları* anlayışı ilə əvəzlənməsi.

Didaktik bilik vahidləri təlim materiallarının elementləridir. Onlar diskret, yəni bir-birindən əlaqəsiz halda öyrənilir. Belə yanaşma tərzində şagirdin təfəkküründə bir-biri ilə əlaqəsi olmayan, sistemsiz biliklər toplanır. *Bilik vahidləri* anlayışını *bilik strukturları* anlayışı ilə əvəz edəndə bilik strukturlarının bir-biri ilə daxili məntiqi əlaqələri görünür və bu əlaqələrə əsasən, bilik strukturları ayrı-ayrılıqda yox, əlaqəli şəkildə öyrənilir.

"Bilik vahidləri anlayışını bilik strukturları anlayışına çevirəndən sonra J. Piajenin idrak nəzəriyyəsinin psixoloji mexanizmlərindən istifadə edərək, bilik strukturlarında bir-biri ilə məntiqi birləşmə və ayrılma, assosiativ, identik əlaqələr meydana çıxır. Bu əlaqəli bilik strukturları F. Bünyatovanın Məntiqi Bilik Strukturlarıdır (BMBS).

Məntiqi bilik strukturları:

1. birləşdirmə bilik strukturları;
2. ayırma-qayıdış bilik strukturları;
3. assosiativ (əlaqələndirmə) bilik strukturları;
4. identik (eyniləşdirmə) bilik strukturları;
5. ləğvetmə bilik strukturlarını əhatə edir [Bünyatova F. "Maşın təlimi üçün biliklərin tamlıq məntiqi və qeyri-səlis modelləşdirilməsi. V.M. Koleşko tərəfindən tərtib edilmiş "Ağıllı Sistemlər" kitabı, fəsil 7. 2012].

4. Proqram biliklərinin ənənəvi şaquli quruluşunda biliklərin "Tamlıq və qeyri-səlis məntiq model"i ilə əvəzlənməsi.

Bu günə qədər fənn bilikləri proqramda şaquli quruluşda verilir. Bu o deməkdir ki, şagirdlər tam biliyə illər ərzində yiyələnirlər. Nəticədə, onların təfəkküründə biliklərin tam şəkildə formalaşmasında, onların arasında əlaqələrin yaranmasında çətinliklər ortaya çıxır. Bu problemi aradan qaldırmaq üçün fənn biliklərinin

strukturu dəyişdirilir və biliklər tam sxemdə modelləşdirilir. Bilik strukturları tamlıq sxemində "Biliklərin tam və qeyri-səlis məntiqlə modelləşdirmə texnologiyası" (İD) əsasında modelləşdirilir. Bu məntiqi modelləşdirmə iki mərhələdən ibarətdir:

I mərhələ. J. Piajenin tamlıq məntiqi əsasında "Biliklərin tamlıq modeli" yaradılır.

II mərhələ. "Biliklərin tamlıq modeli"nin anlayışları L. Zadənin qeyri-səlis məntiqinin anlayışları ilə əvəz olunaraq, "Biliklərin tamlıq və qeyri-səlis modeli" yaradılır.

I mərhələdə "Biliklərin tamlıq modeli"ndə Azərbaycan dili üzrə fənn biliklərinin tamlıq modelinin yaradılması üçün atılan addımlar nəzərdə tutulur. Burada bir sual meydana çıxır: nəyə görə öncə dil biliklərinin modeli yaradılır? Bu, ondan irəli gəlir ki, insan fikirlərini dil vasitəsi ilə bildirir. Dil biliklərinin məntiqi modeli yaradılarsa, onda bütün elmi biliklərin məntiqi modelini yaratmaq olar, çünki hər bir elm dil vasitəsi ilə izah olunur.

J. Piajenin tamlıq məntiqinin psixoloji alətlərindən istifadə etmək üçün aşağıdakı psixoloji terminlər didaktik terminlərə çevrilir:

• *Didaktik bilik vahidləri – bilik strukturları* kimi anlaşılır və onların daxili quruluşları görünür. J. Piaje idrak nəzəriyyəsində idrakı psixoloji baxımdan 2 strukturda göstərmişdi: *invariant* (dəyişməyən) və *kateqorial* (dəyişən).

• *İdrakın psixoloji invariant strukturları* didaktikada *dəyişməyən* bilik strukturları kimi başa düşülür, məsələn, Azərbaycan dilində invariant bilik strukturları *nitq hissələridir* və onlar 10 hissədən ibarətdir.

• *İdrakın kateqorial psixoloji strukturları* – dəyişən bilik strukturları kimi başa düşülür. Azərbaycan dilində kateqorial bilik strukturları – dilin kateqoriyaları (tək və cəm, zaman, hal və s.) kimi başa düşülür.

Kateqorial (dəyişən) və invariant (dəyişməyən) bilik strukturları bir-biri ilə əlaqədə olur. Bilik strukturlarını J. Piajenin tamlıq məntiqinin mexanizmi ilə məntiqi bilik strukturlarına çevirəndə onların arasında sıx məntiqi əlaqə yaranır. Çevrilən didaktik terminlərə əsaslanaraq, biliklərin tamlıq modeli idrakın inkişaf yoluna uyğun yaradılır.

Biliklərin tamlıq modelinin yaradılması

Texnoloji addımlar:

• Azərbaycan dili fənninin bilik strukturları təsnifat edilərək, dəyişənlərə (kateqorial) və dəyişməyənlərə (invariant) bölünür. Dəyişən biliklər ***y*** ilə, dəyişməyənlər isə ***x*** ilə işarələnir.

• Dəyişməyən ***x*** biliklər – nitq hissələri təsnifat edilir və ***x – x10*** kimi işarələnib nömrələnir. Burada ***x1 – isim; x2 – sifət; x3 – say; x4 – əvəzlik; x5 – feil; x6 – zərf; x7 – x10*** köməkçi nitq hissələridir.

• Dəyişən ***y*** biliklər də daxili təsnifat edilir, ***y1 – y9*** kimi işarələnir və

nömrələnir. Burada ***y1 – tək və cəm; y2 – hal; y3 – şəxs; y4 – zaman; y5 – mənsubiyyət və s.*** kateqoriyalarıdır.

• İşarələnmiş və nömrələnmiş, dəyişməyən ***x1 – x10*** biliklər modeli koordinat müstəvisində üfüqi yerləşdirilir.

• İşarələnmiş və nömrələnmiş, dəyişən ***y1 – y9*** biliklər modeli koordinat müstəvisində şaquli yerləşdirilir.

Şaquli yerləşən, dəyişən ***y1 – y9*** biliklər və üfüqi yerləşən, dəyişməyən ***x1 – x10*** biliklər dil biliklərinin tamlıq modelidir. Bu, həm də Azərbaycan dilinin təbii idrak modeli olur (Sxem 1).

Sxem 1



“Azərbaycan dili” fənni üzrə biliklərin tamlıq modelinin süni idrak modelinə çevrilməsi

“İdrakın təbii quruluşunu J. Piaje tamlıq məntiqi ilə, L. Zadə isə qeyri-səlis məntiq nəzəriyyəsində göstərmişdi. J. Piajenin tamlıq məntiqinin anlayışları L. Zadənin qeyri-səlis məntiq anlayışları ilə üst-üstə düşür”.[1] Modelin rasional olması və universal tətbiqi üçün J. Piajenin tamlıq modelinin psixoloji alətlərini L. Zadənin qeyri-səlis məntiqinin alətləri ilə əvəz etdikdə, biliklərin yeni bir modeli – “Biliklərin tamlıq və qeyri-səlis modeli” alınır. Alınan bilik modeli süni idrak alətləri ilə qurulan dil biliklərinin süni modelidir.

[1] http://kaynakca.hacettepe.edu.tr/eser/289581/proceedings-of-9th-international-educational-technology-conference

Bu əvəzetmədə:

• J. Piajenin kateqorial bilikləri ***y1 – y9*** anlayışı L. Zadənin *linqvistik dəyişənliyi* anlayışı ilə əvəz edilir və ***y0,1 – y0,9*** işarələri ilə koordinat şəbəkəsində şaquli yerləşdirilir;

• İnvariant biliklər ***x1 – x10*** (dilin lüğət fondu) *"qeyri-səlis çoxluq"* kimi müəyyən edilir və koordinat şəbəkəsində ***x0,1 – x1*** kimi qeyd olunaraq üfüqi yerləşdirilir.

• Bu modeldə çoxluğun elementləri ***x0,1 – isim; x0,2 – sifət; x0,3 – say; x0,4 – əvəzlik; x0,5 – feil; x0,6 – zərf; x-0,7, x-0,8, x-1 – köməkçi nitq hissələridir.*** Buna əsasən, qeyri-səlis çoxluğun mənsubiyyət funksiyası sözün leksik mənasında başa düşülür. (Sxem 2.)

Sxem 2



• ***y0,1 – y0,9*** linqvistik dəyişən biliklər dilin korrelyant–kateqorial bilikləri kimi anlaşılır.

Yaradılmış model Azərbaycan dilinin tam və qeyri-səlis, yəni süni modelidir. Bu model aşağıdakı xüsusiyyətlərə malikdir:

• İnvariant bilik strukturları dəyişən bilik strukturları ilə əlaqəyə girəndə yeni biliklər yaranır.

• Çoxluğun elementləri haqqında biliklər və linqvistik dəyişən biliklər ***x, y*** koordinatlarının kəsişmə nöqtəsində toplanır, məsələn, isim, onun təkdə və cəmdə olması haqqında biliklər ***x0,1 y0,1*** kəsişməsindəki bilik özəyində toplanır.

• Sxemdə göstərilən bilik quruluşu Azərbaycan dili biliklərinin tam quruluşudur. Bu quruluşda biliklər tədris illərinə, yəni siniflərə bölünmür.

• Hər bir tədris ilində öyrəniləcək biliklər bilik özəyində olan biliklərin məntiqi inkişafı olur.

• Modeldə görünür ki, **–*y*** qaydalarına uyğun olaraq, kateqorial bilik strukturları nitq hissələri ilə məntiqi şərtlərlə birləşə ***(<y0,1x0,1>)*** və ayrıla ***(<y0,1> ;< x0,1>)*** bilərlər. Onlar assosiasiyaya girə bilər ***<y0,1x0,1,x0,2,x0,3>*** və s.

• Nitq hissələrinə mənsub kateqorial biliklər nitq hissələri üzərində əvəzetmə, multiplikativ, zənginləşdirmə və eyniləşdirmə məntiqi əməliyyatlarını müəyyən edir. Bu halda kateqorial qaydalar, nitq hissələri kimi, daim mobil hərəkətdə olur.

• Yaradılan koordinat şəbəkəsi təbii və süni dilin tamlıq sxemi kimi qiymətləndirilə bilər, məsələn, *"Axşamdan güçlü qar yağır"* cümləsi təbii dildə göstərilib. Bu cümlə süni dildə belə yazılacaq: ***<x0,6> <x0,2, y0,1 >) <x0,1,y0,1, y0,3> <x0,5y0,1y0,4>.*** Burada ***<x0,6> x0,2, y0,1 > <x0,1,y0,1, y0,3>*** *(axşamdan* – zərf), (*güclü* – sifət), (*qar* – isim, tək halda, adlıq halında) ***<x0,5y0,1y0,4>*** (*yağır* – feil, təkdə, III şəxs, indiki zaman) kimi göstərilir.

"Fənn biliklərinin proqram quruluşunu müəyyən edilmiş qaydada "Biliklərin tamlıq və qeyri-səlis modelləşdirmə texnologiyası"nın texnoloji alətləri ilə modelləşdirəndə biliklərin "Tamlıq və qeyri-səlis proqram modeli" alınır" [Bünyatova F., Salamov G. 3D dərsliyin tamlıq (inteqral) və qeyri-səlis modelləşdirilməsi].[2]

Ənənəvi quruluşda olan fənn proqramlarını biliklərin tamlıq və qeyri-səlis modelinin alətləri ilə modelləşdirərkən biliklərin tamlıq sxemində çatışmayan biliklər əlavə edilir. Modelləşdirmə nəticəsində ənənəvi proqram quruluşu fənn biliklərinin genetik, yəni ən kiçikdən böyüyə istiqamətlənən proqram quruluşuna çevrilir. İngilis psixoloqu Fleyvelin fikrincə, "əgər biliklərin genetik proqramı yaradılsa, o zaman təlimdə bir çox problemlər həll oluna bilər, yəni təhsildə hamı müvəffəq olar" [Fleyvell D. Geneticheskaya psixologiya Jana Piaje. Moskva, 1967].

Şagirdlərin yaddaşa əsaslanan təlim fəaliyyətləri əqli fəaliyyətlə əvəz olunur.

Şagirdlərin hafizəyönümlü, daha çox bilik qazanma təlim fəaliyyətlərini biliklər üzərində əqli fəaliyyətə yönəldəndə onların təlim fəaliyyətləri əqli fəaliyyətə çevrilir. Bu çevrilmə bilikyönlü suallardan düşündürücü suallara keçid zamanı yaranır.

Yaddaşa istiqamətlənən, hafizəyönümlü tapşırıqlar təfəkkürü inkişaf etdirən tapşırıqlara çevrilir.

Dərsliklərdə verilən tapşırıqlar mövzunun mənimsənilməsi məqsədini daşıyır. Şagirdlərə bu məqsədə çatmaq üçün verilən tapşırıqlar qeydetmə, müəyyənetmə,

---

[2] https://www.academia.edu/31107783/_Whole_integral_and_fuzzy_model_of_e_textbook_in_3D_

tətbiqetmə, boşluqları doldurma və s.-dən ibarət olur. Bu tapşırıqlar biliklərin bir və ya iki strukturu üzərində yerinə yetirilir.

J. Piajenin tamlıq məntiqinin vasitələrindən istifadə edərək biliklərin üzərində məntiqi təfəkkür əməliyyatları aparmaq üçün tapşırıqlar verilir. Bu tapşırıqlar vasitəsilə şagirdlər bilik strukturlarını birləşdirməyi, onların arasındakı qarşılıqlı əlaqəni tapmağı, münasibətlərini aydınlaşdırmağı, təsnif etməyi, zənginləşdirməyi və ya onları başqa bilik strukturları ilə əvəz etməyi öyrənirlər.

Dərsin planlaşdırılması dərsin layihələşdirilməsi ilə əvəz olunur.

Müəllim dərsi planlaşdıran mərkəzi simadır. O, planlı şəkildə dərsin aparıcısı qismində çıxış edir. Konstruktiv təlimdə şagirdlər daim əqli və təlim fəaliyyətlərində olduqları üçün müəllim onların fəaliyyətini layihələşdirir və bu zaman dərsin planlaşdırılması dərsin layihələşdirilməsinə çevrilir. Layihələşdirmə zamanı sosial bacarıqların yaradılması üçün kooperativ təlim strukturlarından istifadə olunur.

Sinif–dərs sistemi çoxsəviyyəli dərs sisteminə çevrilir.

Sinif–dərs sistemində şagirdlər yaşlarına və biliklərinə uyğun qruplara bölünürlər. Bu sistem orta səviyyəli şagirdə istiqamətləndiyi üçün təlimdə zəif nəticə göstərən şagirdlərə çətinlik törədir, güclüləri isə inkişafdan saxlayır.

Tam və qeyri-səlis proqram quruluşuna uyğun olaraq, hər bir şagird öz səviyyəsindən inkişaf etməyə başlaya bildiyi üçün sinif– dərs sistemi çoxsəviyyəli dərs sisteminə çevrilir.

Mənimsəmənin qiymətləndirmə meyarları biliklərin yaradılması və təfəkkürün inkişaf səviyyəsinin ölçü meyarları ilə əvəz olunur.

Biliklərin mənimsənilməsinin qiymətləndirilməsi meyarları bilik, anlama, tətbiqetmədir. Biliklərin mənimsənilməsi biliklərin yaradılması ilə əvəz ediləndə mənimsəmə meyarları təfəkkürün yüksək inkişaf səviyyəsinin ölçüsü olan *anlama–bilik tətbiqetmə–təhlil–qiymətləndirmə–yaradıcılıq* ölçü meyarları ilə əvəz edilir.

Müəllim və şagirdlərin ənənəvi təlimdəki rollarının dəyişməsi

Öyrətmədən öyrənməyə keçiddə müəllim rolunu dəyişərək, dərsdə, eyni zamanda həm dizayner, menecer, moderator,həm də mentor və tyutor olur. Bilikləri passiv şəkildə qəbul edən şagirdlər də, təlimin əsasına uyğun olaraq, öz rollarını dəyişirlər. Onlar bilikləri qəbul edəndən şəxsi biliklərini yaradana, qarşılıqlı fəaliyyətdə olana, özünü inkişaf etdirənə çevrilirlər. Təlimdə psixopedaqoji prosesə yüksək texnoloji yanaşmalar tətbiq edəndə təlim və tərbiyədə gedən psixopedaqoji proses qeyri-səlis məntiqlə qurulan nano-psixopedaqoji prosesə çevrilir.

"Tamlıq və qeyri-səlis təhsil modelinin" eksperimental tətbiqi. "Tamlıq və qeyri-səlis təhsil modeli" 2017-ci ildən Bakı şəhərinin T. Həsənov adına 23 nömrəli tam orta məktəbin ibtidai siniflərində "Öyrətmədən öyrənməyə keçid" layihəsi çərçivəsində tətbiq edilir.

Eksperimentin başlanması üçün əvvəlcə bir sıra işlər görüldü.

• Modelin təlim texnologiyası olan konstruktiv təlim texnologiyaları ilə dərs aparmaq üçün müəllimlərə öyrədici, təlimatlandırıcı təlimlər keçirildi.

• İbtidai siniflər üçün Azərbaycan dili dövlət proqramları "Biliklərin tamlıq və qeyri-səlis modelləşdirilməsi" texnologiyası əsasında "Tam və qeyri-səlis Azərbaycan dili" proqramları kimi modelləşdirildi.

• Riyaziyyat proqramları şagirdlərin inkişaf səviyyələrinə uyğunlaşdırıldı.

•Təfəkkürü fəaliyyətə gətirən tapşırıqlar (Azərbaycan dili və riyaziyyat fənləri üzrə) hazırlandı.

• Yeni qiymətləndirmə meyarları, onlara uyğun açıq və qapalı testlər hazırlandı.

• Şagirdlərin hansı sosial və intellektual bacarıqlara yiyələnəcəkləri müəyyən edildi.

Eksperiment zamanı pilot siniflərin şagirdlərinin idraki, akademik və sosial bacarıqlarının ilkin, aralıq və yekun monitorinqi aparılmışdı. Layihədə iştirak edən müəllimlərə il ərzində tyutorluq və mentorluq xidməti göstərilmiş, onların apardıqları nümayiş dərsləri korrektə edilmişdi.

Eksperimentin ikinci ilində məqsəd müəllimlərin "Tam və qeyri-səlis Azərbaycan dili" proqramları üzrə sərbəst konstruktiv dərslərinin dizaynını etmək, yaradıcı tapşırıqlar hazırlamaq, onları qiymətləndirmək, şagirdlərin komandada təlim fəaliyyətinin çoxşaxəli strukturunu qurmaq idi. Bununla yanaşı, şagird idrakının intellektual və sosial inkişaf yolunu izləmək məqsədi qarşıya qoyulmuşdu. Alternativ proqramda diqqət şagirdlərin yazılı və şifahi nitqlərinin nizamlı inkişafına yönəldilmişdi. Bu inkişaf şagirdlərin şüurlu təlim fəaliyyətində bilmədikləri, başa düşmədikləri hər bir sözün mənasını aydınlaşdırmaq istiqamətində gedirdi. Düşündürücü suallar qoymaq və onları cavablandırmaq bacarıqları vacib dil qabiliyyətlərindən biridir. Bu əqli bacarıqlar hər bir şagirdin təfəkküründə formalaşandan sonra universal bacarığa çevrilib, hər bir yeni sözün mənasını açır.

Dərs ilinin sonunda pilot siniflərdə nümayiş dərsləri aparıldı. Bu dərslərin keçirilməsində məqsəd şagirdlərin öz biliklərini necə, hansı yolla yaratdıqlarını göstərmək idi. Dərslər dinlənilib müzakirə edildi. Şagirdlərin bilikləri (proqram və proqramdan kənar), öz bilikləri üzərində əqli əməliyyatlar aparmaları, biliklərini təqdimetmə bacarıqlarının səviyyəsi, kollektiv təlim fəaliyyətləri müzakirə edilərək, psixoloji və pedaqoji cəhətdən qiymətləndirildi.

Layihədə alınan nəticələrin düzgünlüyünü, dayanıqlığını yoxlamaq üçün 3 formatda müqayisə aparıldı:

• Azərbaycan dilindən dövlət proqramlarının məzmunu və quruluşunun "Tam və qeyri-səlis Azərbaycan dili" proqramları ilə müqayisəsi;

• dövlət proqramları ilə işləyən müəllimlərin dərslərinin pilot siniflərin müəllimlərinin dərsləri ilə müqayisəsi;

• hər iki proqramla oxuyan şagirdləri idrak testlərindən keçirərək, onların idrak səviyyəsini müqayisə etmək.

1-ci formatda müqayisə zamanı "Tam və qeyri-səlis Azərbaycan dili" proqramı üzrə mənimsəmə dövlət proqramlarında olduğundan 35–40% artıq idi. Azərbaycan dili bilikləri tam və anlaşıqlı şəkildə öyrənilir, biliklərin rəqəmsallaşdırılması biliklərin infoqrafikasını yaradırdı. Bu infoqrafika şagirdlərdə öz biliklərini ayrı-ayrı müstəvilərdə tətbiq etmək bacarığı formalaşdırırdı.

2-ci formatda layihədə iştirak etməyən ibtidai siniflərdə (I–IV) açıq dərslər keçirildi və hər iki bölmənin nəticələri idrakın inkişaf paradiqmaları əsasında müqayisə edildi. Pilot-layihə və dövlət proqramı ilə aparılan dərslərin arasında böyük fərqlər aşkar olundu.

Layihədə iştirak edən müəllimlər dərslərdə şagirdlərin birgə fəaliyyətdə biliklərini necə əldə etdiklərini, bilik və bacarıqlardan istifadə edərək gələcək bilikləri proqram daxilində və proqramdan kənar əldə etmə yollarını göstərdilər. Bu idraki bilikləri əldə etmə prosesində qoyulan məntiqi sualları əsaslandırıb cavablandıran şagirdlər yeni biliklərini nümayiş etdirdilər.

Dövlət proqramı ilə işləyən müəllimlərin apardıqları dərslərdə, əsasən, şagirdlərin biliklərini meydana çıxarmaq, yeni bilikləri, texniki vasitələrdən istifadə edərək, əlverişli üsulla ötürmək məqsədini daşıdığı müşahidə edildi. Koqnitiv cəhətdən passiv olan şagirdlər müəllimlərin internet resurslarından yararlanaraq təşkil etdikləri rəngarəng fəaliyyətlərdə qoyulmuş bilikyönümlü sualları əldə etdikləri biliklərlə mexaniki cavablandırırdılar. Bu təlim fəaliyyəti şagirdlərin mənimsədikləri biliklərin səviyyəsini göstərirdi.

Dərslərin müzakirəsi zamanı dövlət proqramları ilə işləyən müəllimlər proqram çərçivəsində verilən biliklərin mənimsənilməsini əsas götürərək, işlərini proqramlarda verilən tələblər əsasında qurduqlarını və bu dərslərin layihədə iştirak edən müəllimlərin dərslərindən çox fərqlənmədiyini qeyd etdilər. Onlar öyrənməni, sadəcə olaraq, bir sualı dönə-dönə təkrarlayaraq, öyrənib yadda saxlamaq kimi nəzərdə tuturdular. Dərslərdə qoyulan sualları və verilən tapşırıqların struktur quruluşunu Blum taksonomiyasının sualları ilə müqayisə edəndə dövlət proqramı ilə təhsil alan şagirdlərin idrakları ibtidai səviyyədə, yəni "bildim, anladım, tətbiq etdim" səviyyəsində görünürdü.

Pilot siniflərdə müəllimlərin və şagirdlərin dərs prosesində qoyduqları sualların və tapşırıqların struktur quruluşu yüksək idraki bacarıqlardan – biliklərin əldə edilməsi, onların analiz və sintez edilməsi, əməli şəkildə davamlı dəyişdirilməsindən ibarət idi. Ən əsası da o idi ki, şagirdlərin mövzuya qoyduqları sualların əksəriyyəti *nəyə görə?, necə?* tipli açıq suallar idi.

3-cü formatda müqayisə aparmaq məqsədi ilə layihədə iştirak edən şagirdlərin əqli səviyyəsinin inkişafını yoxlamaq üçün idrak testləri hazırlanmışdı.Testlərdə qoyulan 6 sualın hər biri idrak bacarıqlarının hansı səviyyədə inkişaf etdiyinin

göstəricisi kimi qəbul edilmişdi. Suallar J. Piajenin idrak nəzəriyyəsində təfəkkür əməliyyatlarını göstərən mexanizmlərə əsasən qurulmuşdu.

Testlər layihədə iştirak edən III və IV sinif şagirdləri arasında aparılmışdı. Nəticələri müqayisə etmək üçün həmin testlər dövlət proqramları ilə çalışan IV siniflərdə də aparıldı.

İdrak testlərinin məzmunu və açıqlaması:

• proqramla verilən biliklərin əhatə dairəsinin ölçülməsi: assosiativ təfəkkür, sintez (Hər sual 2 balla qiymətləndirilir. Proqramdan kənar suallar 3 balla qiymətləndirilir);

• çoxluğun elementlərə bölünməsi: təsnifatlaşdırma, analitik təfəkkür (Hər düzgün bölgü 3 balla qiymətləndirilir).

• Sıranı davam etdirin (əvəzetmə əməliyyatı, yaradıcı təfəkkür). Hər dəyişməyə (“+”); (“–“) 2 bal; (“x” “:”) 4 bal verilir. Qarışıq (“+” “–“ “x” “:”) dəyişmələrə 6 bal verilir.

• Hallandırın (multiplikativ əməliyyat; oxşarlığı tapmaq bacarığı). Hər düzgün hallanmaya 2 bal, proqramdan kənara çıxan hallanmalara 4 bal verilir.

• Həndəsi fiqurların düzəldilməsi (yaradıcı təfəkkür). Hər fiqura 4 bal verilir.

• Hekayəni davam etdirin (yaradıcı təfəkkür). Maraqlı süjet – 6 bal; müəllifin səsi – 4 bal; düşündürücü məqam – 6 bal; 40–50 söz – 4 bal; 60–80 və daha çox sözə 6 bal verilir. Səhvsiz –5 bal; 2–4 səhvə –4 bal; 5–6 səhvə 3 bal; 7 səhvə 2 bal verilir.

Test 100 ballıq sistemlə qiymətləndirilmişdi.

51 və daha çox bal toplayanlar yüksək təfəkkür bacarıqlarına malikdirlər. 50 baldan aşağı toplayanlar aşağı təfəkkür bacarıqlarına malikdirlər.

Monitorinqdə eksperimental siniflərdən 75, dövlət proqramı ilə işləyən siniflərdən 147 şagird iştirak edirdi.

Testin nəticələri:

1. Pilot siniflərin 75 şagirdindən 50 nəfəri 51-dən çox bal toplayaraq, yüksək idraki səviyyədə qərarlaşmışlar. Bu, şagirdlərin 66,6%-ni təşkil edir.

2. Dövlət proqramı ilə təhsil alan siniflərin 147 şagirdindən 62 nəfəri yüksək idraki bacarıqlar nümayiş etdirmişlər. Bu, şagirdlərin 42,1%-ni təşkil edir.

3. Dövlət proqramı ilə təhsil alan bir sinfin 27 şagirdindən 20-sinin nəticəsinin 50 baldan çox olması bölmənin sinifləri arasında ən yüksək nəticə olmuşdu. Bu, dövlət proqramı ilə işləyən müəllimin şagirdlərə düşüncə sərbəstliyi verməsinin, onların biliklər üzərində iş apardıqlarının göstəricisi kimi qəbul edilir. Sxem 3-də nəticələr təqdim olunur.

Dövlət proqramı ilə yazılan dərsliklərin həmmüəllifi olan iki nəfər müəllimin sinfi (III və IV siniflər) ən aşağı nəticələr göstərdi.

İdrakın inkişafının ölçü mexanizmi kimi götürülən “İdrak testləri”nin nəticəsi onu göstərir ki, şagirdlərin idrakının inkişafı bir neçə amildən asılıdır. Bu amillər

Sxem 3



təlimin məqsədlərindən, proqramların strukturundan, müəllimdən, konstruktiv təlim mühitindən, verilən tapşırıqlardan, şagirdlərin əqli və təlim fəaliyyətlərindən, həmçinin təhsil sisteminin başqa komponentlərindən asılıdır. Bu isə dayanıqlı təhsil sisteminin transformasiyası üçün təklif edilən "Tamlıq və qeyri-səlis təhsil modeli"nin əsaslarıdır. Bu modeli gələcəkdə yuxarı siniflərdə ardıcıllıqla tətbiq etsək, bu suallara cavab axtarmaq lazım gələcək:

– Şagirdlər idrak səviyyələrinin inkişafına uyğun bilikləri necə inkişaf etdirirlər?

– Proqram bilikləri şagirdlərin inkişaf səviyyələrinə nə qədər uyğundur?

– Modelləşdirilmiş dövlət proqramları ilə modelləşdirilməmiş dövlət proqramlarının yerinə yetirilməsində nə kimi fərqlər vardır?

İbtidai sinif şagirdlərinin valideynləri öz övladlarının intellektual, sosial və idrak bacarıqlarının inkişafını real həyatda hiss etməyə başladıqları üçün layihəni alqışlayaraq ona dəstək oldular.

Layihənin həyata keçirilməsində qarşıya çıxan çətinliklər:

– Layihə 5 sinifdə yalnız 2 fənlə (Azərbaycan dili və riyaziyyat) davam etdiyi, başqa dərslərdə idrakın inkişafına yol açan konstruktiv mühit yaradılmadığı üçün dərketmə fəaliyyətinin səviyyəsi aşağı düşür.

– Layihədə iştirak etməyən müəllimlərin əsas məqsədləri dərs prosesində bilikləri ötürmək, onları tətbiq etməklə möhkəmləndirib, test tapşırıqlarından yüksək ballar toplamaq olduğu üçün onlar inkişafetdirici mühitin yaradılmasında, təfəkkürü hərəkətə gətirən tapşırıqlar verməkdə maraqlı olmurlar.

– Valideynlər və müəllimlər test üsulunun yüksək nəticələrə yol açdığını və təlimdə bunu əsas məqsəd kimi gördükləri üçün bu istiqamətdə fəaliyyətə meyilli olurlar.

Nəticə/ *Conclusion*

Sonda aşağıdakı nəticələrə gəlirik:

1. İki il "Tam və qeyri-səlis Azərbaycan dili" proqramı ilə dərs keçən IV sinif şagirdlərinin yekun bilikləri dövlət proqramı ilə təhsil alanların biliklərindən 40% artıq olmaqla yanaşı, onlar ibtidai təhsil səviyyəsinin Azərbaycan dilindən proqram biliklərinə sıxılmış formada yiyələnmişlər. Bu, fənnin tədrisinə ayrılan vaxtın 30–35% azalması deməkdir.

2. Dərs prosesində şagirdlər məntiqi əməliyyatlar vasitəsi ilə biliklər arasında qarşılıqlı əlaqələri və münasibətləri taparkən, təsnifləşdirərkən, yaxud başqa biliklərlə əvəz edərkən onların təfəkküründə davamlı əməli bacarıqlar formalaşır.

3. Kateqorial (dəyişən) və invariant (dəyişməyən) biliklərin rəqəmsal xüsusiyyətləri hər bir şagirdin bilik səviyyəsini müəyyən etməyə imkan verdiyindən onlar üçün ümumi proqram əsasında fərdi proqramlar tərtib edib, fərdi təlim vermək olar.

4. Pilot siniflərdə tam və qeyri-səlis proqram əsasında Azərbaycan dili, riyaziyyat fənləri üzrə biliklər tam sxemdə qurulduğu üçün şagirdlərin bilikləri hər tədris ilində genişlənərək dərinləşir.

5. Proqram biliklərini "Tamlıq və qeyri-səlis təhsil modeli"ndə mənimsəyərkən və konstruktiv təlim mühitində təfəkkürü fəaliyyətə gətirən tapşırıqları yerinə yetirərkən şagirdlər dərs müddətinin 30-40% -i ərzində əqli fəaliyyətdə olurlar.

6. Konstruktiv təlimin interaktivliyində qrupdaxili və sinif müzakirələri zamanı şagirdlərin akademik, sosial, intellektual bacarıqlarının sürətlə paylanması gedir, onların bilik və bacarıqlarının sərhədləri genişlənir.

7. Dayanıqlı təhsilin komponentlərini lokal bir çevrədə, eksperimental olaraq tamlıq və qeyri-səlis təlim modelinin komponentləri ilə əvəz edərkən, yeni bir təhsil modeli – "Tamlıq və qeyri-səlis təhsil modeli" alınır.

8. Biliklərin tam və qeyri-səlis modelləşdirilməsi texnologiyası ilə bütün fənlər üzrə bilikləri modelləşdirmək olar, çünki bütün fənn biliklərinin daxilində dəyişən və dəyişməyən biliklər vardır.

9. Biliklərin tam və qeyri-səlis modelləşdirilmə texnologiyası, konstruktiv təlim prinsipləri əsasında yeni nəsil dərsliklər– rəqəmsal dərsliklər yaratmaq olar. Bu dərsliklərdə biliklər tam bir sxemdə, ***a, b, c, d*** səviyyələrində verilməlidir. Hər bir səviyyəyə uyğun inkişaf etmiş şagirdlər bu dərsliklərin öz səviyyələrinə uyğun olanından istifadə edə bilərlər.

10. Təlim prosesində "öyrənməyi" öyrədərkən yaddaş məktəbi təfəkkür məktəbi ilə əvəz edilir.

Ədəbiyyat / *Reference*

1. Bünyatova F. (2008). Konstruktiv təlim: mahiyyəti, prinsipləri və dərslərdən nümunələr. Bakı.
2. Bünyatova F. (2012). "Maşın təlimi üçün biliklərin tamlıq məntiqi və qeyri səlis modelləşdirilməsi". Vladimir Mixayloviç Koleşko tərəfindən tərtib edilmiş "Ağıllı Sistemlər" kitabı, fəsil 7.
3. Bünyatova F. Konstruktiv təlim texnologiyası və nanopsixopedaqoqikanın perspektivləri. http://kaynakca.hacettepe.edu.tr/eser/289581/proceedings-of-9th-international-educational-technology-conference
4. Bünyatova F., Həsənova S. Təhsildə tamlıq və qeyri-səlis məntiqin tətbiqi. https://ejercongress.org/public/assets/images/ pdf
5. Bünyatova F., Salamov G. 3D-dərsliyin tamlıq (inteqral) və qeyri-səlis modelləşdirilməsi. https://www.academia.edu/31107783/._Whole_integral_and_fuzzy_model_of_e_textbook_in_3D_
6. Bünyatova F., Salamov G. Biliklərin tamlıq və qeyri-səlis modelləşdirmə texnologiyası – BTQSMT.
7. Bünyatova F., Salamov G. Distant təhsilin yeni strategiyası.
8. Əskər Zadə Lütfi. (1976). Dil dəyişkənliyi konsepsiyası və onun təxmini həllərin qəbuluna tətbiqi. Moskva: "Mir".

https://eric.ed.gov/?q=information+AND+ICTS+AND+education&ff1=pubReference+Materials+-+Vocabularies%2FClassifications

9. İlahi R., Vidiaty İ. və Abdullah A.G. Təhsildə qeyri-səlis sistemin tətbiqi.
10. İsmayılov R. (2014). Azərbaycan dili-4. Bakı.
11. Kooperativ təlimin 10 əsas strategiyası. https://edtech4beginners. com/2017/08/03/10-top-cooperative-learning-strategies-and-some-tech-tools-that-could-come-in-handy/
12. Bunyatova F., Hasanova S. Eğitimde Bütünlük ve Bulanık Mantığın Uygulanması.
13. Taksonomiya Bluma. https://4brain.ru/blog/
14. 10 Top Cooperative Learning Strategies (and some tech tools that could come in handy).
15. Asker Zadeh Lotfi. (1976). The concept of linguistic variable and its application to the adoption of approximate solutions, Moscow: Mir.
16. Bunyatova F. (2008). Constructive teaching: root, principles, problems and examples from lessons. Baku.
17. Bunyatova F. (2012). «Logic of Integrity, Fuzzy Logic and Knowledge Modeling for Machine Education». The book «Intelligent Systems» edited by Vladimir Mikhailovich Koleshko. http://www.intechopen.com/books/intelligent-systems/logic-of-integrity-fuzzy-logic-and-knowledge-modeling-for-machine-education
18. Bunyatova F. Constructive teaching technology and perspectives of nanopsychopedagogy, p.223.http://kaynakca.hacettepe.edu.tr/eser/289581/proceedings-of-9th-inter-national-educational-technology-conference
19. Bunyatova F., Karimova Y. Transformation of education system supported by the government. http://journal.edu.az

20. Bunyatova F., Salamov G. (2014). New Strategy of the Distance. Education Universal Journal of Educational Research.
21. Bunyatova F., Salamov G. Technology of modeling of integrity and fuzzy model of knowledge – IFMK.
22. Bunyatova F., Salamov G. Texnologiya modelirovaniya chelovechnosti i nechetkoy modeli znaniy – İFMK DOI.
23. Bunyatova F., Salamov G. Whole (integral) and fuzzy model of e-textbook in 3D.
24. Drayden Gordon. Dr. Jeannette Vots. (2002). The learning revolution. https://iopscience.iop.org/ article/10.1088/1757-899X/434/1/012308
25. Fleyvell D. (1967). Geneticheskaya psixologiya Jana Piaje. Moskva.
26. Ilahi R., Widiaty I., Abdullah A.G. Fuzzy system application in education. IOP Conference Series: Materials Science and Engineering, Volume 434, № 1.
27. Piajete J. (2001). The Selected Papers, Moscow.
28. https://edtech4beginners.com/2017/08/03/10-top-cooperative-learning-strategies-and-some-tech-tools-that-could-come-in-handy/
29. https://ejercongress.org/public/assets/images.pdf
30. https://eric.ed.gov/?q=information+AND+ICTS+AND+education&ff1=pubReference+Materials+-+Vocabularies%2FClassifications.

Pedagogy

Organization of educational work in educational institutions in accordance with the pedagogical requirements of our religious and national-cultural values

Konul Nabiyeva
Researcher of the Department of Education Economics and Management of the Institute of Education of the Republic of Azerbaijan. Azerbaijan.
Email: aliyeva_konul@myrambler.ru | https://orcid.org/0000-0002-0333-4167

Abstract. The article highlights the need for children and young people to receive information about religion from reliable sources, as one of the goals of state education policy, given the need to deepen knowledge of national and cultural, as well as our religious values in secondary schools. The author discusses the role of managers, subject teachers and educators in the organization of educational work in accordance with the pedagogical requirements of our religious and national-cultural values in educational institutions, provides information about the work to be done in this direction in their action plan.When the article deals with religious knowledge, it focuses on the essence of all religions, the scripture, as well as religious radicalism. The lack of systematic religious education for the younger generation increases the likelihood that they will be influenced by religious radicalism and superstition. Therefore, the author makes proposals to protect the young religious generation from the psychological influence of various radical religious movements in educational institutions.

Keywords: religious ceremony, national-cultural values, religious radicalism, custom and tradition, moral events.

http://dx.doi.org/10.29228/edu.349
To cite this article: Nabiyeva K. (2020) Organization of educational work in educational institutions in accordance with the pedagogical requirements of our religious and national -cultural values. *Journal of Preschool and Primary Education*, V. 233, Issue IV, pp. 27–35.
Article history: Received – 06.10.2020; Accepted – 13.10.2020

Pedaqogika

Təlim-tərbiyə müəssisələrində dini və milli-mədəni dəyərlərimizin pedaqoji tələblərə uyğun maarifləndirmə işinin təşkili

Könül Nəbiyeva
Azərbaycan Respublikası Təhsil İnstitutunun Təhsilin iqtisadiyyatı və idarə olunması şöbəsinin elmi işçisi. Azərbaycan. E-mal: aliyeva_konul@myrambler.ru
https://orcid.org/0000-0002-0333-4167

Annotasiya. Məqalədə ümumtəhsil məktəblərində milli-mənəvi, o cümlədən, dini dəyərlərimizlə bağlı biliklərin dərinləşdirilməsinə ehtiyac olduğunu nəzərə alaraq, uşaqların və gənclərin dinlə bağlı məlumatları etibarlı mənbələrdən almalarının vacibliyi dövlətin təhsil siyasətinin məqsədlərindən biri kimi vurğulanır. Müəllif məqalədə təlim-tərbiyə müəssisələrində dini və milli-mənəvi dəyərlərimizin pedaqoji tələblərə uyğun maarifləndirmə işinin təşkilində idarəedənlərin, fənn müəllimlərinin, tərbiyəçi-müəllimlərin rolundan bəhs edir, onların fəaliyyət planında bu istiqamətdə görülməli olan işlər haqqında məlumat verir. Məqalədə dini biliklər dedikdə, əsasən, bütün dinlərin, müqəddəs kitabların mahiyyəti, eləcə də dini radikalizm haqqında məlumatlar nəzərdə tutulur. Gənc nəslə lazımi dini biliklərin sistemli şəkildə verilməməsi onların dini radikalizmin, xurafatın təsiri altına düşmələri ehtimalını artırır. Buna görə də müəllif təlim-tərbiyə müəssisələrində gənc nəslin müxtəlif radikal dini məzhəb və hərəkatların psixoloji təsiri altına düşmələrindən qorunması məqsədi ilə təkliflərini verir.

Açar sözlər: dini mərasimlər, milli-mənəvi dəyərlər, dini radikalizm, adət-ənənə, mənəvi-əxlaqi tədbirlər.

http://dx.doi.org/10.29228/edu.349
Məqaləyə istinad: Nəbiyeva K. (2020) Təlim-tərbiyə müəssisələrində dini və milli-mədəni dəyərlərimizin pedaqoji tələblərə uyğun maarifləndirmə işinin təşkili. «Məktəbəqədər və ibtidai təhsil», № 4 (233), səh. 27–35.
Məqalə tarixçəsi: göndərilib – 06.10.2020; qəbul edilib – 13.10.2020

Giriş / *Introduction*

Dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biri milli və ümumbəşəri dəyərlərlə sıx əlaqədə olan şəxsiyyətin formalaşmasıdır. İndiki dövrdə milli-mədəni ənənələrin dirçəldilməsi və inkişafı, xüsusilə aktualdır. Bu, əslində, qərb mədəniyyətinin və davranış standartlarının elementlərinin intensiv nüfuz etməsinə qarşı müqavimətdir. Özünə hörməti olan, azad, yaradıcı, müstəqil bir şəxsin formalaşması və inkişafında başlıca amillərdən biri olan milli özünüdərkin formalaşması xalqın dini-mənəvi dəyərlərinin, milli mədəniyyətinin ümumbəşəri dəyərlərlə sıx, əlaqəli şəkildə öyrənilməsi baxımından böyük əhəmyyət kəsb edir.

Azərbaycan Respublikası 25 yanvar, 2001-ci il tarixli «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya»ya qoşulmuş, milli qanunvericiliyin bu Konvensiyanın tələblərinə və Avropa standartlarına uyğun təkmilləşdirilməsi öhdəliyini götürmüşdür. Bu istiqamətdə irimiqyaslı tədbirlərdən biri də Azərbaycan Respublikası Təhsil Nazirliyinin 15.01.2019 tarixli əmri ilə təsdiq olunmuş «Müasir dövrdə ümumtəhsil məktəb şagirdlərinin tərbiyəolunma sisteminin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında» 2019-cu il üçün Fəaliyyət Planıdır. Həmin fəaliyyət planındakı tədbirlər sırasında milli-mənəvi, ümumbəşəri dəyərlərin formalaşdırılması, milli-mənəvi, ümumbəşəri, multikultural dəyərlərin təbliği və təşviqi nəzərdə tutulur.

Əsas hissə / *Main Part*

Cəmiyyətdə dini mərasimlər, adət-ənənələr hər bir xalqın mənəviyyat səviyyəsini xarakterizə edən mədəniyyət amillərindən biridir. Dini mərasimlər, adət-ənənələr xalqı birliyə səsləyən vasitələrdir. Hər bir xalq milli qüruru, milli mənlik hissini tərbiyə edən və formalaşdıran özünəməxsus ənənələri ilə fəxr edir. Bu hisslər insana mənəvi məmnunluq gətirir və bunlar olmadan, insan özünü və fəaliyyətini qüsurlu hiss edir.

Ənənələr, mərasimlər sisteminin təşkil və inkişaf etdiyi cəmiyyət sabitliyi ilə xarakterizə olunur. Bayramların, adət-ənənələrin, dini mərasimlərin olmadığı cəmiyyətdə isə mükəmməl və sağlam mühitin olmasından söhbət gedə bilməz. Dini adət-ənənələr, mərasim və bayramlar mənəvi tərbiyənin əvəzsiz vasitəsi olmaqla, xalq pedaqogikasının əsasını (tərbiyə işləri, etika qaydaları, gənc nəslin düşüncə və hisslərinə təsir etmək imkanları və s.) təşkil edir. Bayramlar, dini mərasimlər, adət-ənənələr fərdin sosial həyatın tələblərinə uyğunlaşmasına güclü təsir göstərən vasitələrdir. Belə tədbirlərdə hamının yeri və rolu vardır.

Uşaqların mənəvi tərbiyəsində təhsil müəssisələrində, o cümlədən, uşaq bağçalarında dini mərasim, adət və ənənələrdən istifadə problemi aktualdır,

çünki: 1) uşağın tərbiyəsi, şəxsiyyətinin inkişafı və formalaşdırılması ailənin, təlim-tərbiyə müəssisələrinin əsas vəzifələrindən biridir; 2) mənəvi tərbiyə uşaq təlim-tərbiyə müəssisələri ilə ailə arasında əməkdaşlıq şəraitində yaranır; 3) təhsil müəssisələri, sosial təhsil və tərbiyə müəssisəsi olaraq, mövcud xalq tərbiyəsi ənənələrinə əsaslanırlar [Əsədova İ.M. Məktəbəqədər müəssisələrin idarə olunmasında dəyərlər sistemi, 2019].

Mənəvi-əxlaqi tərbiyə prosesi, öz təbiəti etibarı ilə, müəyyən bir mədəni, tarixi mühitdə reallaşan, canlı və davamlı bir prosesdir. Bu prosesi özünəməxsus mədəni və tarixi ənənələrin sintezində (dövlət, dini, etnik və s.) nəzərdən keçirmək lazımdır.

Şəxsiyyətin mənəvi cəhətdən formalaşması, inkişafi mədəni və tarixi təcrübənin inkişafı ilə bağlıdır. Buna görə də müasir cəmiyyətin mənəvi böhranını aradan qaldırmağın ən sadiq və konstruktiv yollarından biri dini inancla, dini etiqadla radikal qruplar arasındakı kəskin fərqləri görə bilmək üçün maarifləndirmə işlərinin aparılmasıdır. Məktəb bu vəzifənin həyata keçirilməsində əsas qüvvələrdən biridir. Gənc nəslin dini və milli ənənələr haqqında məlumatlarının zənginləşdirilməsi, onların radikalizmdən uzaq əqidədə formalaşdırılmasında pedaqoji kollektivin rolu böyükdür [Əsədova İ.M. Təhsilin milli və bəşəri dəyərlər əsasında təşkili, 2015].

Milli-mənəvi dəyərlər və adət-ənənələr əhalinin bütün təbəqələrinin həyatında formalaşır, gənc nəslin təhsili və maarifləmməsi prosesində təcəssüm olunur. Bu məqsədə çatmaq aşağıdakı vəzifələri həll etməklə həyata keçirilir [Ramazan B. Okulda Din Öğretiminin Toplumsal Temeli ve İşlevleri, 2011].



Strateji məqsədlər:

• Vətənə və xalqa xidmət;

• əhali arasında mənəvi dəyərlərin canlandırılması və formalaşdırılması;

• bəşəriyyətin tarix boyu inkişaf etdirdiyi ən yaxşı mənəvi-əxlaqi prinsiplərin mənimsədilməsi;

• cəmiyyətin mənəvi, mədəni və elmi dəyərlərinin qorunması və artırılması;

• əhali arasında təhsil və mədəni səviyyənin artırılması;

• əxlaqın əsas prinsiplərini özündə cəmləşdirən hər bir insanın ahəngdar mənəvi inkişafı: mehribanlıq, dürüstlük, qonşuya qayğı göstərmək, ailə əlaqələrini gücləndirmək, uşaqlara sevgi və böyüklərə hörmət;

• milli kimliyin formalaşması və ana dilinə hörmət.

Taktiki tapşırıqlar:

• bütün maraqlı strukturların birgə təhsil fəaliyyətlərinin intensivləşdirilməsi, təcrübə, məlumat mübadiləsi və birgə layihələrin həyata keçirilməsi;

• zorakılığa əsaslanan, kütləvi mədəniyyət nümunələrinin təbliğatına qarşı olan regional kütləvi informasiya vasitələri ictimai həyatda baş verən hadisələr barədə məlumat verərkən onların mənəvi-əxlaqi istiqamətini redaktə etmək;

• ailə, təhsil müəssisələri, təhsili, mədəniyyəti idarəetmə orqanları, uşaq və gənclər ictimai təşkilatları, uşaqların, yeniyetmələrin təhsili və ictimailəşməsində ənənəvi dinləri tanıyan təşkilatlar arasında qarşılıqlı əlaqələrin yeni səviyyəsinə nail olmaq;

• nəsillərin tarixi davamiyyətinin qorunması; milli mədəniyyətin inkişafı, mədəni irsə qayğıkeş münasibət; insanın dini-mənəvi xüsusiyyətlərinin formalaşması;

• gündəlik həyatda, fəaliyyətdə hər bir insanın milli hisslərinin, milli ləyaqətinin təsdiqi; bir-birinə hörmətin formalaşması və təkəbbürün, eqoistliyin aradan qaldırılması.

Təşkilati vəzifələr:

• müxtəlif sosial qurumların, dövlət və ictimai birliklərin fəaliyyətinin əlaqələndirilməsi;

• cəmiyyətin mənəvi sağlamlığının bərpası üçün ayrılmış mənbələrin cəmlənməsi; bu mənbələrdən daha səmərəli istifadəni təmin etmək;

• sosial, sağlamlıq və təhsil proqramlarında mənəvi-əxlaqi tərbiyə, maarifçilik vəzifələrinin birləşdirilməsi.

Mənəvi və əxlaqi tərbiyə işinin təhsil sahəsində əsas istiqamətləri:

• təhsil təşkilatlarının təlim fəaliyyətinə mənəvi-əxlaqi komponentlərin daxil edilməsi;

• təhsil təşkilatlarının fəaliyyətinə uşaqların və gənclərin mənəvi-əxlaqi tərbiyəsinə yönəldilmiş işlərin daxil edilməsi, valideynlərin və ictimai təşkilatların bu işə cəlb edilməsi;

• uşaq və gənclərin mənəvi-əxlaqi tərbiyəsi məsələlərinə dair konfranslar, seminarlar, görüşlər keçirmək;

• uşaqlar və yeniyetmələr üçün tarixi, ölkəşünaslıq, mənəvi, vətənpərvərlik yönümlü ixtisaslaşmış turların təşkili;

• məktəbdənkənar tədbirlərin təşkili: vahid, ictimai, açıq bir təhsil məkanına ekskursiyalar, xeyriyyəçilik, ekoloji, hərbi-vətənpərvərlik tədbirləri, faydalı fəaliyyətlər və s.;

• uşaq və gənclərin mənəvi-əxlaqi inkişafı, vətəndaş tərbiyəsi üçün ailə və məktəbin qarşılıqlı əlaqəsini gücləndirmək;

• təhsil sisteminin müxtəlif səviyyələri üçün uşaq və yeniyetmələrin mənəvi, əxlaqi, vətəndaşlıq və vətənpərvərlik tərbiyəsinə dair elmi və metodik tövsiyələrin yaradılması;

• mütəxəssislər tərəfindən uşaq və yeniyetmələrin mənəvi, əxlaqi, vətəndaşlıq, vətənpərvərlik tərbiyəsi mövzusunda elmi və praktik seminarların aparılması.

Gənclər siyasəti sahəsində fəaliyyət istiqamətləri:

• normativ bazanın inkişafı, gənclər siyasəti sahəsində regional standartların müəyyənləşdirilməsi;

• fəaliyyətlərin həyata keçirilməsinə hazırlanmış proqram yönümlü yanaşmanın olması;

• gənclər siyasətinə məlumat dəstəyi sisteminin inkişafı; gənclər siyasətinin həyata keçirilməsi vəziyyətinin monitorinq sistemi (rəy);

• gənclərin mənəvi, əxlaqi, vətəndaşlıq və vətənpərvərlik tərbiyəsi səviyyəsinin yüksəldilməsi;

• gənclərin fəal ictimai təşkilatlarının və nümayəndəlik orqanlarının olması;

• dini-mənəvi, əxlaqi tərbiyə planlı, sistemli, daimi və təhsil fəaliyyəti sahəsində dövlət siyasətində prioritet sahələrdən biridir.

Mənəvi-əxlaqi tərbiyə və maarifləndirmə sisteminə müvafiq dövlət, bələdiyyə qurumları, ictimai təşkilatlar, təhsil, maarif və kütləvi maarifçilik fəaliyyətinin normativ hüquqi, mənəvi-əxlaqi bazası, həmçinin əhalinin mənəvi-əxlaqi tərbiyəsi üçün müəyyən tədbirlər kompleksi daxildir.

Dövlət Komitəsinin maarifləndirmə işi ilə bağlı qarşısına qoyduğu məqsədlər 2014–2020-ci illəri [Azərbaycan Respublikası, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin jurnalı, "Dövlət və Din". № 05 (58) 2018] əhatə edən Strateji Planını əsas tutaraq, məktəbdə dini mərasimlərin və bayramların keçirilməsi zamanı, əsasən, bir sıra məsələlərə diqqət yönəldilməlidir [«Dini etiqad azadlığı haqqında» Azərbaycan Respublikasının Qanunu, 20 avqust, 1992].

Dini hadisə, mərasim və bayramların təbliğində:

• dini-mənəvi dəyərlərin formalaşdırılması;

• sağlam mənbələr əsasında müntəzəm maarifləndirmə işinin aparılması;

• milli-vətənpərvərlik hisslərinin aşılanması, inanclı kontingent daxilində milli dövlətçilik işinin gücləndirilməsi;

• xeyriyyəçilik, humanist ideyalara yanaşma;

• mənəvi saflıq və əxlaqi tərbiyə;

• milli və ümumbəşəri dəyərlərin düzgün tərbiyəsi;

• milli mentalitetə, adət-ənənələrə əsaslanan dini qaydalar;

• dini mövzuların müasir inkişaf səviyyəsinə yüksəldilməsi;

• qızların təhsil almasının vacibliyinin ön plana çəkilməsi;

• erkən nikaha qarşı barışmazlıq;
• vahid məktəbli geyimlərinin olması;
• məqsədəuyğun bədii tərtibat;
• digər dinlərdən olan şagirdlərin də tədbirlərdə iştiraka cəlb olunmaları;
• multikulturalist və tolerant ideyalara yanaşma;
• valideynlərin bu tədbirlərə cəlb olunması (yanlış təsəvvürlü olduqları ehtimal olunan valideynlər, xüsusilə diqqət mərkəzinə çəkilməli, onların belə tədbirlərdə və söhbətlərdə iştirakına nail olmalı);
• dini təriqət üzvlərindən olan ailədən gələn şagirdlərin, xüsusilə diqqət mərkəzində saxlanılması (Onların valideynlərinin təsiri altına düşmək ehtimalı böyükdür. Eyni zamanda, onlar məktəb yoldaşlarını da müəyyən qədər təsir altına sala bilərlər);
• təhsilli din xadimlərinin, məktəbin ərazisində yaşayan nüfuzlu şəxslərin dəvəti və s. nəzərdə tutulur [Həsənli A. Müasir şəraitdə Azərbaycanda dini-mədəni dəyərlərin inkişaf xüsusiyyətləri. Bakı, 2014].

Dini hadisə, mərasim və bayramlara həsr olunmuş tədbirlər hazırlayarkən unutmaq olmaz ki, dini maarifləndirmə iki əsas səbəbə görə vacib sayılır:
• vicdan və təhsil azadlığı;
• vətəndaşların yanlış məlumatlandırılmasına qarşı dövlətin siyasəti.

Maarifləndirmə bütün neqativ hallara qarşı mübarizədə ən səmərəli vasitədir. Maarifləndirmənin əhəmiyyəti dini təhlükəsizliyin təminatında da ön plana çıxmaqdadır. Belə ki, dini maarifləndirmə düzgün aparıldığı təqdirdə dini təhlükəsizliyə yönələn təhdidlər azalır; ictimai-siyasi sabitlik təmin olunur; tolerantlıq ənənələrinin inkişafına təkan verilərək, dini zəmində yaranan ziddiyyətlərin, dövlətlər və xalqlar arasındakı qarşıdurmaların qarşısı alınır. Dini mərasimlər təşkil olunarkən dini radikalizmdən, təriqət ayrı-seçkiliyindən uzaq durmalı, belə mərasimlərin təşkili ssenarisi dinimizi, tariximizi, mədəniyyətimizi, ənənələrimizi, həyat tərzimizi əks etdirməlidir. Böyüməkdə olan gənc nəslin nümayəndələrinin mütərəqqi dünyagörüşə malik şəxsiyyətlər kimi formalaşdırılması istiqamətində aparılan işləri daha da gücləndirmək məqsədi ilə nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsində yerli təhsili idarəetmə orqanlarına metodik köməklik göstərilməsi nəzədə tutulur [«Müasir dövrdə ümumtəhsil məktəb şagirdlərinin tərbiyəolunma sisteminin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında» Təhsil Nazirliyinin Fəaliyyət Planı, 15 yanvar, 2019].

Düzgün maarifləndirmə, xurafatla mübarizə, elmimizin və mənəviyyatımızın inkişafı dinimizi xurafatdan qoruya və sağlam şəkildə gələcək nəsillərə ötürə bilər. Gənclərin radikal dini cərəyanların, yad düşüncələrin təsirindən qorunması, milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi məqsədi ilə keçirilən bu cür tədbirlərin böyük əhəmiyyəti vardır. İslam dini insanları təhsilə, elmə, həmrəyliyə çağırır və dini radikalizmə «yox» deyir [Mustafa K. Din ve toplum ilişkileri üzerine bir

genelleme, 2004]. Bu gün cəmiyyətdə bəzi insanların radikallığa yuvarlanması, zərərli fikirlərin yayılması dini təhsili zəruri edir. Ona görə də hesab edirik ki, insanları zərərli yollardan və fikirlərdən qorumağın ən optimal yollarından biri dini maarifləndirmədir.

Nəticə / *Conclusion*

Aparılan tədqiqatlara, anket sorğularına və təcrübəyə əsaslanaraq, aşağıdakı nəticələr əldə edilmişdir:

1. Təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafi, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması hər zaman diqqət mərkəzində saxlanılır.

2. Dövlətimiz din sahəsindəki siyasətini artıq real şəkildə həyata keçirir. Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyətə başlaması ilə də, bunun göstəricisi kimi, dinimizi yaxşı bilən kadrlar yetişdirilir.

3. Ümumtəhsil məktəbləri gəncləri müxtəlif radikal dini məzhəb hərəkatlarının psixoloji təsiri altına düşməkdən qoruyur. Məktəb öz şagirdlərini müasir dünyanın qorxulu tendensiyalarından qoruyur. Məktəblərə psixoloji dəstək də bu baxımdan zəruridir.

4. Müasir cəmiyyətdə ümumbəşəri dəyərlərin, o cümlədən, dini dəyərlərin, adət-ənənələrin qiymətləndirilməsi davam etdirilir. Uşaqlarda mənəvi cəhətdən düzgün olan hərəkətlər, davranışlar, hisslər, özünüdərk və təcrübənin cəmiyyətdə, ailədə, adət-ənənələrin təsiri altında formalaşması təsvir edilir.

5. Xalqın mütərəqqi ailə adət-ənənələri xalq pedaqogikasının ayrılmaz hissəsi olmaqla, erkən yaşlarından uşaqların mənəvi tərbiyəsində mühüm rol oynayır. Uşaqların tərbiyəsində xalq adət və ənənələrindən istifadə prosesində nəsillərin davamlılığı təmin edilir və bu, davamlı inkişaf üçün əsas şərtdir.

6. Tərbiyə müəssisələrində milli və dini bayramlar zamanı adət-ənənələrin nümayişi ailələrlə əməkdaşlıq şəraitində mümkündür.

7. Xalqın maddi və mənəvi mədəniyyətinin gələcək inkişafını nəzərə alan, insanların cəmiyyətdə tərbiyə olunması, mədəniyyət, texnologiya haqqında müasir bilikləri özündə birləşdirən xüsusi tərbiyə və təlim proqramları yaradılır.

Yaxşı olardı ki, tədbirlərin təşkilində milli-mənəvi irsimizin düzgün təbliği, dini mərasimlərin milli- mənəvi dəyərlərimizə və müasir dövrün tələblərinə uyğun keçirilməsi istiqamətində maarifləndirmə işi aparılsın. Uşaqların mənəvi tərbiyə sistemində dini bayramlar, mərasim və hadisələr yalnız uşaqlar üçün deyil, həm də onların valideynləri üçün, birlikdə təşkil olunsun. Bu tədbirlərdə zəhmət, əməksevərlik, qarşılıqlı yardım, nəzakət, xeyirxahlıq, sədaqət və digər mənəvi keyfiyyətlərin formalaşdırılmasına üstünlük verilsin.

Ədəbiyyat / *Reference*

1. Azərbaycan Respublikasının Konstitusiyası. (1995). 12 noyabr.
2. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 15.01.2019-cu il tarixli əmri ilə təsdiq olunmuş "Müasir dövrdə ümumtəhsil məktəb şagirdlərinin tərbiyəolunma sisteminin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında". 2019-cu il üçün Fəaliyyət Planı.
3. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu. (1992). 20 avqust. Bakı şəhəri, № 281.
4. H. Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər. (2007). Bakı: "Əbilov, Zeynalov və oğulları" nəşriyyatı, 280 s.
5. Əsədova İ.M. (2019). Məktəbəqədər müəssisələrin idarə olunmasında dəyərlər sistemi. Bakı: «Kurikulum» jurnalı, № 2, s. 43-48.
6. Əsədova İ.M. (2015). Təhsilin milli və bəşəri dəyərlər əsasında təşkili. Bakı: ARTİ-nin «Elmi əsərlər»i, № 4, s. 115.
7. Həsənli A. (2014). Müasir şəraitdə Azərbaycanda dini-mədəni dəyərlərin inkişaf xüsusiyyətləri. Bakı.
8. Ramazan B. (2011). Okulda Din Öğretiminin Toplumsal Temeli ve İşlevleri.
9. Mustafa K. (2004). Din ve toplum ilişkileri üzerine bir genelleme.
10. Gafiyatullina K.R. (2016). Rol religii v povsednevnom povedenii studencheskoy molodeji, kak obyekt upravlencheskogo vliyaniya. Moskva.
11. http://www.dqdk.gov.az/
12. https://dergipark.org.tr/tr/download/article-file/117932
13. http://deyerler.org/

Educational strategy

Factors influencing the improvement of the rating system in secondary schools

Ilhama Asadova
Senior researcher of ARTI. E-mail: i.esedova@arti.edu.az
https://orcid.org/0000-0003-1570-0192

Abstract. The article discusses the improvement of the rating system in secondary schools. It is noted that it is expedient to apply a new mechanism based on international experience to improve the rating system in the management of secondary schools.It is noted that the rating system of schools is based on the new academic year's forecasts and action plans and current year reports. Also, the key factors influencing the formation of the table of indicators, which are taken into account during the drawing up of the rating table, are discussed. The quality control system in schools is preferred by applying the method of calculation of the rating.

Keywords: rating system, quality indicators, rating indicators, student body, graduate, forecast, report.

http://dx.doi.org/10.29228/edu.344
To cite this article: Asadova I. (2020) Factors influencing the improvement of the rating system in secondary schools. *Journal of Preschool and Primary Education,* V. 233, Issue IV, pp. 37–54.
Article history: Received – 15.10.2020; Accepted – 22.10.2020

Təhsil strategiyası

Ümumtəhsil məktəblərində reytinq sisteminin təkmilləşdirilməsinin idarə edilməsi

İlhamə Əsədova
ARTİ-nin böyük elmi işçisi. E-mail: i.esedova@arti.edu.az
https://orcid.org/0000-0003-1570-0192

Annotasiya. Məqalədə ümumtəhsil məktəblərində reytinq sisteminin təkmilləşdirilməsindən bəhs olunur. Qeyd edilir ki, ümumtəhsil məktəblərinin idarə olunmasında reytinq sisteminin təkmilləşdirilməsi istiqamətində beynəlxalq təcrübəyə əsaslanan yeni mexanizmin tətbiqi məqsədəuyğundur. Məktəblərin reytinq sisteminin yeni tədris ilinin proqnozları və fəaliyyət planları, cari ilin hesabatları əsasında formalaşdığı vurğulanır. Həmçinin reytinq cədvəlinin tərtibi zamanı nəzərə alınan indikatorlar cədvəlinin formalaşmasına təsir göstərən əsas amillərdən söz açılır. Məqalədə ümumtəhsil məktəblərinin reytinq sisteminin qaydaları hazırlanıb və onun tətbiqi yolları layihə kimi təqdim olunur.

Açar sözlər: reytinq sistemi, keyfiyyət göstəriciləri, reytinq indikatorları, şagird kollektivi, məzun, proqnoz, hesabat.

http://dx.doi.org/10.29228/edu.344
Məqaləyə istinad: Əsədova İ. (2020) Ümumtəhsil məktəblərində reytinq sisteminin təkmilləşdirilməsinin idarə edilməsi. «Məktəbəqədər və ibtidai təhsil», № 4 (233), səh. 37–54.
Məqalə tarixçəsi: göndərilib – 15.10.2020; qəbul edilib – 22.10.2020

Giriş / *İndroduction*

Təhsilin aktual məsələlərindən biri ümumtəhsil məktəblərinin reytinq sisteminin təkmilləşdirilməsidir. "Nüfuzlu məktəb" axtarışında olan valideynlər övladı üçün seçim edərkən məktəb haqqında geniş məlumat əldə etməyə çalışırlar. Son onilliyə qədər məktəbin göstəriciləri yalnız məktəb məzunlarının ali məktəblərə qəbulu ilə dəyərləndirilirdisə, indi peşəkar pedaqoji heyət, müəllim-şagird-valideyn üçbucağında yaxşı münasibətlər, zəngin maddi-texniki baza, uğur və

nailiyyətlərin çoxluğu, ictimai nüfuzun səviyyəsi baxımından ön sırada olan məktəblərə şagird axınının çox olması müşahidə olunur. Məktəbin rahat şəraiti, tədrisin keyfiyyəti, müəllimlərin peşəkarlığı, müasir texnologiyaların tətbiqi kimi komponentlərin sistemli şəkildə bir-birini tamamlaması tədrisin keyfiyyətinin və məktəbin reytinqinin yüksəldilməsinə təsir edən əsas amillərdəndir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda (24 oktyabr, 2013) Fəaliyyət Planı (19 yanvar, 2015) üzrə təhsil müəssisələrində reytinq sisteminin təkmilləşdirilməsi məsələsi də nəzərdə tutulmuşdur. Bu baxımdan, digər müəssisələr kimi, ümumtəhsil məktəblərinin də reytinq sisteminin təkmilləşdirilməsi ilə əlaqədar işlər görülmüşdür. Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunması, həmçinin müəllimlik peşəsinin ictimai nüfuzunun yüksəldilməsi, səriştəli müəllimlərin işə qəbulu kimi məsələlər tədqirəlayiqdir. Dövlət səviyyəsində aparılan islahatlar nəticəsində ümumtəhsil məktəblərinin reytinqində yüksələn dinamika müşahidə olunur. Bununla yanaşı, məktəbin reytinq göstəricilərinin yüksək olmasında məktəbi idarəedənlərin rolu danılmazdır.

Əsas hissə / *Main part*

Azərbaycan Respublikasının normativ-hüquqi sənədlərində ümumtəhsil məktəblərində reytinq sisteminin təkmilləşdirilməsi problemi. Təhsilin inkişafında istiqamətləri əvvəlcədən müəyyənləşdirmək, müsbətyönlü meyillərin inkişafına şərait yaratmaq, neqativ tendensiyaları neytrallaşdırmaq və aradan qaldırmaq məqsədi güdən elmi tövsiyələr işləyib hazırlamaq təhsil siyasətinin əsas istiqamətlərindən biridir. Pedaqoji idarəetmə məsələlərini əhatə edən əsas istiqamət hazırda həyata keçirilən Azərbaycan Respublikasının normativ-hüquqi sənədlərində də öz əksini tapır. Keyfiyyətlilik və səmərəlilik "Təhsil haqqında" Qanunun əsas prinsiplərindəndir. Qanunun 9.1. və 9.3. maddələrində təhsilin keyfiyyət səviyyəsinin ölkədə qəbul olunan dövlət təhsil və peşə standartları əsasında formalaşdırılması beynəlxalq və ümumavropa təhsil sisteminin prinsiplərinə uyğundur ["Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu]. Bu, ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni inkişafla bağlı tələblərdən irəli gəlir. Qanun təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində və qiymətləndirilməsində reytinq sisteminin yaradılmasına şərait yaradır və onu aktuallaşdırır.

Digər normativ-hüquqi sənədlərdən biri olan "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 5.5. maddəsində ümumtəhsil sahəsində istedadlı uşaq və gənclərin aşkar olunması, inkişafı və dəstəklənməsinə, istedadlı şəxslərin, maddi vəziyyətindən asılı olmayaraq, təhsillərini davam etdirmələrinə təminat verilməsi öz əksini tapmışdır. Bu sənəddə deyilir: "Ümumi təhsil

sistemində baş verən dəyişiklikləri və kurikulumların keyfiyyətini dəyərləndirmək məqsədi ilə ümumtəhsil müəssisələrində ölkə səviyyəli qiymətləndirmə keçirilir" (14.3.) ["Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu]. Bu da təhsilin keyfiyyətinin müəyyənləşdirilməsi, uğurların və geriləmələrin aşkarlanması ilə yanaşı, məktəbin reytinqinin müəyyənləşdirilməsi imkanlarını genişləndirir. Həmin sənədin beynəlxalq qiymətləndirmə məsələləri 14.4. bəndində öz əksini tapır. Sənəddə deyilir: "Təhsilin vəziyyəti barədə məlumatlar əldə etmək, nəticələri digər ölkələrin nəticələri ilə müqayisə etmək və ümumi təhsilin inkişaf istiqamətlərini müəyyənləşdirmək məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ümumi təhsil müəssisələrinin beynəlxalq qiymətləndirmə proqramlarında iştirakı barədə qərar qəbul edə bilər" ["Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu]. Bu, məktəbin reytinq göstəricilərinə təsir edən amillərdəndir.

Ümumtəhsil məktəblərinin normativ-hüquqi bazasının beynəlxalq təhsil sisteminə uyğunlaşdırılmış variantda təkmilləşdirilməsi, modernləşdirilmış təlim proqramlarının, təlim resurslarının, dərsliklərin və dərs vəsaitlərinin hazırlanması, respublika miqyaslı müxtəlif tədbirlərin həyata keçirilməsi, çoxsaylı və müxtəlif tipli məktəblərin açılması təhsilin keyfiyyətinin təminatı üzrə yeni sistemin yaradılması ilə yanaşı, məktəblər arasında sağlam rəqabətin yaranmasına təkan verir. Bu proses ümumtəhsil məktəblərinin reytinqi məsələsini aktuallaşdırır. Xüsusən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda 2016-cu il üçün nəzərdə tutulmuş 3.3.7. nömrəli fəaliyyəti əks etdirən bənddə təhsil müəssisələrinin reytinq sisteminin təkmilləşdirilməsi məsələsi öz əksini tapmışdır. 2017-2019-cu illərdə təhsil tədqiqatçıları tərəfindən təhsil müəssisələrinin reytinqinin müəyyənləşdirilməsi ilə bağlı layihələr təqdim olunmuşdur. Həmçinin ümumitəhsil müəssisələrinin reytinq sisteminin göstəriciləri sırasına daxil olan amillər də (3.4.2.) bu sənəddə və təhsil haqqında digər dövlət sənədlərində öz əksini tapmışdır [Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası].

Belə göstəricilərdən biri müxtəlif sahələrdə bacarıq və istedadların aşkara çıxarılması və inkişaf etdirilməsini nəzərdə tutan tədbirlərdir. "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"nin müəyyən bəndlərində istedadlı uşaqlarla bağlı müəyyən təkliflər nəzərdə tutulur (5.4.4.) ["Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"].

Bacarıq və istedadların üzə çıxarılması və inkişaf etdirilməsinin yollarından biri də müsabiqə, yarış, sərgi və s. layihələrin hazırlanması və təşkilidir. Azərbaycan Respublikası Təhsil Nazirliyinin Bakı şəhər Təhsil İdarəsinin Təlimə Dəstək Mərkəzinin fəaliyyətində ümumtəhsil müəssisələrində xüsusi istedadlıların fərdi təhsil və inkişaf proqramlarının müəyyənləşdirilməsi, onların fərdi plan əsasında tədris prosesi və kurikulumdan kənar məşğuliyyətlərinin təşkili mexanizmlərinin

yaradılması, elm, incəsənət və idmanın ayrı-ayrı sahələri üzrə xüsusi yarışlar, müsabiqələr, sərgilər, layihələr, fənn olimpiadaları vasitəsi ilə aşkar edilməsi, onların istedad və qabiliyyətlərinin inkişaf etdirilməsi məsələləri öz əksini tapmaqdadır.

Ümumtəhsil məktəblərinin reytinq sisteminin təkmilləşdirilməsinə təsir edən normativ-hüquqi sənədlər sırasına Təhsil Nazirliyinin 28 noyabr, 2011-ci il tarixli, 1872 nömrəli əmri ilə təsdiq edilmiş "Ümumi təhsil müəssisəsinin fəaliyyətinin dövlət təhsil standartlarının tələblərinə uyğunluğunu müəyyənləşdirən meyarlar" sənədinə əsasən təhsil müəssisəsinin təhsil standartlarına uyğunluğunu qiymətləndirmək üçün akkreditasiya komissiyası onun fəaliyyətini aşağıdakı 9 istiqamət üzrə təhlil edir:

- Müəssisənin fəaliyyətinin təşkilati-hüquqi təminatı
- Müəssisənin idarə olunması
- Təhsil proqramlarının yerinə yetirilməsi vəziyyəti
- Müəssisədə təlim-tərbiyə işinin təşkili
- Müəssisənin kadr təminatı
- Müəssisədə metodik xidmətin təşkili
- Müəssisənin beynəlxalq əlaqələri
- Müəssisənin maddi-texniki bazası
- Müəssisənin tibbi və sosial-məişət şəraitinin vəziyyəti

Bu sənəd məktəbin son beş il ərzində inkişafı və fəaliyyətinin əsas göstəricilərinin dinamikasının izlənməsinə imkan verir. Son beş ildə pedaqoji kadrların ixtisaslarının artırılması və yenidən hazırlanması işinin təşkili, təhsilalanların fənn olimpiadalarında, müsabiqə və yarışlarda iştirakı, əldə etdikləri nəticələr, mənimsəmə səviyyəsinin nəticəsi olaraq akkreditasiya komissiyasının keçirdiyi test sorğularının nəticələri kimi göstəricilər də nəzərdə tutulur. Həmin sənəddə məktəbin fəaliyyəti, bütövlükdə yuxarıda qeyd olunmuş istiqamətlər üzrə göstəriciləri standartın tələblərinin 81-100%-nə uyğun gəldikdə "Dovlət təhsil standartlarının tələblərinə uyğundur", 61-80%-nə uyğun gəldikdə "Dovlət təhsil standartlarının tələblərinə əsasən uyğundur", 60%-dən (60% də daxil olmaqla) az olduqda "Dovlət təhsil standartlarının tələblərinə uyğun deyildir" kimi qiymətləndirilir ["Ümumi təhsil müəssisəsinin fəaliyyətinin dövlət təhsil standartlarının tələblərinə uyğunluğunu müəyyənləşdirən meyarlar"].

2016-cı il, 6 dekabr tarixli fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivləri üzrə Strateji Yol Xəritəsi"nin 7.3.1. maddəsində təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi (7.3.1.) nəzərdə tutulur, ölkənin dayanıqlı inkişafını təmin etmək məqsədi ilə insan kapitalının formalaşdırılması və ondan səmərəli istifadə (7.3.2.) əsas istiqamət hesab olunur və bu istiqamətdə təşəbbüslər dövlət tərəfindən dəstəklənir [Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivləri üzrə Strateji Yol Xəritəsi].

"Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların qızıl və ya gümüş medallarla təltif olunması, məktəbin müasir təlim texnologiyalarının tətbiqi üzrə layihələrdə, habelə digər inkişafyönümlü innovativ təhsil proqramlarında və olimpiadalarda iştirak etməsi məktəblərin reytinq sisteminin göstəricisilərindən hesab oluna bilər. Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların qızıl və ya gümüş medallarla təltif olunması "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu (19.8) və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il, 14 yanvar tarixli 8 nömrəli qərarı ilə təsdiq edilmiş «Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların qızıl və ya gümüş medalla təltif olunma Qaydası»na əsasən icra edilir.

Ümumtəhsil məktəbinin reytinqinə təsir edən amillər. Rəqabət – reytinq sisteminin formalaşmasına təsir edən amillərdəndir. Digər müəssisələr kimi, ümumtəhsil məktəblərinin də reytinq sisteminin təkmilləşdirilməsi ilə bağlı müəyyən işlər görülmüşdür. Belə ki, Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunması kimi xeyli işlər həyata keçirilmişdir. Bu da məktəblərin reytinq göstəriciləri sırasına daxil olan maddi-texniki bazanın təkmilləşdirilməsi deməkdir. Aydın məsələdir ki, güclü maddi-texniki baza təlimin təşkilinə ciddi təsir göstərir. Yeni tip məktəblərin tikintisi, əsaslı təmir işləri, müasir təlim resursları ilə təminat, məktəblərin kompüterləşdirilməsi və informasiya şəbəkələrinə qoşulması, kitabxanaların zənginləşdirilməsi, elektron kitabxana, məktəblərdə fəaliyyət göstərən iaşə obyektlərinin müasirləşdirilməsi kimi xidmətlərin müasir tələblərə uyğun təşkili məktəblərdə reytinq sisteminin təkmilləşdirilməsini sürətləndirir.

Reytinq göstəricilərinə təsir edən respublika səviyyəli tədbirlərdən biri də müəllim hazırlığının təkmilləşdirilməsidir. Yüksək hazırlıqlı müəllimlərin işə qəbulunu, həmçinin fəaliyyətdə olan pedaqoji kadrların hərtərəfli inkişafını təmin edə biləcək dəstəkləyici mühitin yaradılması və stimulun artırılması, müəllimlik peşəsinin ictimai nüfuzunun yüksəldilməsi baxımından əhəmiyyətlidir. Öyrədici, təkmilləşdirici, inkişafetdirici mühitin təşkili və idarə olunması təhsil xidmətlərinin səviyyəsinin artırılması ilə yanaşı, məktəblərin reytinq göstəricilərinin dinamikasına təsir edən vasitələrdəndir.

Ölkə prezidenti tərəfindən zaman-zaman imzalanan sərəncamlarda insan kapitalının inkişafına böyük önəm verilir. Aparılan islahatlar ümumtəhsil məktəblərinin reytinqinin dinamik inkişafına təsir göstərir. Ümumtəhsil məktəblərinin və müəllimlərin fəaliyyətinin stimullaşdırılması istiqamətində Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq əmrləri ilə təhsildə inkişaf və innovasiyalar üzrə qrant layihələrinin tətbiqi, pedaqoji mühazirə müsabiqələri və s. işlər davam etdirilir. Müəllimlərin bu layihələrə cəlb olunması onların fəaliyyətinin stimullaşdırılması ilə yanaşı, ümumi inkişafı üçün də əhəmiyyətlidir. Layihələrin

iştirakçısı olmaq onları öz üzərində çalışmağa, baza biliklərinin zənginləşdirilməsinə, əlavə biliklər əldə etməyə yönəldir. Elmi, metodiki və psixoloji hazırlıqlı müəllimlərdən təşkil olunmuş pedaqoji kollektivdə, təbii ki, təhsilin keyfiyyəti yüksəlməklə yanaşı, sağlam rəqabət də yaranacaq. Nəticə etibarı ilə, reytinq sisteminin təkmilləşməsinə də zəmin formalaşır.

Şagird nailiyyətlərinin qiymətləndirilməsi əsas reytinq göstəricilərindən biridir, lakin burada söhbət yekun nəticədən gedir. Şagird nailiyyətlərinin qiymətləndirilməsindən danışarkən milli və beynəlxalq qiymətləndirmənin nəticələri diqqəti cəlb edir. Təhsilin keyfiyyətini ölçmək məqsədi ilə respublikamızın məktəbliləri beynəlxalq səviyyədə müxtəlif məzmunlu qiymətləndirmə proqramlarına cəlb olunurlar. Beynəlxalq qiymətləndirmə təşkilatlarının tədqiqatlarında şagirdlərimizin bacarıqlarının yoxlanılması və nəticələrin uğurlu olması ölkəmizin təhsil sisteminin reytinqinin artmasına təsir göstərir. Həmin qiymətləndirmələrin nəticələri məktəblərarası sağlam rəqabət yaratmaqla məktəbin göstəricisi hesab olunur. Şagird nailiyyətlərinin beynəlxalq qiymətləndirmə proqramları çərçivəsində qiymətləndirilməsi etibarlı mənbə hesab olunur. PİSA (Program for International Student Assessment – Şagird Nailiyyətlərinin Beynəlxalq Qiymətləndirilməsi Proqramı), TIMSS (Riyaziyyat və Təbiət Elmləri üzrə Beynəlxalq Qiymətləndirmə Proqramı) və PIRLS (Oxu bacarıqlarının keyfiyyətini tədqiq edən Beynəlxalq Qiymətləndirmə Proqramı) belə qiymətləndirmə təşkilatlarındandır. PİSA – təhsildə beynəlxalq keyfiyyət indikatorları kimi qəbul olunur, müxtəlif ölkələrdən olan 15 yaşlı şagirdlərin həyati bacarıqlarının, oxu, riyaziyyat və təbiət elmləri üzrə bacarıqlarının, eyni zamanda müxtəlif tipli problemləri həlletmə qabiliyyətlərinin qiymətləndirilməsi məqsədi ilə aparılır. PİSA - təhsildə beynəlxalq keyfiyyət indikatoru kimi qəbul olunur, müxtəlif ölkələrdən olan 15 yaşlı şagirdlərin oxu, riyaziyyat və təbiət elmləri üzrə əldə etdikləri bilik və bacarıqaların sosial mühitlə əlaqəsi zamanı tətbiq etmə səviyyəsini müəyyən etmək məqsədi ilə təşkil edilir.

TIMSS (Trends in Mathematics and Science Study) riyaziyyat və təbiət elmləri üzrə orta təhsilin keyfiyyətinin qiymətləndirilməsi məqsədi ilə tətbiq olunan beynəlxalq qiymətləndirmə proqramıdır. Dörd ildən bir IV və VIII sinif şagirdləri arasında həyata keçirilən bu proqram 1995-ci ildən fəaliyyətə başlayıb. Azərbaycan 2010-cu ildən başlayaraq TIMSS-in IV siniflər üzrə sınaq tədqiqatlarında iştirak edib.

PIRLS (Progress in International Reading Literacy Study) oxu və qavramanın keyfiyyətini tədqiq edir. Şagirdlərin Təhsil Nailiyyətlərinin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiya (İEA) tərəfindən həyata keçirilir. TIMSS və PIRLS proqramları üzrə məktəb rəhbərləri, müəllimlər, həmçinin, şagirdlər arasında sorğular aparılır. Ölkənin təhsil sisteminin reytinqi qiymətləndirilərkən bu sorğuların nəticələri də nəzərə alınır. Azərbaycanın 2006-cı ildən iştirak etdiyi PISA müxtəlif ölkələrin orta məktəb şagirdlərinin oxu, riyaziyyat və təbiət

elmləri üzrə bacarıqlarının, eyni zamanda müxtəlif tipli problemləri həlletmə qabiliyyətlərinin qiymətləndirilməsi məqsədi ilə aparılır. TIMS və PIRLS beynəlxalq qiymətləndirmə proqramları təhsilalanları yaşına görə yox, kurikulum standartlarına görə qiymətləndirir.

Beynəlxalq qiymətləndirmə ölkənin təhsil səviyyəsini digər dövlətlərin təhsil sistemi ilə müqayisə etmək imkanı yaradır. Milli qiymətləndirmənin tətbiqi isə təhsil sahəsində perspektivlərin müəyyənləşdirilməsinə xidmət edir. Ümumtəhsil məktəblərində IX və XI siniflərin səviyyəsi üzrə şagirdlərin attestasiyası da bu qəbildən olan qiymətləndirmədir. Bu imtahanların nəticələrinə əsasən, demək olar ki, ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin müvəffəqiyyət və keyfiyyət faizi müsbət irəliləyişlərin olduğunu sübut edir.

Ümumtəhsil məktəblərinin reytinqinin təkmilləşdirilməsi məqsədi ilə həmin imtahanların təşkili şəraitinin yüksəldilməsi istiqamətində müəyyən tədbirlər həyata keçirilir. Milli qiymətləndirmənin nəticələrinin hesaba alınması 2018-2019-cu tədris ilinə qədər məktəbin inkişaf dinamikasının müəyyənləşdirilməsi, məzunun şəhadətnamə və attestat qiymətlərinin yazılmasına təsir edirdi. 2019-cu ildən başlayaraq, ali və orta ixtisas məktəblərinə tələbə qəbulunda buraxılış imtahanlarının nəticələrinə əsaslanılır. Belə ki, IX sinif buraxılış imtahanlarının nəticələri əsasında kolleclərə tələbə qəbulu aparılır. Artıq əvvəlki illərdə olduğu kimi, kolleclərə qəbul üçün əlavə imtahan verməyə ehtiyac olmur. Ali məktəblərə qəbul zamanı isə XI sinif buraxılış imtahanlarının nəticələri ilə ali məktəblərə qəbul imtahanlarının nəticələri toplanır, ümumi nəticə əsasında ali məktəblərə qəbul prosesi həyata keçirilir. Bu proses, dolayısı ilə, kolleclərə və ali məktəblərə qəbul nəticələrinin mərkəzləşmiş qaydada təşkil olunmuş milli qiymətləndirmənin göstəricisi olur. Yəni IX və XI sinif şagirdlərinin attestasiyası (buraxılış imtahanları) zamanı onların əldə etdikləri nəticə tələbə qəbulu prosesini tənzimləyir. Başqa sözlə, kolleclərə tələbə qəbulu tam, ali məktəblərə tələbə qəbulu isə qismən ümumi təhsil məktəblərinin buraxılış imtahanlarına əsaslanır. Aydındır ki, imtahanlarda yüksək nəticə göstərən hər şagird ya kollecə, ya da ali məktəblərə ixtisas seçimi edəcək. Deməli, ümumtəhsil məktəblərinin reytinq sistemini müəyyənləşdirmək üçün milli qiymətləndirmənin nəticələrinin nəzərə alınması vacibdir. Əslində, ümumitəhsil məktəblərinin məqsədi abituriyent hazırlığı deyil. Ümumtəhsil məktəbi icbari ümumi təhsili həyata keçirir, vətəndaşların təhsil haqqında konstitusiya hüququnun təmin olunmasını təşkil edir. Məktəbin vəzifəsi dövlət qarşısında öz məsuliyyətini dərk edən, qərarlar qəbul etməyi bacaran, müstəqil, yaradıcı düşünən, sağlam həyat tərzinə malik, milli və ümumbəşəri dəyərlərə, dövlət maraqları və azərbaycançılıq məfkurəsi əsasında formalaşan vətəndaş və şəxsiyyət yetişdirməkdir. Ümumtəhsil məktəbi sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini təmin edir, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlayır, məzunlara dövlət təhsil sənədinin

verilməsi ilə başa çatır. Ona görə də ümumtəhsil məktəblərində reytinq sisteminin göstəriciləri ali məktəblərə qəbul nəticələri deyil, bu tələblərə cavab verə bilən göstəricilərlə müəyyən olunur. Həmçinin milli və beynəlxalq qiymətləndirmənin nəticələri, olimpiadaların, müsabiqə və yarışların nəticələri əsas götürülür.

Ölkəmizdə keçirilən müsabiqələr, fənn olimpiadaları və bilik yarışmaları istedadlı şagirdlərin aşkar olunması, tanıdılması və onların potensiallarının inkişafına yönəlmişdir. Şagirdlərin elmi və bədii yaradıcılığı, təsviri incəsənət müsabiqələrində, idman yarışlarında, milli bayramlar və müxtəlif tədbirlərdə iştirakı və nailiyyətləri ümumtəhsil məktəblərinin reytinq sistemində yüksək pillə tutmasına təsir edən amillərdəndir. Əhatə dairəsinə görə olimpiada, yarışlar, müsabiqələr, əsasən, beynəlxalq və ölkə miqyasında keçirilir, elmi, bədii yaradıcılıq, idman və s. sahələri əhatə edir. Məktəblilərin olimpiadalarda iştirakına marağın artırılması məqsədi ilə çoxsaylı tədbirlər təşkil olunur. Respublika fənn olimpiadalarının qaliblərinə müvafiq ixtisaslar üzrə ali təhsil müəssisələrinə imtahansız qəbul olunmaq imkanı verilir. Beynəlxalq olimpiadaların qalibləri isə istənilən ixtisas üzrə universitetə imtahansız qəbul olunacaqlar. Son illər ali məktəblərə qəbul sahəsində həyata keçirilən müəyyən dəyişikliklər ümumitəhsil məktəblərində reytinq sisteminin təkmilləşdirilməsinə yönəlir.

Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası istedadlı uşaqların müəyyən edilməsi və onların inkişafına yönəlmiş bir sıra mühüm hədəfləri özündə əks etdirir. Bədii yaradıcılıq festivallarının, yarış və müsabiqələrin təşkili, şagirdlərin asudə vaxtının səmərəli təşkili istedadların aşkar olunması baxımından əhəmiyyətlidir [Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası]. 2015-ci ildə Azərbaycan məktəbliləri üçün nəzərdə tutulmuş "Olimpiya Hərəkatı" adlı kütləvi idman proqramı Bakı şəhərinin 400-ə yaxın orta ümumtəhsil məktəbində təhsil alan 50 mindən çox şagirdi yüngül atletika, velosiped idmanı, basketbol və badminton idman növləri üzrə fiziki fəaliyyətə cəlb etdi.

Bədii yaradıcılıq sahəsində də çoxsaylı müsabiqələr keçirilmişdir. Müxtəlif mövzuları əhatə edən esselər, şeir və mahnı müsabiqələri, rəsm sərgiləri şagirdlərin istedadlarının inkişafına xidmət edir [Baharlı M., Quliyev A. Dünya təhsil sistemi. Bakı, 2002].

Məktəblilərin bu yarış və müsabiqələrdə iştirakı təhsil aldıqları məktəb tərəfindən dəstəklənir. Müsabiqə və ya yarışın iştirakçısı həmin məktəbi təmsil edir və onun nailiyyətləri məktəbin reytinq sistemində yerinin yüksəlməsinə təsir göstərir.

Bütün bunları nəzərə alaraq, reytinq sisteminin təkmilləşdirilməsində, hesab edirəm ki, iki istiqamət əsas götürülməlidir:

• beynəlxalq qiymətləndirmə ilə təsdiqlənmiş bilik keyfiyyətini təmin etmək; (Beynəlxalq qiymətləndirmələrdə iştirakla yanaşı müsabiqə, yarış və

olimpiadalardakı iştirak və qazanılan nəticələri nəzərdə tuturam)

• milli təhsil sistemini qiymətləndirmək.

Nəhayət, reytinq cəzalandırma deyil, mükafatlandırma sistemi kimi qurulur. Bu, o deməkdir ki, hər müsbət nəticə, məsələn, imtahanda yüksək qiymət və ya olimpiadalarda əldə edilmiş mükafatlar məktəbin reytinqini artırır. Bütün deyilənləri yekunlaşdıraraq, eyni zamanda "Ümumi təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"na və "Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)"na əsaslanaraq, bu qənaətə gəlmək olar ki, məktəbin reytinq göstəricilərinə aşağıdakı amillər təsir edir:

• təşkilati-hüquqi təminat;

• metodik xidmətin təşkili;

• mövcud pedaqoji kadrların özünüinkişafının dəstəklənməsi və yeni, savadlı kadrların işə cəlb olunması;

• nizam-intizamın yaradılması və stabil saxlanması;

• təhsil proqramlarının yerinə yetirilməsinin yaxşılaşdırılması, şagird kollektivinin bilik, bacarıq və vərdişlərinin artırılmasına nail olunması;

• tədrisin təşkilinin müasir tələblər səviyyəsinə qaldırılması;

• şagirdlərin maraq və bacarıqlarına uyğun müsabiqə, olimpiada və yarışlarda iştirakının dəstəklənməsi;

• tərbiyə prosesinin təşkilində pedaqoji kollektivin gücündən istifadə olunması;

• valideynlərlə əlaqələrin gücləndirilmısi, onların idarəetmədə iştirakının təmin olunması;

• maddi-texniki bazadan, təhsil resurslarından səmərəli istifadə edilməsi;

• tibbi-sosial şəraitə diqqətin artırılması.

Reytinq cədvəlinin indikatorları

Ümumtəhsil məktəblərinin idarə edilməsində reytinq sisteminin təkmilləşdirilməsi istiqamətində beynəlxalq təcrübəyə əsaslanan yeni mexanizmlərin tətbiqi məqsədəuyğundur. Hər məktəb tədris ilinin sonunda hesabat hazırlayaraq, yerli idarəetmə orqanlarına təqdim edir. Bu hesabatlar müqayisəli şəkildə təhlil edilir və müvafiq reytinq cədvəli hazırlanır. Reytinq cədvəli tərtib edilərkən hansı indikatorlara əsaslanmaq lazımdır?

Məktəbin ümumi göstəriciləri:

• nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi;

• irəliləyişlərin, qiymətləndirmələrin koordinasiya səviyyəsi;

• tədris vəsaitlərinin və vasitələrinin keyfiyyəti;

• adambaşına düşən maliyyə xərcləri;

• tədris proqramları (kurikulumlar);

• rəsmi dəyərləndirmə meyarları;

• ictimai rəy;
• məktəbin təşkilati-hüquqi bazasının təminatı;
• metodik xidmətin təşkili;
• tədris prosesinin modernləşdirilməsi;
• valideyn-məktəb əlaqələrinin gücləndirilməsi;
• vətəndaş məmnunluğunun yaradılması;
• maddi-texniki bazanın və təhsil resurslarının zənginləşdirilməsi;
• tibbi və sosial şəraitə diqqətin artırılması;
• məktəbin qrant layihələrdə iştirakı.

Təhsilalanların göstəriciləri:

• təlim resurslarının şagirdlərin tələblərinə uyğunlaşdırılması;
• dövlət standartlarına nail olmaq üçün şəraitin yaradılması;
• şagirdin liderlik göstəriciləri;
• nizam-intizamın qorunub saxlanması;
• şagirdin fənn müsabiqələrində uğurları;
• məktəbin olimpiada qalibləri;
• idman yarışlarının qalibləri;
• şagirdin fədakarlığı;
• respublika fənn olimpiadalarında iştirak;
• beynəlxalq fənn olimpiadalarında iştirak;
• buraxılış imtahanlarının nəticələri;
• qızıl və gümüş medallar;
• fərqlənmə attestatları;
• mükafatlar;
• bakalavr səviyyəsi üzrə qəbul göstəriciləri;
• subbakalavr səviyyəsi üzrə qəbul göstəriciləri;

Təhsilverənlərin göstəriciləri:

• müəllimin peşəkarlıq səviyyəsi;
• məzmunun mənimsədilməsi;
• təlim üçün ayrılmış vaxtın standartlara uyğunluğu;
• pedaqoji mühazirələrdə iştirak;
• pedaqoji kadrların özünüinkişafı;
• resurslardan səmərəli istifadə;
• qrant layihələrdə iştirak;
• pedaqoji mühazirələrdə iştirak;
• müəllimin intellektual fəaliyyəti;
• müəllimin işinin keyfiyyət faizi;
• elmi məqalələrin nəşri;
• beynəlxalq və respublika elmi-pedaqoji konfranslarında, seminarlarda iştirak;
• metodik vəsaitlərin hazırlanmasında iştirak;

• dərsliklərin hazırlanmasında iştirak;
• metodik tövsiyə müəllifi olması;
• bədii və elmi yaradıcılıq nailiyyətləri;
• müəllimin şagirdlərinin uğurları;

Məktəbin reytinqinin formalaşmasına təsir edən amillər:

• məktəbin məzunlarının tanınmış şəxsiyyət olmaları;
• məzunların xeyriyyəçi olmaları;
• məzunların arasında Azərbaycanın milli qəhrəmanlarının, şəhidlərin olması;
• məzunların vətənin bütövlüyü uğrunda gedən müharibədə iştirakı;
• məzunların bədii və elmi yaradıcılıq sahəsində tanınmaları;
• məzunların peşəkar sənət adamı olmaları;
• pedaqoji kollektivin üzvlərinin uğurları;
• məktəbin ictimaiyyət arasında nüfuzu.

Məktəbin reytinq sisteminin idarəolunması zamanı məktəbin ümumi göstəriciləri, şagird kollektivinin uğurları, pedqoji kollektivin fəaliyyəti, məktəb məzunlarının məktəbdən sonrakı fəaliyyəti, məktəbin maddi-texniki bazası nəzərə alınmalıdır. İstər mərkəzdəki məktəblər, istər regionlarda rayon mərkəzindən uzaqda yerləşən məktəblər üçün eyni reytinq cədvəli tərtib olunur. Beləliklə də respublikanın bütün ümumtəhsil məktəblərinin hamısı eyni indikatorlar əsasında, eyni reytinq meyarları ilə qiymətləndirilir. Ümumrespiblika səviyyəsində bütün vətəndaşlara bərabər imkanlar əsasında təhsil verilməsi prinsipinə istinad etməklə dövlət məktəblərinin müasir tələblərə cavab verməsini təmin etmək dövlət siyasətinin əsas hədəflərindəndir.

Layihə
ÜMUMTƏHSİLMƏKTƏBLƏRİNİN REYTİNQİNİN MÜƏYYƏN EDİLMƏSİ QAYDALARI

1. Ümumi müddəalar

1.1. Ümumtəhsil məktəblərinin reytinqinin müəyyən edilməsi Qaydaları (bundan sonra "Qayda"), "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, "Ümumi təhsil haqqında Azərbaycan Respublikasının Qanunu" na və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun hazırlanmışdır. Bu "Qaydalar"məktəblərdə reytinqin müəyyənləşdirilməsi məqsədi daşıyır və sistemdaxili istifadə üçün nəzərdə tutulmuşdur.

1.2. Ümumtəhsil məktəblərinin reytinqi öz fəaliyyətində əldə etdikləri nəticələrin rəqəmlə ifadəsidir.

1.3. Ümumtəhsil məktəblərinin reytinqi aşağıda qeyd olunan 5 istiqamət üzrə müəyyən olunmuş göstəricilər əsasında hazırlanır.

• məktəb işinin təşkili və hüquqi təminatı;
• məktəbdə təhsilalanların göstəriciləri;

• məktəbdə təhsilverənlərin göstəriciləri;
• təlimdənkənar işlərin təşkili;
• metodik və elmi-praktik işlər.

1.4. Bu Qayda tabeliyindən, mülkiyyət növündən, təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün ümümi təhsil məktəblərinə aid etmək üçün metod kimi istifadə olunmalıdır.

1.5. Reytinq təhsil müəssisəsinin illik fəaliyyətinin yekununa əsasən müəyyən edilir.

1.6. Bu Qaydaya uyğun olaraq hazırlanmış reytinqin nəticələri reklam məqsədilə istifadə edilə bilər.

2. Tətbiq sahəsi

2.1. Bu Qaydaya əsasən müəyyən edilmiş reytinq "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun hazırlanmışdır və nəzərdə tutulan fəaliyyət dairəsini əhatə edir.

2.2. Qayda Azərbaycan Respublikası ərazisində ümumitəhsil məktəblərinin göstəricilərinə tətbiq edilir.

2.3. Reytinq cədvəlləri məktəbin bütün fəaliyyət istiqaməti üzrə ayrıca tərtib edilir.

2.4. Reytinqin hesablanması üçün meyarların hazırlanmasında fəaliyyət istiqamətləri üzrə göstəricilərdən istifadə edilir.

3. Reytinqin hesablanması metodikası aşağıdakı düsturlardan istifadə yolu ilə aparılır:

3.1. R – məktəbin ümumi reytinqi;
İ1, İ2, İ3, İ4, İ5 – istiqamətlər;
g1, g2, g3, g4,... gn – göstəricilər;
Q1, Q2, Q3, Q4, Q5, – ayrılıqda istiqamətlərin qiymətləndirilməsi;
HŞ – haqlı şikayətlər.

Ümumtəhsil məktəblərində reytinqin müəyyənləşdirilməsi düsturu:

$$İ1 = (g1 + g2 + g3 + g4 + \ldots\ldots gn)$$
$$R = (İ1 + İ2 + İ3 + İ4 + İ5) – HŞ$$

3.2. Göstəricilərin faizləri 5 ballıq şkala üzrə aşağıdakı kimi ifadə olunur:
$1\% \leq Q \leq 20\%$ - olarsa, "1" bal;
$21\% \leq Q \leq 40\%$ - olarsa, "2" bal;
$41\% \leq Q \leq 60\%$ - olarsa, "3" bal;
$61\% \leq Q \leq 80\%$ - olarsa, "4" bal;
$81\% \leq Q \leq 100\%$ - olarsa, "5" bal.

4. Xüsusi müddəalar

4.1. Ümumtəhsil məktəblərindən edilən hər bir haqlı şikayətə görə və məktəbin reytinqinin aşağı enməsinə təsir edən amillər olduqda reytinqdən 5 bal azaldılır.

4.2. Məktəb məzunlarının:

• hərbi xidmətdən yayınma halları;

• tüfeyli həyat tərzi;

• cinayətkar işlərdə adının hallanması;

• zərərli vərdişlərə aludəçiliyi reytinqin aşağı enməsinə təsir edən amillərdir.

5. Ümumtəhsil məktəblərinin reytinqini təyin etmək üçün aşağıdakı cədvəllərdən istifadə olunur:

1.	**Məktəb işinin təşkili və hüquqi təminatı**		
Sıra №	Göstəricinin adı (g)	Bal	Qiymət (faizlə)
1.1.	İşin təşkili	1	
1.2.	Proqnozlaşdırma	2	
1.3.	Strateji plan	1	
1.4.	İllik fəaliyyət planı	1	
1.5.	Cari plan	1	
1.6.	Koordinasiya	2	
1.7.	Nəzarətin təşkili	1	
1.8.	Normativ-hüquqi sənədləşmə	1	
1.9.	Psixoloji xidmət	1	
1.10.	Maddi-texniki bazanın vəziyyəti	1	
1.11.	İnnovasiyalar	2	
1.12.	Məktəbin keyfiyyət faizi	2	
1.13.	Məktəbin qrant layihələrdə iştirakı	2	
	Yekun	18	
2.	**Məktəbdə təhsilalanların göstəriciləri**		
Sıra №	Göstəricinin adı (g)	Bal	Qiymət (faizlə)
	Məktəbdaxili:		
2.1.	bədii yaradıcılıq müsabiqələrində iştirak	1	
2 .2.	təsviri incəsənət müsabiqələrində iştirak	1	
2.3.	idman yarışlarında iştirak	1	
2.4.	bilik yarışlarında iştirak	1	
2.5.	olimpiadalarda iştirak	1	
2.6.	milli bayramların və tədbirlərin təşkilində iştirak	1	
2.7.	esse disbutlarında iştirak	1	

	Rayon (şəhər) üzrə	
2.8	bədii yaradıcılıq müsabiqələrində iştirak	1
2.9.	təsviri incəsənət müsabiqələrində iştirak	1
2.10.	idman yarışlarında iştirak	1
2.11.	bilik yarışlarında iştirak	1
2.12.	olimpiadalarda iştirak	1
2.13.	milli bayramların və tədbirlərin təşkilində iştirak	1
2.14.	esse disbutlarında iştirak	1
	Respublika üzrə:	
2.15.	bədii yaradıcılıq müsabiqələrində iştirak	2
2.16.	təsviri incəsənət müsabiqələrində iştirak	2
2.17.	idman yarışlarında iştirak	2
2.18.	bilik yarışlarında iştirak	2
2.19.	olimpiadalarda iştirak	2
2.20.	milli bayramların və tədbirlərin təşkilində iştirak	1
2.21.	esse disbutlarında iştirak	1
2.22.	Telekanallarda keçirilən müqsabiqələrdə iştirak	1
	Beynəlxalq:	
2.23.	bilik yarışlarında iştirak	2
2.24.	olimpiadalarda iştirak	2
2.25.	idman yarışlarında iştirak	2
2.26.	incəsənət müsabiqələrində iştirak	2
	Yekun	35

3. Məktəbdə təhsilverənlərin göstəriciləri

Sıra №	Göstəricinin adı (g)	Bal	Qiymət (faizlə)
2.1.	Müəllimin keyfiyyət faizi	1	
2 .2.	Layihələrdə iştirak	1	
2.3.	Respublika elmi-praktik konfrans və seminarlarda iştirakı	1	
2.4.	Beynəlxalq elmi-praktik konfrans və seminarlarda iştirakı	2	
2.5.	Mətbuatda iştirak	1	
2.6.	Dərs vəsaitlərinin hazırlanmasında iştirak	2	
2.7.	Dərs vəsaitlərinin müəllifi	2	
2.8	Dərslik müəllifi	3	
2.9.	Qrant müsabiqələrində iştirak	2	
2.10.	Pedaqoji mühazirələrdə iştirak	1	
2.11.	Qabaqcıl təcrübənin yayılması	1	
	Yekun	17	

4. Təlimdənkənar işlərin təşkili

Sıra №	Göstəricinin adı (g)	Bal	Qiymət (faizlə)
4.1.	Pedaqoji Şura	1	
4.2.	Məktəb Şurası	1	
4.3.	Məktəb icması	1	
4.4.	Digər ictimai qurumlar	1	
4.5.	İctimai rəy	1	
4.6.	Məzun şəbəkəsi	1	
4.7.	Sosial tədbirlər	1	
4.8.	Uşaq inkişaf mərkəzləri ilə əlaqələr	1	
4.9.	Xoşməramlı rəqabət	1	
4.10.	Dövlət bayramlarının qeyd olunması	1	
4.11.	Şagird özünüidarəetmə tədbirləri	1	
	Yekun	11	

5. Metodiki və elmi-praktiki işlər

Sıra №	Göstəricinin adı (g)	Bal	Qiymət (faizlə)
5.1.	Müəllimlərin peşəkarlıq səviyyəsi	1	
5.2.	Pedaqoji kadrların özünüinkişafı	1	
5.3.	Elmi məqalələrin nəşri	1	
5.4.	Elmi-pedaqoji konfranslarda iştirak	1	
5.5.	Metodiki vəsaitlərin hazırlanmasında iştirak	1	
5.6.	Dərsliklərin hazırlanmasında iştirak	2	
5.7.	Metodiki tövsiyələrdə müəllif	2	
5.8.	"Pedaqoji mühazirələr" müsabiqələrində iştirak	1	
5.9.	"Təhsildə inkişaf və innovasiyalar üzrə layihələr" müsabiqələrində iştirak	1	
5.10.	Fənlər üzrə qabaqcıl təcrübələrin yayılması	2	
5.11.	Tədrisin səmərəli və optimal planlaşdırılmasında iştirak	2	
5.12.	Fənnlər üzrə keyfiyyət göstəriciləri	2	
5.13.	İcimaiyyət arasında nüfuz	2	
	Yekun	19	

$$R = (İ1 + İ2 + İ3 + İ4 + İ5) – HŞ$$

Beynəlxalq təcrübə göstərir ki, məktəblərin reytinqini müəyyən edərkən nailiyyətlər müqayisəli şəkildə tədqiq olunur [Baharlı M., Quliyev A. Dünya təhsil sistemi. Bakı, 2002]. İnformasiya texnologiyaları və elektron tədris resursları bu modeldən geniş istifadə olunduğunu sübut edir. Fikrimizcə, bütün ümumtəhsil məktəbləri bu modelə transformasiya olunarsa, təhsilin keyfiyyətinin yüksələn dinamika ilə inkişafını izləmək olar. Belə olan halda təhsil sistemində korrupsiyanın və digər neqativ halların aradan qaldırılmasına nail olmaq mümkündür. Növbəti tədris ilində məktəb öz fəaliyyət istiqamətlərini faktlar əsasında, müvafiq formalara uyğun planlaşdıra bilər.

Yeni tədris ilinin proqnozları, fəaliyyət planları, məqsədləri, hədəfləri, istiqamətləri cari ilin hesabatları əsasında müəyyənləşdirilir. Bu zaman məktəbin reytinqinə, milli-mənəvi dəyərlərimizə, vətənpərvərlik və vətəndaşlıq mövqeyinə xüsusi diqqət yetirilir. Məktəblərdə keyfiyyətə nəzarətin reytinqə hesablanmış metodikanın tətbiqi ilə aparılmasına üstünlük verilir.

Nəticə / *Conclusion*

Qabaqcıl dünya təcrübəsinə və aparılan tədqiqatlara əsaslanaraq, ölkə təhsilində, ümumtəhsil pilləsində reytinq sisteminin təkmilləşdirilməsi sayəsində alınan nəticələr aşağıdakılardır:

1. Azərbaycan Respublikasının normativ-hüquqi sənədlərinə əsasən, ümumtəhsil məktəblərinin reytinq sistemi təkmilləşdirilərək, müvafiq model əldə edilmişdir.
2. Yaradılmış model reytinq sistemində yeni mexanizmlər, onların nəzəri və praktik məsələlərinin tətbiqi yolları, sistemli yanasma istiqamətləri formalaşdırılır.
3. Ümumtəhsil məktəbinin reytinqinə təsir edən mənfi amillər müəyyənləşdirilir və onların sistemin formalaşdırılmasına təsiri məhdudlaşdırılır.
4. Yeni reytinq cədvəlini formalaşdıran indikatorlar müəyyən edilir və onların tətbiq olunmasına şərait yaradılır.

Məqalədə ümumtəhsil məktəblərinin reytinq sisteminin qaydaları və tətbiqi yolları layihə kimi təqdim olunur.

Ədəbiyyat / *Reference*

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. (2013). "Azərbaycan müəllimi". 25 oktyabr, s. 2.
2. Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulumu). (2008). "Kurikulum", №1.
3. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivləri üzrə Strateji Yol Xəritəsi.
4. Baharlı M., Quliyev A. (2002). Dünya təhsil sistemi. Bakı.

5. Əhmədov H.M., Bayramov H.B., Həsənov A.V., Məhərrəmov Ə.M. (2001). İdarəetmənin pedaqogikası və psixologiyası. Bakı.
6. Əlizadə Ə., Rüstəmov F., Quliyeva K. (2000). Müəllim peşəsinin professioqramı. (Pedaqoji tədqiqatlar). Bakı.
7. Əhmədov N. (1984). Məktəb işinin planlaşdırılması. Bakı.
8. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu.
9. "Təhsil müəssisəsinin fəaliyyətinin dövlət təhsil standartlarının tələblərinə uyğunluğunu müəyyənləşdirən meyarlar" (Azərbaycan Respublikası Təhsil Nazirliyinin 26 aprel 2011-ci il tarixli, 656 nömrəli əmri ilə təsdiq edilmişdir).
10. "Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)" (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il, 3 iyun tarixli, 103 nömrəli qərarı ilə təsdiq edilmişdir).
11. "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. (2019). "Azərbaycan müəllimi", 31 may, №20.
12. https://aztehsil.com/news/7563-olimpiadaların-qzl-qaydalar-beynəlxalq-uurun-rtlri.html
13. http://news.unec.edu.az/tags/reyting
14. https://tickets.az/avia/rating/fancybox_popup/rules

Methods

Modern education and integration into STEM + A

Aynur Akhundova
English-language teacher of R. Huseynova secondary school, Jairly village, Gobustan region. Azerbaijan. E-mail: axundovaaynur00@gmail.com
https://orcid.org/0000-0001-8430-0307

Abstract. The article discusses STEM and STEM + A teaching methods that have been used in world education since the 1980s. It also emphasizes the exceptional role of the STEM teaching method in applying the lesson model for how to apply the STEM and STEM + A learning model in primary education, and in enhancing the learning of primary school students. The author compared the education of today, yesterday and the future, noted the interesting aspects of the new teaching methods

Keywords: science, modern education, STEM, method, students, integration, methods, processes, approach, types of training, elementary, students, future.

http://dx.doi.org/10.29228/edu.342
To cite this article: Akhundova A. (2020) Modern education and integration into STEM + A. *Journal of Preschool and Primary Education,* V. 233, Issue IV, pp. 55–67.
Article history: Received – 07.10. 2020; Accepted – 14.10.2020

Metodika

Müasir təhsil və STEM +A-ya inteqrasiya

Aynur Axundova
Qobustan rayonu, Cəyirli kəndi, R. Hüseynov adına tam orta məktəbin ingilis dili müəllimi. Azərbaycan. E-mail: axundovaaynur00@gmail.com
https://orcid.org/0000-0001-8430-0307

Annotasiya. Məqalədə dünya təhsilində 1980-ci illərdən başlayaraq öz tətbiqini tapan STEM və STEM+A təlim metodlarından bəhs edilir. STEM təlim metodunun müsbət cəhətləri qeyd olunaraq, onun gələcəkdə hansı əhəmiyyətli dəyişikliklərə gətirib çıxaracağı haqqında maraqlı faktlar qeyd olunur. Həmçinin ibtidai təhsil pilləsində STEM və STEM+A təlim modelinin necə tətbiq edilməsi barədə dərs nümunəsi göstərilir, ibtidai siniflərdə şagirdlərin təlimə marağını artırmaqda STEM təlim metodunun müstəsna rolu qeyd edilir. Müəllif bu günün, dünənin və gələcəyin təhsilini müqayisə edərək, yeni təlim metodunun maraqlı cəhətlərini qeyd etmişdir.

Açar sözlər: elm, müasir təhsil, STEM, metod, şagirdlər, inteqrasiya, metodlar, proseslər, yanaşma, təlim növləri, ibtidai siniflər, tələbələr, gələcək.

http://dx.doi.org/10.29228/edu.342
Məqaləyə istinad: Axundova A. (2020) Müasir təhsil və STEM +A-ya inteqrasiya. «Məktəbəqədər və ibtidai təhsil», № 4 (233), səh. 55–67.
Məqalə tarixçəsi: göndərilib – 07.10. 2020; qəbul edilib – 14.10.2020

Giriş / *Introduction*

Texnologiyaların sürətlə inkişaf etdiyi bir zamanda təhsil prosesi də, digər sahələr kimi, dövrün tələblərinə cavab verməli, bu tələbləri ödəyən təlim metodları və texnologiyaları tətbiq olunmalıdır.

Müasir dövr müəllimin qarşısında, ilk növbədə, şagirdin yaradıcılıq bacarıqlarını kəşf etmək və inkişaf etdirmək kimi mühüm vəzifələr qoyur. Bu vəzifənin öhdəsindən gəlmək üçün müəllimin geniş imkanları var. Onlardan biri də dünya

təhsilində qəbul olunan STEM, yaxud STEM+A təlim metodudur. Bu metodların tətbiqi imkan verir ki, şagirdlərdə sərbəst fikiryürütmə, müşahidə aparıb öz nöqteyi-nəzərini meydana qoyma, ixtiraçılıq, yenilikçilik, təşəbbüskarlıq bacarıqları inkişaf etdirilsin.

STEM nədir? Necə yaranıb? Şagirdlərdə hansı cəhətləri inkişaf etdirməyə zəmin yaradır? Gəlin bu suala ətraflı cavab verək.

Əsas hissə / *Main Part*

STEM və STEAM. STEM+A elm, texnologiya, mühəndislik, riyaziyyat və sənət sahələrini özündə birləşdirən öyrənmə və inkişafyönümlü yanaşmadır. STEM+A – ingilis dilində elm – *science,* texnologiya – *technology,* mühəndislik – *engineering,* riyaziyyat – *math* + *art* – sənət deməkdir. STEM+A bir neçə elm sahəsinin əlaqəli şəkildə öyrənilməsinə əsaslanan prosesdir.

STEM – ingilis dilində elm – *science,* texnologiya – *technology,* mühəndislik – *engineering* və riyaziyyat – *math* sözlərindəki baş hərflərin birləşməsindən yaranıb. Termin ilk dəfə ABŞ Milli Elm Qurumu (U. S. National Science Foundation) tərəfindən 2001-ci ildə bir neçə fənn və bacarığın inteqrasiyasından ibarət olan peşələri ifadə etmək üçün istifadə olunub. Daha sonra bioloq Cudit Ramili tərəfindən STEM olaraq istifadə olunub [Hallinen., Judith Ramaley, 2016]. Terminə daha sonra ingilis dilində *incəsənət/sənət – art* sözü də əlavə olundu (STEAM və ya STEM+A). STEM və STEAM arasındakı əsas fərq ondan ibarətdir ki, STEM elmi problemlərə daha çox diqqət yetirir. STEAM da elmi problemləri araşdırır, lakin bunu yaradıcılıq prosesində istifadə edilən, sorğu və problem həllinə əsaslanan təlim metodları vasitəsi ilə edir [Wade-Leeuwen, 2018]. Müasir təhsil sistemində STEAM fənlərin ayrı-ayrılıqda deyil, inteqrasiyalı tədrisini nəzərdə tutan təlim metoduna verilən addır.

STEM+A tədris metodu kimi yeni olsa da, təhsil sahəsində yeni yanaşma deyil. Əksər peşələr birdən artıq fənn/sahə üzrə biliklər tələb etdiyindən, hələ orta əsrlərdən başlayaraq, təhsil verən müəssisələrdə fənlər əlaqəli olaraq tədris edilirdi. STEM təhsili inteqrasiya sahəsində yüksək peşəkarlıq tələb etdiyindən XX əsrin 80-ci illərində qabaqcıl ölkələrdə tətbiq edilməyə başlandı. STEM+A tədris metodunu populyarlaşdıran isə 2009-cu ildə ABŞ-ın STEM təhsil formasını təlim strategiyası kimi qəbul edib, bu sahəyə böyük investisiyalar qoyması oldu. Nəticədə, qeyd olunan sahə üzrə elmi tədqiqatların, məhsulların sayı artdı və onlar kütlələr üçün əlçatan oldu.

STEM+A təlim metodu vasitəsi ilə şagirdlərə bir neçə fənni birlikdə öyrətməklə yanaşı, bəzi vərdiş və bacarıqları da inkişaf etdirmək mümkündür. Həmin bacarıqlar aşağıdakılardır:

• ***Toxunaraq öyrənmə*** – əksər fənlərin tədrisi prosesində məlumatlar şagirdlərə bir neçə öyrənmə üsullarından birinin formatında – adətən vizual (oxu mətnləri,

təsvirlər) və audio formatda (müzakirə) təqdim olunur. STEM tədris metodunda isə məlumatlar vizual, audio üsullarla yanaşı, taktil (toxunaraq öyrənmə) və sosial öyrənmə vasitələri ilə də ötürülür [Leite Walter L., Svinicki Marilla., Shi Yuying. April, 2010].

• ***Yaradıcılıq*** – "Biz övladlarımıza onlardan daha ağıllı olan maşınlarla (robotlarla) rəqabət aparmağı öyrədə bilmərik, biz övladlarımıza onları maşınlardan fərqləndirəcək nəsə öyrətməliyik. Yalnız bu üsulla onların 30 il sonra mövcud olma, sağ qalma şansları olacaq" [Whiting Jack Ma, 2019]. Bu fikirləri Dünya İqtisadi Forumunda çıxışı zamanı hazırkı təhsil sistemi haqqında öz narahatçılığını bildirən «Alibaba» Şirkətlər Qrupunun rəhbəri Cek Ma (əsl adı Ma Yun; 10 sentyabr, 1964) səsləndirmişdir. Yaradıcılıq, şüur insanı digər canlılardan fərqləndirən əsas bacarıq hesab edilir və STEM təhsil modeli tədris prosesində şagirdlərdə yaradıcılıq bacarıqlarını inkişaf etdirmək üçün şərait yaradır.

• ***Səhvlər üzərində öyrənmə*** – Tədris prosesində şagirdlərin kiçik miqyaslı təcrübələr zamanı əldə etdikləri nəticələri müqayisə edib, aşkar olunan səhvləri araşdırmaq və təcrübələri təkrar qurmaq imkanı olur. Bu üsulla əldə edilən məlumatlar daha çox yadda qalır.

• ***Tənqidi təfəkkür*** – STEM metodu ilə tədris prosesində dərslər qruplar formasında və müzakirə metodu üzərində qurulduğundan şagirdlər komanda yoldaşlarının işinə münasibət bildirir, öz fikirlərini əsaslandırırlar.

• ***Ünsiyyət bacarığı*** – Dərslər, adətən, eksperimentin və ya layihənin nəticələri ilə bağlı hesabat və ya təqdimatla yekunlaşır.

• ***Liderlik*** – STEM dərsləri daha çox layihə əsaslı və qrup işləri formatında təşkil edildiyindən qrup üzvləri liderlik funksiyasını da yerinə yetirir, qrupa/layihəyə rəhbərlik edir, qərarlar qəbul edirlər. Nəticədə şagirdlərdə liderlik bacarıqları inkişaf edir.

• ***İş mühitinə hazırlıq*** – STEM təhsil metodunun əsas məqsədi şagirdləri gələcək iş mühitinə hazırlamaqdır. Yuxarıda qeyd edilən bütün bacarıqlar şagirdləri səmərəli insan resursu olaraq, gələcəkdə tutacaqları mövqelərə hazırlamış olur.

Qeyd olunan bütün bacarıqları şagirdlərə paralel mənimsətmək çətin görünsə də, əslində birgə tədris metodunu kiçik yaşlı şagirdlərə tətbiq etmək çox sadə bir prosesdir. İbtidai siniflərdə şagirdlərə ayrı-ayrı fənlərin tədrisi prosesində sadə biliklər, həyati əhəmiyyəti olan ilkin bacarıq və vərdişlər verilir. Qeyd olunduğu kimi, əslində, ibtidai təhsil bazasında STEM təhsil metodunun ilkin rüşeymləri inkişaf etdirilir. Belə ki, riyaziyyat, texnologiya, həyat bilgisi, rəsm və s. fənlər STEM tədris metodunun fənləri sırasına daxildir. İbtidai təhsil pilləsində şagirdlərə bütün fənlər üzrə ilkin anlayışlar aşılanır, lakin çox təəssüf ki, hər fənn ayrı-ayrı saatlarda tədris olunduğu üçün fənlərarası əlaqə zəifləyir. Buna görə də bütün fənlər bir-biri ilə sıx əlaqədə tədris olunmalı, şagirdlərdə yaradıcılıq qabiliyyətləri inkişaf etdirilməli, sərbəst fikir yürütmə bacarığı formalaşdırılmalıdır. Hətta XIX əsrdə yaşamış məşhur alman pedaqoqu Adolf Disterveq (1790–1866) inkişafetdirici

təlim ideyasını əsas tutaraq, belə bir fikir irəli sürürdü: "Məktəbdə ölüm yox, təfəkkür, sual-cavab, axtarış və kəşflər hökm sürməlidir" [Disterveq A. Seçilmiş pedaqoji əsərləri, 1956].

Eyni fikri dəstəkləyən görkəmli pedaqoq K.D.Uşinski də şagirdləri fəaliyyətsizliyə məhkum edən standart dərslərin əleyhinə çıxış edərək, müəllimi dərs prosesində şagirdləri mümkün qədər çox müstəqil işlətməyə çağırırdı [Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri, 1953]. Hər iki pedaqoqun fikirlərində müasir tələblərlə səsləşən istiqamətlər açıq-aydın görünməkdədir. Buna görə də müasir müəllim dünya təhsilinin, qabaqcıl texnologiyaların yeniliklərini mənimsəyərək onları öz işində tətbiq etməli, şagirdlərdə yaradıcılıq qabiliyyəti, müstəqil fikir yürütmə bacarığını inkişaf etdirməlidir. Bunun üçün müəllim şagirdin potensialına bələd olmalı, ona inanmalı və unutmamalıdır kı, pedaqoji işdə müvəffəqiyyət qazanmaq daha çox məqsədyönlü fəaliyyətdən asılıdır. Şagirdinin qabiliyyət və bacarığına inanan müəllim onun ugurlarına sevindiyi kimi, uğursuzluqlarının mənbəyini aşkar etmək və aradan qaldırmaq üçün əzmlə çalışmalıdır. STEM metodu da şagirdin potensialına inanmaq, onun yaradıcılıq qabiliyyətini inkişaf etdirmək, irəli sürdüyü fikirləri əsaslandırmaq qabiliyyətini formalaşdırmaq üçün imkanlar yaradır. STEM metodunun istiqamətlərindən biri olan iş həyatına hazırlıq şagirdlərdə yaradıcılıq və gələcəkdə karyera qurmaq bacarıqlarını formalaşdırır, cəmiyyət üçün insan resursu yetişdirir. Bu təlim istiqamətini uzun illər əvvəl görkəmli pedaqoq N. K. Krupskaya da qeyd etmişdir: "Uşağa bir şəxsiyyət kimi baxmağa, onun simasında gələcək mübarizə yoldaşımızı görməyə alışmalıyıq" [Krupskaya N.K. İzbranniye pedagogicheskiye proizvedeniya, Moskva.]

Bu fikirdə reallıq var: müasir dünyada hər gün yeni iş yerləri və fərqli əmək bazarları açılır, buna görə də müasir dövrün tələblərinə uyğun insan resursları yetişdirmək hər bir müəllimin borcudur və yeni təlim metodlarını öyrənib tətbiq etmək qarşıda duran əsas məqsədlərdən biri olmalıdır.

STEM niyə vacibdir?

Dünya iqtisadiyyatı qloballaşır. Yeni texnologiyaların yaranması səbəbindən bəzi mövcud iş yerlərində işçi qüvvələri ixtisar olunur və hər gün yeni iş yerləri yaranır.Texnologiyaların davamlı inkişafı nəticəsində hər gün öyrənmə, qarşılıqlı əlaqə üsulları dəyişir. Şagirdlərin STEM vasitəsi ilə inkişaf etdirdikləri bacarıqlar onlara məktəb daxilində və ondan kənarda da müvəffəq olmaq üçün zəmin yaradır.

İşəgötürənlərin STEM keyfiyyət və bacarıqlarına tələbləri yüksəlir və gələcəkdə də artmaqda davam edəcək. Hal-hazırda sürətlə inkişaf edən sənaye sahələrində işlərin 75%-nə STEM bacarıqlarına malik işçilər tələb olunur. Rəqabət qabiliyyətli, hər bir dəyişən iş yerinə uyğunlaşa biləcək işçi qüvvəsinə həmişə ehtiyac vardır.

STEM, insanlara hər bir işdə müvəffəq olmaq və daim dəyişən dünyaya

uyğunlaşmaq bacarığı verir. Bu vacib bacarıqları məhz ibtidai siniflərdə formalaşdırmaq çox vacibdir, çünki kiçik yaşlı şagirdlərin maraq dairəsi geniş olur və onlarda yeniliklərə meyil həddindən artıq yüksəkdir.

Müasir texnologiyalar əsrində dünyaya göz açmış uşağa STEM təhsili vermək çox əlverişlidir, çünki STEM metodunun əsas qollarından biri olan texnologiyalar bu gün uşaqların əsas maraq obyektidir. STEM-in təhsildə tətbiqi şagirdlərin dərsə marağını daha da artıracaq və onların diqqətini dərslərə yönəldib, qabiliyyət və bacarıqlarını inkişaf etdirəcək. Məktəb mühitinin onlar üçün ağır yük olmadığını, hər gün maraqlı bir şey öyrəndiklərini, özlərini inkişaf etdirmələri, məktəbin həm də həyatın özü olduğunu görmək onları çox sevindirəcək.

İbtidai siniflərdə STEM metodu uşaqlarda müsbət keyfiyyətlər yaradır.

• STEM şagirdləri motivasiya edə bilər, çünki bu metodda real həyati nümunələr tətbiq olunur. "Bunlarla real həyatda nə edəcəyik?"– sualını verəcək şagird qalmayacaq.
• Şagirdlər səbəb-nəticə əlaqələrini anlamağa və qurmağa başlayırlar.
• Şagirdlər daha dərin, daha hərtərəfli düşünməyə başlayırlar.
• Şagirdlərin fərdi və qruplarla işləmə bacarıqları artır.
• Şagirdlərin əzbərləmə bacarıqları deyil, bilikləri qiymətləndirilir.
• Şagirdlərin ünsiyyət bacarıqları yüksək səviyyəyə çatdırılır.
• Şagirdlərin tənqidi düşüncə bacarıqları artır.
• Şagirdlər səhvlər üzərində işləyir, onlardan nəticə çıxarır, təcrübə qazanırlar.

STEM+A metodunu başa düşdükdən və tətbiq etdikdən sonra onun nə qədər faydalı olduğunu görəcəksiniz. Bu təlim metodunu vaxt itirmədən məktəblərimizə gətirməliyik.

Yuxarıda qeyd olunan bacarıqları azyaşlı şagirdlərimizdə inkişaf etdirmək üçün STEM metoduna uyğun dərs planı qurmaq lazımdır. Kiçik yaşlı məktəblilərdə nağıllara olan maraq hər kəsə məlumdur. Buna görə də STEM+A metodunun Azərbaycan xalq nağıllarından ən çox sevilən "Cırtdan" nağılında tətbiqi yollarını nəzərdən keçirək.

Ölkə: Azərbaycan;
Country: Azerbaijan.
Məktəb: Qobustan rayonu, R. Hüseynov adına Cəyirli kənd ümumi orta məktəbi.
School: Gobustan region, Jairly village school by named after R. Huseynov.
Fənn: ingilis dili;
Discipline: English language.
Mövzu: "Cırtdan" nağılı.
Theme: fairy tale "Dwarf", ("Chirtdan").
Gözlənilən nəticələr:

1. Mövzunun mənasını dərk edir, onunla bağlı müstəqil fikir yürüdür.
2. Nağıldakı obrazları öz təxəyyülünə uyğun canlandırır.

3. Texnologiyalardan istifadə edərək, mövzuya yaradıcı yanaşır.
4. Web 2.0 alətindən istifadə edərək, nitq bacarıqlarını artırır.

Expected results:

1. Understands the meaning of the topic and thinks freely about it.
2. He can bring the characters in the fairy tale to life according to his dreams.
3. Takes a creative approach to the subject, using technology.
4. Improves speaking skills using Web 2.0 tool.

I. Əziz uşaqlar, aşağıdakı nağılı dinləyin.

"Cırtdan" nağılı [Azərbaycan nağılları. "Cırtdan" nağılı, I cild. 2005].

Biri var idi, biri yox idi, bir qarı var idi. Bu qarının Cırtdan adlı bir nəvəsi var idi. Bir gün Cırtdan gördü ki, qonşu uşaqlar meşəyə odun yığmağa gedirlər. Gəlib nənəsinə dedi:

– Ay nənə, mənə də icazə ver, uşaqlarla gedim.

Nənə razılaşdı, uşaqları çağırıb, hərəsinə bir yağ yaxmacı verdi. Cırtdanı da onlara tapşırdı.

Yolda Cırtdan yerə oturub dedi:

– Nənəm məni sizə tapşırıb, yorulmuşam, məni dalınıza alıb aparın.

Yoldaşları onu növbə ilə dallarına alıb apardılar. Meşədə onun əvəzinə odun da yığdılar. Hər kəs öz odunundan şələ bağlayıb, dalına aldı. Cırtdan dedi:

– Nənəm məni sizə tapşırıb, mənim odunumu da götürün.

Uşaqlar əlacsız qalıb, onun da odununu götürdülər. Onlar bir xeyli getdikdən sonra şər qarışdı, axşam oldu. Qaranlıqda uşaqlar yolu azdılar. Yol ayrıcına çatanda gördülər ki, bir tərəfdən işıq gəlir, o biri tərəfdə isə it hürür. Uşaqlardan biri "İşıq gələn tərəfə gedək", o biri "İt hürən tərəfə gedək" – dedi. Bilmədilər ki, hansı tərəfə getsinlər. Cırtdan dedi:

– İt hürən tərəfə getsək, it bizi qapar. İşıq gələn tərəfə gedək, bəlkə yolu tapa bildik.

Uşaqlar işıq gələn tərəfə gedib, bir divin evinə gəlib çıxdılar. Div onları görəndə sevinib, öz-özünə dedi: "Yaxşı oldu, gecə onları bir-bir yeyərəm". Uşaqlara bir az çörək yedirdib yatırdı. Gecədən bir az keçəndən sonra div uşaqlardan birini yemək istədi. Uşaqların yatıb-yatmadığını bilmək üçün soruşdu:

– Kim yatıb, kim oyaq?

Bu sözü eşidəndə Cırtdan tez başını qaldırıb dilləndi:

– Hamı yatıb, Cırtdan oyaq.

Div soruşdu:

– Cırtdan nə üçün oyaq?

Cırtdan dedi:

– Nənəm mənə hər gecə qayğanaq bişirir, yedirib yatırır.

Div qalxdı, tez qayğanaq bişirib Cırtdana yedirtdi ki, yatsın. Bir qədər keçəndən sonra yenə soruşdu:

– Kim yatıb, kim oyaq?

Yenə Cırtdan başını qaldırıb dedi:

– Hamı yatıb, Cırtdan oyaq.

Div soruşdu:

– Cırtdan nə üçün oyaq?

– Hər gecə nənəm mənə çaydan xəlbirlə su gətirir, onu içib sonra yatıram.

Div ayağa qalxdı, xəlbiri götürüb, çaydan su gətirməyə getdi. Cırtdan tez yoldaşlarını oyadıb dedi:

– Bu div bizi yemək istəyir. Qalxın qaçaq.

Uşaqlar tez qalxdılar, qaçıb çaydan keçdilər. Görək div nə etdi... Div xəlbiri nə qədər suya salıb çıxarsa da, xəlbirdə su qalmırdı. Axırda təngə gəlib qayıtmaq istəyəndə, gördü ki, uşaqlar çayın o tərəfi ilə gedirlər. İstədi ki, sudan keçib uşaqların dallarınca düşsün, amma keçə bilmədi. Axırda onları səslədi:

– Ay uşaqlar, çaydan necə keçdiniz?

Cırtdan tez cavab verdi:

– Get bir dənə dəyirman daşı tap, boynuna keçir, özünü çaya at, onda keçərsən.

Div Cırtdanın sözünə inandı, bir dəyirman daşı tapdı, boynuna keçirib, özünü çaya atdı və boğulub öldü.

II. Dear students let's listen our story.

Fairy tale "Dwarf" ("Chirtdan").

Once upon a time, there was an old woman. This woman had a grandson named Dwarf (CHirtdan). One day, the Dwarf saw that the children next door were going to the forest for firewood, so he came and said to his grandmother:

– Grandma, let me go with the children.?

The old woman gave permission, called the children and gave each of them butterbreads. He also entrusted the dwarf to them. On the way, the Dwarf sat down and said:

– My grandmother gave to you butterbreads .You must took me to your back.

His friends took him . Instead, they gathered firewood. Then everyone tied their firewood to the ropes .

The Dwarf said: "My grandmother has entrusted me to you, so take my firewood". The children were left helpless and took his firewood to their's back. It was evening after they had gone a long way. Darkness fell, and they went astray. When they came out of the forest, they saw a light coming from one side and a dog barking on the other side. One said, "Let's go to the side where the light is coming," and the other said, "Let's go to the side where the dog barks." They did not know where to go. The dwarf said, "If we go where the dog barks, the dog will bite us." Let's go to the side of the light, maybe we can find a way.

The children went to the side of the light and arrived at the house of a gaint .

When the giant saw them, he rejoiced and said to himself, “It is well. I will eat them one by one at night.” He fed the children some bread and put them to bed. After a while, the giant wanted to eat one of the children. To find out if the children were asleep, he said:

– Who is asleep, who is awake? When he heard this, the Dwarf quickly raised his head and said:

– Everyone is asleep, Dwarf is awake. The giant asked, “Dwarf, why don’t you sleep?” The dwarf said, “My grandmother used to cook, eat, and put me to bed every night.” The giant got up, quickly cooked scrambled egg and fed it to the Dwarf so that he might sleep. After a while, the giant asked again:

– Who is asleep, who is awake? Again the Dwarf raised his head and said:

– Everyone is asleep, the Dwarf is awake. The giant asked, “Dwarf, why aren’t you sleeping now?” “Every night my grandmother would bring me a cup of water from the river“ in sieve . The giant got up, took a sieve and went to fetch water from the river. The dwarf woke up his friends and said:

– This giant wants to eat us. Get up and run. The children got up quickly and ran across the river. From this side, no matter how much the giant dipped the sieve into the water, he saw that there was no water left in the sieve When he finally got tired and wanted to go back, he saw the children walking on the other side of the river. He wanted to cross the water and fall on the river he could not cross . At last he called to them:

– How did you guys cross the water? The dwarf answered quickly:

– Go and find a millstone, put it around your neck, throw yourself into the water and you will pass. The giant believed the Dwarf’s words, went and put a millstone around his neck, threw himself into the water, and drowned.

III. Nağıl dinlənilir və sonda şagirdlərə nağılın ən çox yadda qalan hissəsinə dair tapşırıqlar verilir.
III. The story is listened to and at the end the students are given a memorable part of the story and given tasks.

Tapşırıq 1. Nağılın aşağıda verilən hissəsini səhnələşdirin.

Div qalxdı, tez qayğanaq bişirib Cırtdana yedirtdi ki, yatsın.

Bir qədər keçəndən sonra div yenə soruşdu:

– Kim yatıb, kim oyaq?

Cırtdan yenə başını qaldırıb dedi:

– Hamı yatıb, Cırtdan oyaq.

Div soruşdu:

– Cırtdan nə üçün oyaq?

– Hər gecə nənəm mənə çaydan xəlbirlə su gətirir, onu içib sonra yatıram.

Task 1. Revive the given part of below from the story.

The giant got up, quickly cooked a cake and fed it to the Dwarf so that he might sleep.

After a while, the giant asked again:

– Who is asleep, who is awake?

Again the Dwarf raised his head and said:

– Everyone is asleep, the dwarf is awake.

Div asked:

– Dwarf, why don't you sleep now?

– Every night my grandmother brought me water from the river.

Tapşırıq 2. Divin və Cırtdanın rəsmini çəkib, verilmiş mətni ChatterPix alətində səsləndirin.
Task 2 . Draw a picture of a div and a dwarf and play the text on the ChatterPix tool.

Tapşırıq 3. Tinkercad alətində məişət əşyası olan xəlbiri (ələk) yaradın .
Task 3. Create an ancient household item, a sieve, on the Tinkercad tool.







IV.Ələk necə düzəldilir? Videonu izləyək
IV. Let's watch the video below on how to fix a sieve.

1.Nağıl dinlənilir, obrazlar sadalanır.

1.First of all, we listen to the story, it distinguishes the characters in the story.

2.Uşaqlar nağıl qəhrəmanlarının obrazlarını öz təxəyyüllərində canlandırırlar.

2. First of all, we listen to the story, it distinguishes the characters in the story.

3. Nağıldan verilmiş hissə *ChatterPix* aləti vasitəsi ilə səsləndirilir.
3. The given part of the story is played using the ChatterPix tool.

---

4. Nağılda adı çəkilən məişət əşyası olan xəlbir (ələk) Tinkercad proqramı ilə hazırlanaraq 3D formata salınır. Əvvəlcə "Ələk necə hazırlanır?" adlı video izlənilir.
4. Halbir (sieve), an ancient household tool used in fairy tales, is made by Tinkercad program and made into 3D. First, watch a video on how to make a sieve.

---

5. Nağıldakı mənfi və müsbət qəhrəmanlar fərqləndirilir.
5. Distinguishes between negative and positive characters in a fairy tale.

IV. Qiymətləndirmə

Qiymət-ləndirmə	Başlanğıc səviyyə (1)	Orta səviyyə (2)	Yuxarı səviyyə (3)	Uğur qiyməti	Rəylər
Məzmun	Şagird nağılı anlayır, amma nəticə çıxara bilmir.	Şagird nağılı anlayır və nəticə çıxarmağa çalışır.	Şagird nağılı anlayır və nəticə cıxara, əldə etdiyi məlumatları canlandıra bilir.		
Tədqiqat prosesi	Şagird çox az məlumat əldə edib.	Şagird bir çox məlumatları özü əldə edə bilir.	Şagird bütün məlumatları özü əldə edir.		
Maraq oyatmaq	Layihə çox az diqqət çəkdi.	Layihə bir az diqqət çəkə bildi.	Layihə çox diqqət çəkən idi və gözəl təqdim olundu.		
Təqdimat bacarığı	Hazırlanan layihə çox qarışıq təqdim olundu.	Hazırlanan layihə qismən qarışıq təqdim olundu.	Hazırlanan layihə düzgün və dəqiq təqdim olundu.		
Vaxtdan istifadə	Tədqiqat 3–4 gün gec çatdırıldı.	Tədqiqat 1–2 gün gec çatdırıldı.	Tədqiqat təyin olunan gündə təhvil verildi.		

Tapşırığın müsbət tərəfləri: _____
Strengths of the task: _____
Müəllimin qeydləri: _____
Teacher's notes: _____
Müəllimin imzası: _____
Teacher's signature: _____

Nəticə / *Conclusion*

Beləliklə, bu nəticəyə gəlirik ki, STEM və STEAM metodu əsasında həyata keçirilən təlim şagirdlərin və müəllimlərin müasir təhsil sisteminə adaptasiya olunmasına kömək göstərməklə yanaşı, onların gələcək fəaliyyətinin daha uğurlu olması üçün zəmin yaradacaq. STEM metodu vasitəsi ilə şagirdlər elmi, riyazi, texnoloji və mühəndislik bacarıqlarını inkişaf etdirəcəklər. Bu da onların gələcəkdə daha asanlıqla iş tapmalarına, mövcud iş şəraitinə daha tez uyğunlaşmalarına təsir göstərəcək.

Əlbəttə, STEM-lə yanaşı, STEM+A metodu da yaradıcı istiqamətli olmaqla şagirdlərin dizayn bacarıqlarını inkişaf etdirəcək, bu da həm texnoloji dizayn, həmçinin digər yaradıcılıq tələb edən mühəndislik sahələrinin inkişafina gətirib çıxaracaq. STEM metodu ilə şagirdlər tədris olunan fənnin nəinki nəzəri, həmçinin praktik sahələrini də təlim prosesində öyrənəcəklər. Bununla da gələcəkdə şagirdlərin qazandıqları bilik və bacarıqların sosial mühitlə əlaqəsini qurmaq üçün geniş imkanlar açılır. Müasir təlim metodları arasında xüsusi yer tutan, XXI əsr bacarıqları ilə səsləşən STEM metodu müasir təlimdə ən çox tətbiq olunan metoddur və onun uğurları nəticəsində bir çox internet resursları milyonlar qazanaraq, həm şəxsi, həm də dövlət büdcəsinə xeyli yatırımlar edəcək. STEM bacarıqlarına sahib olan hər bir şagird gələcəkdə həyatın onun qarşısına çıxaracağı suallara daha asanlıqla cavab tapa biləcək.

Ədəbiyyat / *Reference*

1. Ağayev Ə. (2017). Pedaqogikaşünaslıq yeni mərhələdə. "Azərbaycan məktəbi".
2. Azərbaycan nağılları. I cild. (2005). "Cırtdan" nağılı. Bakı: "Şərq-Qərb" nəşriyyatı.
3. Disterveq A. (1956). Seçilmiş pedaqoji əsərləri. Bakı, səh. 182.
4. Makarenko A.S. (1950). Seçilmiş əsərləri. Bakı: "Azərnəşr".
5. Məktəb pedaqogikası. (1982). Bakı: "Maarif ".
6. Mustafayev O. (2019). İnnovativ inkişafın açarı. "Azərbaycan müəllimi", 20 sentyabr.
7. Pestalotsi İ. (1970). Seçilmiş pedaqoji əsərləri. Bakı: "Maarif".

8. Pedaqogika. (1964). Bakı: "Azərnəşr".
9. Uşinski K.D. (1953). Seçilmiş pedaqoji əsərləri. Bakı: "Azərnəşr", 303 s.
10. Mustafa Çevik, Cihad Şentürk, Cihat Abdioğlu. Teoriden Pratiğe. STEM Eğitimi. Dr.Öğr.Üyesi Bekir Yıldırım.
11. Okul Öncesinden Ünversiteye. Kuram ve Uygulama STEM Eğitimi. Dr.Devrim Akgündüz.
12. STEM'DEN STEM+'YA. Teori ve Uygulama.
13. Krupskaya N.K. (1965). İzbranniye pedagogicheskiye proizvedeniya. Moskva, "Prosvesheniye".
14. https://www.raytheon.com/sites/default/files/2020-05/2020_RUK_STEM_Booklet.pdf
15. https://stemeducationjournal.springeropen.com/
16. https://www.youtube.com/watch?v=dkE78UX-qDM&list=WL
17. https://www.youtube.com/watch?v=yAa-tQ-Z_i4
18. www.egitimpedia.com STEM Eğitimi nedir?
19. wikipedia.org What is STEM?
20. https://www.education.wa.edu.au/
21. https://study.com/academy/lesson/what-is-stem-education-definition-importance-standards.html
22. www.hurriyet.com STEM Eğitimi Nedir?
23. https://atlasedu.com/blog/stem-nedir-ve-neden-onemlidir/
24. https://kidpillar.com/what-is-stem-education-and-why-is-it-important-for-kids/

Methods

Pause and its role in expressive reading

Mahira Abdullayeva
Teacher of the Azerbaijani language and its teaching technology department of the Azerbaijan State Pedagogical University, Doctor of Philosophy in Pedagogy. Azerbaijan.
E-mail: mahireabdullayeva5@mail.ru | https://orcid.org/0000-0003-2541-8481

Abstract. Building a solid foundation for primary education has a positive effect on the later years of student learning. One of the main pillars bearing this weight is the subject "Azerbaijani language". Through this subject, young schoolchildren study the history, culture, literature, art, geography, high moral values, etc. of our people. Gains simple knowledge about a fertile ground for him so that he can grow as a person. Along with correct, mindful and fast reading in Azerbaijani lessons, expressive reading skills and habits also help students acquire vital skills in their native language. Practice has shown that the knowledge and skills acquired by poets in their native language are not accompanied by practical speech activity, although they are rather theoretical in nature. Waiting for a break in speech is one of the important conditions in expressive reading skills. Its function is to divide individual sentences into specific parts, to connect words with meaning. Correctly taken break increases the productivity of thinking, improves the quality of assimilation. The article comments on these issues, highlighting the importance of expressive reading.

Keywords: comprehensive schools, primary education, curriculum, language rules, text, sentence, pause, expressive reading.

http://dx.doi.org/10.29228/edu.345
To cite this article: Abdullayeva M. (2020) Pause and its role in expressive reading. *Journal of Preschool and Primary Education,* V. 233, Issue IV, pp. 69–78.
Article history: Received – 10.09.2020; Accepted –17.10.2020

Metodika

Fasilə və onun ifadəli oxu prosesində rolu

Mahirə Abdullayeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasının müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru. Azərbaycan.
E-mail: mahireabdullayeva5@mail.ru | https://orcid.org/0000-0003-2541-8481

Annotasiya. Məqalədə ifadəli oxu prosesində fasilənin rolundan söhbət gedir. İbtidai təhsilin möhkəm təməl üzərində qurulması şagirdlərin sonrakı təhsil illərinə də müsbət təsir göstərir. Bu ağırlığı daşıyan əsas fənlərdən biri Azərbaycan dili fənnidir. Bu fənn vasitəsi ilə kişikyaşlı məktəblilər xalqımızın tarixi, mədəniyyəti, ədəbiyyatı, incəsənəti, coğrafiyası, əxlaqi dəyərləri və s. haqqında sadə biliklər qazanır, onların bir şəxsiyyət kimi yetişməsi üçün münbit zəmin yaradılır. Azərbaycan dili dərslərində düzgün, şüurlu, sürətli oxu ilə yanaşı, ifadəli oxu üzrə bacarıq və vərdişlər də şagirdlərin həyati biliklərə yiyələnmələrinə xidmət edir. Təcrübə göstərir ki, ana dili fənni üzrə şagirdlərin əldə etdikləri bilik və bacarıqlar daha çox nəzəri aspektdə olur, praktik nitq fəaliyyəti ilə müşayiət olunmur. Nitqdə fasilənin gözlənilməsi ifadəli oxu vərdişlərinin mühüm şərtlərindən biridir.Onun funksiyası ayrı-ayrı cümlələri müəyyən hissələrə ayırmaqdan, sözləri mənaca bir-birinə bağlamaqdan ibarətdir. Qeyd olunur ki, fasiləyə düzgün əməl olunması təfəkkürün məhsuldarlığını artırır, mənimsəmənin keyfiyyətini yüksəldir.

Açar sözlər: ümumtəhsil məktəbləri, ibtidai təhsil, kurikulum, dil qaydaları, mətn, cümlə, fasilə, ifadəli oxu.

http://dx.doi.org/10.29228/edu.345
Məqaləyə istinad: Abdullayeva M. (2020) Fasilə və onun ifadəli oxu prosesində rolu. «Məktəbəqədər və ibtidai təhsil», № 4 (233), səh. 69–78.
Məqalə tarixçəsi: göndərilib – 10.09.2020; qəbul edilib – 17.10.2020

Giriş / *Introduction*

Müasir dövrdə çevik intellektual düşüncəyə və sadə həyati bacarıqlara malik olan yeni nəslin formalaşdığı bir cəmiyyətə sürətlə keçid yaşanmaqdadır. Bu prosesin məntiqi istiqamətləndirilməsi dövlətin və cəmiyyətin qarşısında geniş miqyaslı vəzifələr qoyur ki, bunların da əksər hissəsi təhsil sisteminin üzərinə düşür. Müstəqillik yolunda inamla addımlayan respublikamızın təhsil sistemində aparılan məqsədyönlü islahatlar məhz gənc nəsli müasir dövrün inkişaf tendensiyalarına uyğun formalaşdırmağa yönəldilmişdir. Bu mənada ümumtəhsil məktəblərində tədris olunan fənlərin məzmunca yeniləşməsi, təlim prosesinin daha təkmil forma və üsullarla həyata keçirilməsi zərurəti tamamilə özünü doğruldur. Qabaqcıl dünya təcrübəsindən bəhrələnərək hazırlanmış kurikulum proqramının ibtidai məktəbin birinci siniflərində tətbiqindən keçən vaxt artıq təhsilimizin keyfiyyətcə inkişafı ilə bağlı müəyyən mülahizələr söyləməyə, ümumiləşdirmələr aparmağa imkan verir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il, 29 sentyabr tarixli, 361 nömrəli Qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları»nda qeyd edilir ki, təhsilalanların yaşına, fizioloji-psixoloji xüsusiyyətlərinə uyğun olaraq, onların əqli, fiziki, mənəvi, estetik inkişafının, müstəqil əmək və təhsil həyatına hazırlanmaları, cəmiyyətin fəal və təşəbbüskar üzvü kimi formalaşdırılmaları təmin olunmalıdır [Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları (Azərbaycan Respublikası NK-nin 2020-ci il, 29 sentyabr tarixli, 361 nömrəli Qərarı). Bakı. 2020, 23 s.].

Əsas hissə / *Main Part*

Məlumdur ki, ibtidai məktəb ümumi təhsilin möhkəm təməl üzərində qurulmasını təmin edir və bu ağırlığı daşıyan əsas dayaqlardan biri Azərbaycan dili fənni sayılır. Kiçikyaşlı məktəblilər bu fənn vasitəsi ilə xalqımızın tarixi, mədəniyyəti, ədəbiyyatı, incəsənəti, coğrafiyası, adət-ənənələri, yüksək əxlaqi dəyərləri və s. haqqında sadə biliklər qazanmaqla özünüdərketmə prosesinə qədəm qoyur, onların bir şəxsiyyət kimi yetişməsi üçün münbit zəmin yaradılır. Bu işin səmərəli təşkili, ilk növbədə, şagirdlərin dilimizin fonetik, leksik və qrammatik quruluşu ilə bağlı ən zəruri biliklərə yiyələnmələri, bu əsasda oxu, yazı, dinləyib-anlama və danışma bacarıqları qazanmalarından çox asılıdır.

İnteqrativ mahiyyət daşıyan bu fənnin ümumi məqsədi kiçikyaşlı məktəblilərdə düzgün, məntiqi nitq, ifadəli oxu bacarıqları yaratmaqdan və inkişaf etdirməkdən, onların idrak fəallığını, müstəqilliyini formalaşdırmaqdan ibarətdir.

Düzgün, şüurlu, sürətli oxu ilə yanaşı, ifadəli oxu bacarıq və vərdişləri də uşaqları ana dili üzrə biliklərə yiyələnməyə, digər fənlərin mənimsənilməsinə

hazırlamağa xidmət edir, lakin təcrübə göstərir ki, ana dili fənni üzrə şagirdlərin əldə etdikləri bilik və bacarıqlar daha çox nəzəri aspektdə olur, çox zaman praktik nitq fəaliyyəti ilə müşayiət olunmur, nəzəri biliklər və praktik nitq fəaliyyəti zəif əlaqələndirilir. Ona görə də ibtidai sinif şagirdlərinin həm yazılı, həm də şifahi nitq vərdişləri lazımi tələblərə cavab vermir. Şagirdlər ibtidai siniflərdə dil üzrə müxtəlif biliklərə, o cümlədən, sintaktik anlayışlara yiyələnsələr də, nitqlərini düzgün qurmaqda çətinlik çəkirlər. Bu onunla bağlıdır ki, ibtidai siniflərin Azərbaycan dili dərslərində sintaksisə aid dil qaydalarının tədrisi zamanı müəllimlər, adətən, nəzəri anlayışların, tərif və qaydaların öyrədilməsini ön plana çəkir, şagirdlərə daha çox nəzəri bilikləri mənimsətməyə çalışır və bu zaman düzgün, ifadəli oxu mədəniyyətinin formalaşdırılması vəzifəsini unudurlar. Bundan əlavə, ifadəli oxu üzrə işin sintaktik anlayışların mənimsədilməsi prosesi ilə əlaqələndirilməməsi aşılanan biliklərin bacarıq və vərdişlər şəklində formalaşmasına maneə yaradır ki, belə bir vəziyyətin aradan qaldırılması, ilk növbədə, praktik əhəmiyyətə malik olan nəzəri-metodik araşdırmaların aparılmasını tələb edir.

İfadəli oxu ibtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikasında ciddi problem kimi diqqəti cəlb etsə də, çox zaman ikinci plana keçirilmiş, nəzəri biliklərin öyrədilməsi prosesində ifadəli oxu vərdişlərinin inkişaf etdirilməsi imkanlarından lazımınca istifadə edilməmişdir. Halbuki, ibtidai siniflərdə dil qaydaları üzrə sintaksis elementlərinin tədrisi prosesində ifadəli oxu vərdişlərinin aşılanması üçün optimal imkanlar mövcuddur.

Araşdırmalar göstərir ki, A.S. Abdullayev, Ə.R. Əfəndizadə, Y.Ş. Kərimov, Ş.A. Mikayılov, B.A. Əhmədov, N.Ə. Abdullayev, A.N. Rəhimov, H.B. Balıyev, V.T. Qurbanov, M.Q. Məmmədov, Ş.A. Sultanova və başqa metodist-alimlər istər şagirdlərin nitq mədəniyyəti, onun mahiyyəti, düzgün və ifadəli oxu bacarıqlarına yiyələnməyin imkan və yolları, istərsə də sintaktik anlayışların tədrisi ilə bağlı müəyyən tədqiqatlar aparmışlar. Bununla belə, aparılan tədqiqatlarda sintaksisə aid anlayışların mənimsədilməsi prosesində şagirdlərə ifadəli oxu vərdişlərinin aşılanması işinin mahiyyəti və məzmunu, oxu materiallarının seçilməsinə verilən tələblər tam şəkildə öz əksini tapmamışdır. Odur ki, ana dili təlimi prosesinin, xüsusən onun məzmunu, metod və vasitələrinin təkmilləşdirildiyi mövcud islahatlar şəraitində ibtidai siniflərdə Azərbaycan dili dərslərində sintaksisə dair dil qaydalarının və anlayışların mənimsədilməsi zamanı ifadəli oxu üzrə işin sisteminin daha geniş aspektdə tədqiqi böyük əhəmiyyət və aktuallıq kəsb edir. Bu sahədə aparılacaq işin səmərəli nəticə verməsi həmin imkanların dəqiqləşdirilməsi və onlardan istifadə yollarının müəyyənləşdirilməsindən çox asılıdır.

«Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum)» sənədində kurikulumun hazırlanmasında istinad edilən prinsiplər sırasında tələbyönümlülük, nəticəyönümlülük, şagirdyönümlülük və inteqrativlik xüsusi

əhəmiyyət kəsb edir. İbtidai siniflərdə ana dili fənni də mahiyyətcə inteqrativ fənn olduğundan proqramda şagirdlərin «nitq və dil bacarıqlarına yiyələnməklə ümumi nitq inkişafına nail olmaq» vəzifəsini həyata keçirmək üçün onun məzmunu dilin nitq fəaliyyəti növlərinə (dinləyib-anlama, danışma, oxu və yazı) uyğun şəkildə işlənmişdir [Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (I–IV siniflər). 2012].

Eyni zamanda, həmin fəaliyyətlərə linqvistik əsas verən elementar nəzəri bilik və bacarıqların şagirdlərə aşılanması dil qaydaları məzmun xətti ilə əlaqələndirilmişdir. Fənn kurikulumunda şagirddən gözlənilən bacarıqlar ümumiləşdirilmiş və hər bir tədris ilinin sonunda hansı təlim nəticələrinin aşılanacağı konkretləşdirilmişdir. Bunu şagirdlərin ifadəli oxu bacarıqlarına qoyulan tələblərdə də görmək mümkündür. Belə ki, ibtidai təhsil pilləsinin sonunda şagirddən tələb olunan bacarıqlar «Oxu» məzmun xəttində «Mətni düzgün, sürətli, ifadəli, şüurlu oxuyur» şəklində, «Dil qaydaları» məzmun xəttində isə «Oxu texnikasına və vərdişlərinə yiyələndiyini nümayiş etdirir» şəklində ifadə olunur və bu, siniflər üzrə, şagirdlərin yaş və anlam səviyyəsinə müvafiq qaydada sistemləşdirilir. Hər tədris ilinin sonunda şagirdin «Oxu texnikası və ilkin oxu bacarıqlarına yiyələndiyini nümayiş etdirir» və «Zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir» nəticələrinə nail olunması gözlənilir. Bundan əlavə, məzmun xətlərini açıqlayan alt standartlar vasitəsi ilə bilik və bacarıqların şagirdlərə aşılanması səviyyəsi konkret formada ifadə olunur. Şagirdlərin oxu bacarıqlarının inkişafı «Oxu» məzmun xəttində siniflər üzrə bu şəkildə işlənmişdir:

I sinifdə şagirddən 2.2. əsas standartı vasitəsi ilə «Oxu texnikası və ilkin oxu bacarıqlarına yiyələndiyini nümayiş etdirir» nəticəsi tələb olunur [Azərbaycan Respublikasinin ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (I–IV siniflər). 2012].

II–IV siniflərdə isə, ifadəli oxu da daxil olmaqla, şagirddən gözlənilən bacarıqlar, əsasən, dəyişməz qalan «2.2. Oxu bacarıq və vərdişlərinə yiyələndiyini nümayiş etdirir» əsas standartı və «2.2.1. Müvafiq nümunələri müəyyən olunmuş tələblərə uyğun, sürətli, düzgün, şüurlu, ifadəli oxuyur» alt standartı vasitəsi ilə ifadə olunur [Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (I–IV siniflər). 2012].

Şagirdlərin dilimizin sintaktik quruluşu ilə bağlı hansı bilik və bacarıqlara yiyələnmələri isə «Dil qaydaları» məzmun xəttində «4.1. Zəruri dil qaydalarını nümayiş etdirir» əsas standartının tərkib hissəsi kimi siniflər üzrə aşağıdakı alt standarlar vasitəsi ilə, bir-biri ilə inteqrativ əlaqədə olan ardıcıllıqla verilmişdir:

I sinif:

«4.1.8. Cümləni tanıyır və əsas əlamətlərini sadalayır.

4.1.9. Məqsəd və intonasiyaya görə cümlələri fərqləndirir» [Azərbaycan

Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (I–IV siniflər). 2012].

II sinif:

«4.1.6. Cümləni digər nitq vahidlərindən fərqləndirir.

4.1.7. Tələb olunan məqsəd və intonasiyaya görə cümlə qurur və müvafiq işarələrlə tamamlayır» [Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (I–IV siniflər). 2012].

III sinif:

«4.1.6. Cümlənin formalaşmasında baş və ikinci dərəcəli üzvlərin rolunu sadə şəkildə izah edir.

4.1.7. Məqsəd və intonasiyanı dəyişməklə verilmiş cümləni müxtəlif məqamlarda işlədir» [Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (I–IV siniflər). 2012].

IV sinif:

«4.1.6. Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini dəqiq müəyyən edir.

4.1.7. Cümlə və onun növləri ilə əlaqədar kiçik təqdimatlar edir» [Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (I–IV siniflər). 2012].

Fikrimizcə, I sinifdəki «4.1.8. Cümləni tanıyır və əsas əlamətlərini sadalayır» alt standartı II sinif üçün nəzərdə tutulmuş «4.1.6. Cümləni digər nitq vahidlərindən fərqləndirir» alt standartından daha çətindir, çünki şagird hələ savad təliminə hazırlıq mərhələsində cümləni sözdən fərqləndirmək bacarığına yiyələnmiş olur, lakin onun əsas xüsusiyyətlərini sinifdən sinfə keçdikcə, mərhələ-mərhələ mənimsəyir ki, bu da bəzi standartların siniflərin səviyyələrinə uyğun işlənmədiyini göstərir.

Göründüyü kimi, Azərbaycan dili üzrə fənn kurikulumunda istər ifadəli oxu, istərsə də dil qaydaları ilə bağlı bacarıqların hansı həcmdə aşılanması öz konkret ifadəsini tapmışdır. Kurikulumun ənənəvi proqramlardan başlıca fərqi də özünü burada göstərir. Belə ki, bu yanaşma fənn müəlliminə hər bir mövzunun tədrisi zamanı ondan nəyin tələb olunduğuna konkretlik və aydınlıq gətirir. Bununla belə, təlim prosesində hələ də müəyyən problemlərin mövcudluğu müşahidə olunmaqdadır. Odur ki, təlimin məzmununun hansı səviyyədə işlənməsindən asılı olmayaraq, onun kim tərəfindən, necə və hansı vasitələrlə aşılanması aktual problem olaraq qalmaqdadır.

Bildiyimiz kimi, mətnin oxusunda fasilə ifadəliliyin mühüm şərtlərindən biridir. Fasilənin əsas funksiyası ayrı-ayrı cümlələri müəyyən hissələrə ayırmaqdan, sözləri mənaca bir-birinə bağlamaqdan ibarətdir. Oxu prosesində fasiləyə düzgün əməl olunması təfəkkürün məhsuldarlığını artırır, mənimsəmənin keyfiyyətini yüksəldir.

Cümlədəki fasilələr bir-birindən öz müddətinə (qısa və uzun olmasına) və daşıdığı vəzifələrə görə fərqlənir. Cümlədə fasilə həm qısa, həm orta, həm də uzun müddətli ola bilər. Bu nöqteyi-nəzərdən fasilənin aşağıdakı növləri var:

1) qrammatik fasilə; 2) məntiqi fasilə; 3) psixoloji fasilə.

Qeyd etdiyimiz fasilə növləri ibtidai siniflərdə şagirdlərə nəzəri cəhətdən öyrədilmir. Şagirdlərin yaş və psixoloji səviyyələrini əsas götürsək, buna ehtiyac da yoxdur, onlar ifadəli oxunun bu nəzəri cəhətlərini mənimsəyə də bilməzlər. Bu cəhətlər, əsasən, öz ifadəli oxusu ilə şagirdlərə nümunə olan sinif müəllimlərinin nəzər-diqqətində olmalı və onlar bunu praktik şəkildə tətbiq edərək, tədricən şagirdlərdə ifadəli oxu vərdişlərini formalaşdırmalıdırlar.

Qrammatik fasilələr qısa olub, əsasən, durğu işarələri ilə bağlı olan fasilələrdir. Bu fasilənin əsas vəzifəsi cümlədə sözləri bir-birindən ayırmaqdan ibarətdir. Qrammatik fasilə oxu prosesində fasilənin yerini durğu işarələrinə görə müəyyənləşdirməyi tələb edir. Belə ki, nöqtə fikrin bitdiyini göstərir və cümlənin sonunda səsin tonunun aşağı düşməsini tələb edir. Nöqtəli vergül fikrin hələ tam bitmədiyini bildirir. Bu vaxt səsin tonu nöqtədə olduğundan bir qədər az aşağı düşür. Qoşa nöqtə fikrin qurtarmadığını, hələ sadalanacağını, aydınlaşdırılacağını, dəqiqləşdiriləcəyini bildirir. Vergül fikrin bitmədiyini bildirməklə, səsin yüksəldilməsini tələb edir. Tire fikrin sözlə ifadəsində müəyyən bir sözün buraxıldığını göstərir və fasilə tələb edir. Sual və nida işarələri isə fikrin, niyyətin emosional boyalarla verilməsinə xidmət edir.

Müəllim sistematik olaraq durğu işarələrinin öyrədilməsi prosesində intonasiya və fasiləyə fikir verməlidir, çünki bu, şagirdlərdə nitq inkişafı və ifadəli oxu vərdişlərinin formalaşdırılmasının zəruri yoludur. Durğu işarələri sintaksis üzərində qurulur, yazıda dilin sintaktik cəhətlərini əks etdirir. Bir sıra durğu işarələrinin işlənmə qaydaları sintaksisə əsaslanır. Sintaktik əsas olmayan yerdə durğu işarəsi işlənmir.

Müəllim şagirdlərə izah etməlidir ki, cümlə sonunda qoyulan işarə irəli sürülən fikrin məqsədini, mənasını aydın dərk etməyə kömək edir, məsələn:

1. Səhər dənizdə fırtına qopdu.
2. Səhər dənizdə fırtına qopdu?
3. Səhər dənizdə fırtına qopdu!

Bəzən şagirdlərə durğu işarələrinin əsl mahiyyəti düzgün və yaxşı mənimsədilmir. Ona görə də şagirdlərdə durğu işarələri haqqında birtərəfli və yanlış təsəvvür yaranır. Müəllim, yeri gəldikcə, sual işarəsi olan yerdə də nöqtədə olduğu qədər dayanmağın, sual ifadə edən sözün tələffüzündə səs tonunu ucaltmağın lazım olduğunu başa salmalıdır.

İfadəli oxu vərdişlərinin formalaşdırılması prosesində uşaqlar tədricən öyrənirlər ki, oxu zamanı həmişə durğu işarələrinə riayət etmək mümkün deyil. Bir çox hallarda durğu işarələri fasilə və səs tonunun dəyişməsini tələb etmir, məsələn,

cümlənin sonundakı xitabdan əvvəl fasilə edilmir, təkrar olunan ara sözlər fasilə ilə ayrılmır və s. Bəzən isə əksinə, durğu işarəsi olmadan da fasilə edilməsi tələb olunur.

Bədii əsərlərin oxunması prosesində qrammatik və məntiqi fasilənin gözlənilməsi oxunun ifadəliliyinə, məzmunun şüurlu mənimsənilməsinə güclü təsir göstərir. Fasilənin gözlənilməsi ifadəli oxu vərdişlərində mühüm şərtlərdən biridir. Onun əsas funksiyası ayrı-ayrı cümlələri müəyyən hissələrə ayırmaqdan, sözləri mənaca bir-birinə bağlamaqdan ibarətdir. Fasiləyə düzgün əməl olunması təfəkkürün məhsuldarlığını artırır, mənimsəmənin keyfiyyətini yüksəldir.

Qrammatik fasilə durğu işarələri ilə bağlıdır. Bu fasilə qısa olur və ayrı-ayrı cümlələri bir-birindən ayırır, müəyyən əlaqə yaradır, ifadəli oxu prosesinin ahəngdarlığını artırır. Müəllim qrammatik fasiləyə əməl edərək mətni oxuyur, şagirdlər isə oxunu mətn üzərində izləyərək, müəllimin harada fasilə etməsinə diqqət yetirirlər.

Məntiqi fasilə qrammatik fasilədən söz və söz birləşmələrini məna qruplarına ayırması, həmin sözlərin mənasının dərk olunmasına xidmət etməsi ilə seçilir. Məntiqi fasilə mətndəki ayrı-ayrı sözlərin və cümlənin hissələrinin mənasından asılıdır. Cümlədə məna yükünü daşıyan mühüm sözlər məntiqi fasilə ilə ayrılır. İfadəli oxu zamanı məntiqi fasilə daha mühüm rol oynayır. Bəzən uzun cümlələrdəki mənaca sıx bağlı olan söz birləşmələri ayrıca tələffüz edilir və bir vahid kimi asanlıqla digərlərindən fərqləndirilir. Məntiqi fasilə nitqi məna daşıyan hissələrə bölməklə, onun dəqiqliyini, aydınlığını təmin edir. Danışan bu fasilənin köməyi ilə ifadə edəcəyi fikri dinləyicinin diqqətinə çatdırır, bəzən nitqdə yaranan dolaşıqlığı aradan qaldırır. Fasilə cümlədə vahid məna bütövlüyündə birləşən qrupları həm ayırır, həm də birləşdirir. Buna görə də ona əlaqələndirici, yaxud birləşdirici fasilə də deyilir, məsələn, "Çalış, verdiyin sözü vaxtında yerinə yetir" cümləsində bölgü bildirən fasilə (çalış sözündən sonra) fikrin düzgün ifadə olunmasına xidmət edir. Cümlədə söz və ifadələrin mənaca bu cür fərqləndirilməsi müəyyən söz və ifadənin mənasını daha aydın nəzərə çarpdırır, onların arasında vəhdət yaradır. Məntiqi fasilələr əksər hallarda durğu işarələri ilə uyğun gəlir, lakin bir sıra hallarda sözlər arasında məntiqi fasilə edildiyi halda, heç bir durğu işarəsinə ehtiyac olmur, məsələn, sadə cümlədə mübtəda ilə xəbər arasında, məsdər tərkibi ilə cümlənin başqa üzvləri arasında fasilə edildiyi halda, heç bir durğu işarəsinin işlədilməsinə ehtiyac qalmır.

Cümlə oxunarkən məntiqi fasilə gözlənilmədikdə ahəng pozulur. İbtidai sinif şagirdlərinin oxusunda belə hallar müşahidə olunur. Oxu sürətli, ya da yavaş-yavaş davam edir, bəzən isə uzun cümlələrlə qarşılaşan ibtidai sinif şagirdlərinin onları sona çatdırmağa nəfəsi çatmır. Bunun nəticəsində də nitq kəsilir. Bu baxımdan müəllim məntiqi fasilənin yerini şagirdlərə düzgün mənimsətməlidir.

Psixoloji fasiləyə gəldikdə, o həm qrammatik, həm də məntiqi fasilələrdən bir

sıra xüsusiyyətləri ilə fərqlənir. Əvvəla, psixoloji fasilə öz müddəti etibarı ilə qrammatik və məntiqi fasilələrdən daha uzundur. İkinci, psixoloji fasilə söz və ya ifadəni cümlədəki başqa söz və ifadələrdən ayırmaqla yanaşı, ona həm də emosional rəngarənglik verir. O, mənadan daha çox hisslərlə bağlı olur ki, bu zaman qəhrəmanın, yaxud müəllifin daxili həyəcan və hisslərini oxucuya çatdırmağa xidmət edir. Bu fasilə dinləyicinin diqqətini danışanın mətndən əlavə nəzərdə tutduğu, bilavasitə sözlərlə ifadə etmək istəmədiyi cəhətə cəlb edir. Tutaq ki, düşmənlərin ağır işgəncə ilə öldürdüyü bir əsgər haqqında danışılır. Danışan bu hadisəni daha təsirli vermək üçün psixoloji fasilədən belə istifadə edir: «Düşmənlər onu güllələmədilər... Onlar onu diri-diri torpağa basdırdılar». Burada fasilə (çox nöqtələrin yerində) özündən sonra gələn fikri qüvvətləndirir. Dinləyici əvvəlkindən daha dəhşətli olan bir hadisənin baş verəcəyini səbirsizliklə gözləyir. Psixoloji fasilə yazıda, adətən, çox nöqtə ilə göstərilir. Bütün hallarda çox nöqtədə edilən fasilə psixoloji fasilədir. Məhz buna görə də psixoloji fasilələrdən bədii oxu zamanı daha geniş istifadə edilir. Bununla belə, ifadəli oxu zamanı da şagirdlərin psixoloji fasilə haqqında məlumatlarının olması vacibdir. Belə ki, məntiqi fasiləni uzatdıqda, o, psixoloji fasiləyə çevrilə və cümlənin quruluşunda, eləcə də mənasında əsaslı dəyişikliklər əmələ gətirə bilər.

Çox vaxt psixoloji fasilələr yazıda durğu işarələri ilə də verilir. Belə ki, psixoloji fasilə ediləcək yerdə, yəni müəyyən söz, ifadə və ya cümlədən sonra çox nöqtə və ya tire işarələri qoyulur. Şagirdlərə ifadəli oxu vərdişləri aşılayarkən psixoloji fasilənin xüsusiyyətlərini də izah etmək, onu qrammatik və məntiqi fasilələrdən fərqləndirməyi öyrətmək lazımdır.

Bütün bu deyilənlərə əsasən, aşağıdakı nəticələrə gəlirik: istər ənənəvi Azərbaycan dili proqramlarında, istərsə də «Azərbaycan dili» fənn kurikulumunda şagirdlərin ifadəli oxu bacarıqlarına yiyələnmələri üçün müəyyən imkanların yaradılması diqqət mərkəzində saxlanmışdır. Bu imkanlar yalnız bədii nümunələri əhatə edən oxu materiallarını deyil, həm də dilimizin sintaktik quruluşunu əks etdirən sadə məlumatları əhatə edir. Ənənəvi proqramlarda sintaksisə dair nəzəri məlumatlar daha çox bilik əldə etmək məqsədi ilə verilmişdirsə, fənn kurikulumunda konkret təlim məqsədlərinə yönəlmiş oxu, yazı və danışıq bacarıqları yaratmağa istiqamətləndirilmiş nitq mədəniyyətinin formalaşdırılmasına xidmət edir.

Nəticə / *Conclusion*

Aparılan araşdırmalardan sonra bu nəticəyə gəlirik ki, uzun müddət ana dili təlimi bir-biri ilə bəzən zəif əlaqələndirilmiş «Oxu» və «Azərbaycan dili» dərslikləri vasitəsi ilə həyata keçirildiyindən dil qaydalarının, o cümlədən, sintaksisə dair sadə bilik və bacarıqların düzgün, şüurlu, sürətli və xüsusən də, ifadəli oxu bacarıqlarının yaranmasında oynadığı rol minimuma endirilmişdir.

Yeni nəsil Azərbaycan dili dərsliklərində bu nöqsan aradan qaldırılaraq, dil qaydalarının oxu və yazı bacarıqlarına inteqrasiya edilməsi yolu ilə aşılanması nəzərdə tutulsa da, elementar linqvistik məlumatların siniflər üzrə sadədən mürəkkəbə doğru verilməsinə nail olunmamışdır. Bu isə sintaksisə dair biliklərin ifadəli oxu bacarıqlarının inkişafı ilə üzvi surətdə əlaqələndirilməsi işində müəyyən maneələr yaradır. Odur ki, bu sahədə sistemli işin aparılmasına böyük ehtiyac duyulur.

Ədəbiyyat / *Reference*

1. Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları. (2020). (Azərbaycan Respublikası NK-nin 2020-ci il, 29 sentyabr tarixli, 361 nömrəli Qərarı). Bakı, 23 s.
2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (I–IV siniflər) (2012). Bakı.
3. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. (2013). Bakı, 24 oktyabr.
4. Azərbaycan Respublikasının ümumi təhsilin milli kurikulumu materialları. (2006). Bakı: «Təhsil» Nəşriyyat-Poliqrafiya MMC, 54 s.
5. Azərbaycan dili. I sinif (dərslik). (2020). Bakı, 184 s.
6. Azərbaycan dili. I sinif (metodik vəsait). (2020). Bakı, 184 s.
7. Abdullayeva M.M. (2013). İbtidai siniflərdə sintaksisin öyrədilməsi prosesində ifadəli oxu vərdişlərinin inkişafı yolları (metodik vəsait). Bakı, 79 s.
8. Cəfərova N. (2016). İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası (dərslik, I hissə). Bakı, 403 s.
9. Cəfərova N. (2019). İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası (dərslik, II hissə). Bakı, 430 s.
10. Kərimov Y.Ş. (2013). Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 459 s.
11. Kurikulum islahatı: tədqiqatlar, nəticələr. (2011). Bakı: "Mütərcim", 344 s.
12. Qurbanov V.T. (2019). Azərbaycan dili təliminin problemlərinə dair. Bakı: "Müəllim", 202 s.
13. Mehralıyeva B. (2016). İbtidai siniflərdə dil qaydalarının mənimsədilməsi sistemi. Bakı: "Elm və təhsil", 216 s.
14. Ümumtəhsil məktəblərinin I–IV sinifləri üçün fənn kurikulumları. (2008). Bakı: "Təhsil", 480 s.

Methods

Learners' logical thinking and the role of riddles in speech development

Arif Kazimov
Senior teacher of Azerbaijan State Pedagogical University. Azerbaijan.
E-mail: arif.kazimov@inbox.ru
https://orcid.org/0000-0003-0163-2504

Abstract. The article discusses the importance of examples of riddles in the formation of logical thinking, cognitive abilities, as well as cognitive abilities of learners (students). Metaphorical riddles contain information about every corner of our daily lives. Many of our riddles are informative. The process of finding answers to riddles shapes learners' creative pursuits. In most riddles, the answer is found not only with the help of memory, but also with the help of the mind. The questioning at the heart of Azerbaijani folk riddles is based on the experience and knowledge of our people. In our riddles, informativeness is more prominent on the subject of natural beings, human nature and body parts, household items, food, and so on. Many riddles have both a literary text and a coded answer. It is the students' mental efforts to make the explanations quick and effective. Logical and cognitive activity develops in students due to purposeful searches.

Keywords: algorithm, technology, riddle, folklore, methods, object.

http://dx.doi.org/10.29228/edu.347
To cite this article: Kazimov A. (2020) Learners' logical thinking and the role of riddles in speech development. *Journal of Preschool and Primary Education,* V. 233, Issue IV, pp. 79–87.
Article history: Received – 17.11.2020; Accepted – 24.11.2020

Metodika

Öyrənənlərin məntiqi təfəkkürünün və nitqinin inkişaf etdirilməsində tapmacaların rolu

Arif Kazımov
Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi. Azərbaycan.
E-mail: arif.kazimov@inbox.ru
https://orcid.org/0000-0003-0163-2504

Annotasiya. Məqalədə öyrənənlərin məntiqi təfəkkürünün, dərketmə qabiliyyətlərinin, idraki bacarıqlarının formalaşmasında tapmaca nümunələrinin əhəmiyyətindən bəhs olunur. Metaforik yolla yaradılmış tapmacalarda gündəlik həyatımızın hər bir güşəsinə dair məlumat və bilgilər öz əksini tapmışdır. Tapmacaların çoxu informativ xüsusiyyətlərə malikdir. Onların cavablarının tapılması prosesi öyrənənlərdə yaradıcılıq bacarıqlarını formalaşdırır. Əksər tapmacalarda cavab təkcə yaddaşın deyil, həm də əqlin, dərketmənin yardımı ilə tapılır. Azərbaycan xalq tapmacalarının özəyində məsələlərin qoyuluşu xalqın əsrlər boyu topladığı təcrübə və biliklərə əsaslanır. Tapmacaların bir çoxunda həm bədii mətn, həm də cavab kodlaşdırılmış şəkildə olur. Şagirdlərin bütün zehni qabiliyyətləri ona istiqamətlənir ki, açıqlamaları tez və səmərəli yerinə yetirsinlər. Məqsədli axtarışların hesabına şadirdlərin məntiqi və idrak fəallığı inkişaf edir.

Açar sözlər: alqoritm, texnologiya, tapmaca, folklor, metod, obyekt.

http://dx.doi.org/10.29228/edu.347
Məqaləyə istinad: Kazımov A. (2020) Öyrənənlərin məntiqi təfəkkürünün və nitqinin inkişaf etdirilməsində tapmacaların rolu. «Məktəbəqədər və ibtidai təhsil», № 4 (233), səh. 79–87.
Məqalə tarixçəsi: göndərilib –17.11.2020; qəbul edilib – 24.11.2020

Giriş/ *Introduction*

Tapmaca – Azərbaycan şifahi xalq yaradıcılığının ən qədim və maraqlı janrlarından biridir. Bu janr əsrlərdən bəri nəsildən-nəslə, ağızdan-ağıza keçərək, müxtəlif dəyişikliklərə uğramış, bəzən öz forma və məzmununu dəyişmiş, xalq idrakının təkamülü ilə əlaqədar olaraq inkişaf etmiş, cilalanmış, bu günə qədər də öz varlığını qoruyub saxlaya bilmişdir. Şifahi xalq ədəbiyyatının ən qədim nümunələrindən biri olan tapmacalar xalqın gündəlik həyatı, məişəti, təsərrüfatı, düşüncəsi və tarixi ilə çox yaxından bağlı olmuşdur. Tapmacalar heç də birdən-birə bizim bu gün gördüyümüz şəkildə olmamışdır. Əvvəlcə onlar sadəcə danışıq sözlərindən ibarət olmuş, hər hansı hadisə, əşya və s. öz adı ilə deyil, dolayısı ilə, metaforik yollarla, əlamətlərlə ifadə edilmişdir. İbtidai insanların belə bir danışıq formasından istifadə etmələrinin öz səbəbləri var idi. Qədim insanlar təbiət hadisələri, səma cisimləri, vəhşi heyvanlar və s. haqqında dəqiq biliklərə malik olmadıqlarından, onları əsrarlı bildikləri üçün qorxduqlarından, onların adlarını olduğu kimi deyil, ona yaxın olan adlarla, əlamətlərlə, dolayı yollarla adlandırırdılar. Belə danışıq üslubuna mövcud dastan və nağıllarımızda da çox təsadüf olunur.

Tapmacalar iki və daha artıq şəxs arasında mükalimə şəklində meydana gəlmişdir. Tapmacalar məclislərdə, şənliklərdə, tapmaca gecələrində kollektiv tərəfindən yaradılmışdır. Nəyisə bilmək, hər hansı bir məchulu üzə çıxarmaq, yeniliyə can atmaq insan təbiətinə xas olan xüsusiyyətlərdir.

Əsas hissə / *Main Part*

Müasir dövrdə tapmacalar uşaq folklor ədəbiyyatının mühüm hissəsini təşkil edir, uşaqların zehninin, dərrakəsinin inkişafına təkan verir. Tapmacalar bir tərəfdən uşaqlarda tez qavrama, əlamətlərə əsasən axtarıb tapma, tez hesablama, hazırcavablıq qabiliyyətlərini sürətləndirir, digər tərəfdən onlarda elmi təsəvvürlər yaradır. Hətta vaxtilə saylar da uşaqlara tapmacalar vasitəsi ilə öyrədilmişdir. Bu baxımdan folklorşünas V. Xuluflu tapmacaları «xalq təfəkküründün matematikası (riyaziyyatı)» adlandırmışdır. Ümumiyyətlə, tapmacalar insana bilik verir, onu həyat və təbiət hadisələri ilə tanış edir. Tapmacalar insanı əhatə edən real varlıqlarda, təbiətdə baş verən, onun həyat tərzi ilə bağlı hadisələrin mahiyyətini dərk etməkdə böyük əhəmiyyətə malikdir. Dərsliklərdə və tədris prosesində tapmacalara kifayət qədər yer verilməsi də bu tələbatdan irəli gəlir.

Məktəbdə təlim fənlərinin qarşısında duran mühüm vəzifələrdən biri də şagirdlərin məntiqi təfəkküründü və nitqini inkişaf etdirməkdir. Fəal təlim prosesində şagirdlərin məntiqi təfəkküründün inkişafına yönəldilmiş texnikalardan biri də tapmacaların qurulması və müəyyən edilməsi – alqoritmin cıxarılmasıdır.

Əvvəlcə, qısa şəkildə *alqoritm* sözünün etimoloji və terminoloji mahiyyətinə nəzər salaq. Etimoloji mənada ***alqoritm*** sözü ***əl-Xorəzmi*** sözündən götürülmüş,

ərəb mənşəli sözdür. IX əsrdə Orta Asiyada yaşamış özbək riyaziyyatçısı Məhəmməd əl-Xorəzminin adı ilə bağlıdır, «oyun», «texnologiya» anlamlarında işlədilmişdir. «Əl-Xorəzmi» sözü sonralar ərəb dilindən digər dillərə keçərək, – *algorisme (fr.), algorism (ing.), алгоритм (rus), alqoritm (Azərbaycan),* Avropa dillərində *alqoritm* kimi işlənməyə başlamışdır.

Terminoloji mənada ***alqoritm*** – verilmiş məsələnin həlli üçün lazım olan əməliyyatları müəyyən edən, onların hansı ardıcıllıqla yerinə yetirilməsini göstərən yazılışdır. Başqa sözlə desək, *alqoritm* –məntiqi əməliyyatların sonlu sayda yerinə yetirilməsi ardıcıllığıdır.

Qabaqcıl təcrübəyə əsaslanaraq, deyə bilərik ki, təlim prosesində tapmacaların qurulması və müəyyən edilməsi alqoritmi bir tərəfdən öyrənənlərin fəallığını artırırsa, digər tərəfdən də öyrədilən materialın şüurlu mənimsədilməsinə və uzun müddət yadda saxlanılmasına kömək edir. Fikrimizcə, bu, səbəbsiz deyildir, çünki digər folklor janrlarından fərqli olaraq, öyrənənlər məhz tapmacaların hesabına poetik şəkildə düşünməyi öyrənir, bilik və məlumatlarını artırırlar. Belə ki, tapmacalar, mövzu etibarı ilə, insanın bütün yaş dövrlərindəki bilik dairəsini, peşəsini, məşğuliyyətlərini, əhatə olunduğu aləmi ehtiva edir.

Tapmaca yaradıcılığında maraqlı məsələlərdən biri də cisim, əşya və hadisənin, əlamət və xüsusiyyətinin hansı cəhətinin əsas götürülməsidir. Daha doğrusu, riyazi dillə desək, məchulu tapmaq üçün bir neçə məlum əlamət verilir. Tapmaca, guya insana tanış olan əlamətlərdən qurulur, əslində isə cavab onun əksini təşkil edir, məsələn, tapmaca ağacın əlamətləri üzərində qurulur, cavab isə insanın bədən üzvlərinə aid olur, məsələn, «Bir ağacım var, iki budağı» (cavab: insanın qolları). Bu baxımdan təlim prosesində tapmacaların qurulması və müəyyən olunması alqoritminin çıxarılması bilavasitə təlimin qarşıya qoyulmuş əsas meyarlara xidmət edir. Fikrimizi əsaslandırmaq üçün belə bir suala cavab axtaraq: tapmacaların qurulma alqoritmi nədən ibarətdir?

Tapmacanı qurmaq üçün əvvəlcə əşyanı əlamətlərinə görə təsvir etməyi, beyində obyektin müxtəlif xüsusiyyətlərini cəmləşdirməyi və onlardan ən mühüm olanlarını seçməyi bacarmaq lazımdır.

1. Aşağıdakı əlamətlər əsasında tapmaca quraq.

a) Nəyə oxşayır?

b) Nə ilə fərqlənir?

c) Əks etdirdiyi əşya ilə müqayisəsi.

Nəyə oxşayır?	**Ondan nə ilə fərqlənir?**
Qarğaya	***Ət yemir.***
Quşa	***Dimdiyi yoxdur.***
İtə	***Hürmür.***
Bitə	***Saçda yaşamır.***

Qarğa kimi qaradır, amma ət yemir.
Quş kimi qanadı var, amma dimdiyi yoxdur.
İt kimi qoxu bilir, amma hürmür.
Bit kimi şirin xoşlayır, amma saçda yaşamır.
Bu, nədir? ***(cavab: milçək)***

2. Yazı lövhəsində yeni plan yazılır.

Əsas əlamətləri nədir?	**Ona oxşayan əşya hansıdır?**
İşıq saçır.	***Lampa.***
Əriyir.	***Qar.***
Damcılayır.	***Yağış.***

İşıq saçır, lampa deyil.
Əriyir, amma qar deyil.
Damcılayır, yağış deyil.
Deyin görək, bəs bu nədir? ***(cavab: şam)***

IV sinfin «Azərbaycan dili» dərsliyində "Say bildirən sözlər" bölməsi var. Burada verilən nəzəri məlumatlara və tapşırıqlara diqqət yetirək. Dərslikdə əsas nitq hissələrindən biri olan saya belə bir tərif verilmişdir: «Varlığın nə qədər olduğunu bildirmək üçün ad bildirən sözdən əvvəl say bildirən söz işlənir. Say bildirən sözlər *neçə?, nə qədər?* suallarına cavab verir», məsələn: Atam bağda beş nar ağacı əkmişdi [R. İsmayılov., S. Abdullayeva., X. Qasımova., D. Cəfərova. Azərbaycan dili. (dərslik) IV sinif].

Dərslikdə məhdud həcmdə verilmiş bu nəzəri məlumatın şagirdlər tərəfindən mənimsənilməsi müəyyən çətinliklər yaradır. Qarşıya qoyulmuş məqsədə çatmaq üçün müəllim tapmaca nümunələrindən istifadə etməklə «Say» bəhsinin öyrədilməsinə qismən nail ola bilər.

1. Hansı tapmacada say bildirən sözlər daha çoxdur?

a)	b)
Altı inci, mirvari,	Bir küpüm var, saçaqlı,
Üstü inci, mirvari,	Yeddicə deşiyi var:
Arasında bir yarpaq.	Üçü cütdür, biri tək.

2. Hansı cavab ikinci tapmacaya aiddir?

a) baş; b) dişlər və dil.

3. İkinci tapmacada «cüt deşiklər» və «tək deşik» dedikdə, nə nəzərdə tutulur?

Bu səpkidə tapmaca nümunələri verməklə şagirdlərin həm mövzuya marağını artırmaq, həm də nəzəri bilikləri səmərəli şəkildə mənimsətmək mümkündür.

Fəal təlimdə beyin həmləsi (əqli hücum) metoduna aid edilən texnikalardan biri də *anlayışın çıxarılmasıdır.* Bu texnikanın tətbiqində məqsəd şagirdlərin yeni anlayışları müstəqil öyrənmələrini və bilikləri daha dərindən mənimsəmələrini

təmin etməkdən ibarətdir. Nəzərdə tutduğumuz texnikanı «oyun-tapmaca» formasında keçirdikdə öyrənənlərin əqli qabiliyyətlərinin və idrak motivasiyasının inkişafına təkan vermiş oluruq. Texnikanın tətbiqi prosesində müəllim yazı lövhəsindən 3 ədəd rəngli kağız asır. Həmin kağızların arxasında öyrənənlərin tapacağı anlayışı – tapmacanın cavabını yazır. Kağızın yazı olmayan tərəfini öyrənənlərə göstərir və gizlədilmiş anlayışın (obyektin) xüsusiyyətlərinə aid 2 və 3 istiqamətləndirici söz göstərir və ya yazır. Sonra, oyunun qaydasına görə, öyrənənlərə belə təlimat xarakterli suallar verilir: «Bu xüsusiyyətlər əsasında gizlətdiyim anlayışı (tapmacanın cavabını) tapa bilərsinizmi? Əlamətlərlə tanışlıqdan sonra sizdə hər hansı ilkin təsəvvürlər yarandımı?»

Müəllimin qısa izahatından sonra şagirdlər həmin xüsusiyyətlərə uyğun olaraq gizlədilmiş obyekti – tapmacanın cavabını axtarırlar.

Alqoritmə diqqət yetirək:



Bu əlamətlərə əsasən, öyrənənlər fikirləşib, gizlədilmiş tapmacanın cavabının «dovşan» olduğunu müəyyən edə bilirlər.

Əgər öyrənənlər anlayışı tapmaqda çətinlik çəksələr, müəllim əlavə olaraq yeni, açar xüsusiyyətlər sadalayır. Öyrənənlər öz fərziyyələrini söylədikdən sonra müəllim bu tapmacanın cavabının tapılıb-tapılmadığını elan edir və rəngli kağızdakı sözləri təhlil edib ümumiləşdirdikdən sonra tapmacanın cavabını açıqlayır. Nəticədə öyrənənlər müəyyən əlamətlərin köməyi ilə tapmacanın cavabını bir növ «kəşf» edirlər.

İbtidai siniflərdə, o cümlədən, V siniflərdə danışıq səslərinin tədrisi prosesində tapmaca nümunələrindən istifadə etməklə öyrənənlərin, nəinki idrak qabiliyyətlərini, həm də müstəqil düşünmə bacarıqlarını inkişaf etdirmək mümkündür. Deyilənləri əsaslandırmaq üçün bəzi nümunələri nəzərdən keçirək:

1. Bu tapmacaların cavablarını tapın:

«Boran»da və «qar»da varam – «çovğun»da yox!

«Araz»da və «Kür»də varam – «ağac»da yox!

Mən hansı səsəm?

(cavab: «r» səsi)

2. «Ana»da var, «ata»da yox,
«Nuxa»da var, «Bakı»da yox.
(cavab: «n» hərfi);
[N. Seyidov. Tapmacalar. 2004]

3. Bunu hansı söz deyə bilər?
İncə, açıq bir saitlə,
Boşqablarda yeyilirəm.
Amma qapalı saitlə,
Həyətlərdə deyinirəm.
(cavab: «ət» və « it» sözləri);
[N. Seyidov. Tapmacalar. 2004].

4. Bəs bunu hansı söz deyir?
Yəqin ki, sizə tanışam,
Bağçaları mən bəzərəm.
Birinci hərfi dəyişsən,
Yanıb «kül»ə çevrilərəm.
(cavab: «gül"» sözü);
[N. Seyidov. Tapmacalar. 2004]

5. Bu sözü tapın.
Bilirsiniz, məşhur çayam,
Missisipi çayına tayam!
Başdan sonor səs pozuldu,
Tapın gorüm, indi nəyəm?
(cavab: "Nil" və "il" sözləri)

6. O nədir ki, bütün dillərdə danışır?
(cavab: əks-səda)

7. «Ata»da dəyməz,
«Baba»da dəyər.
«Xala»da dəyməz,
«Əmi»də dəyər.
«Allah»da dəyməz,
«Billah»da dəyər.
(cavab: dodaqlar)
[N. Seyidov. Tapmacalar. 2004]

Sual oluna bilər: nə üçün tapmacanın cavabı «dodaqlar»dır? Bizcə, tapmacanın açması fonetik qanunauyğunluqla bağlıdır. Məlumdur ki, **[b]** və **[m]** səslərini dodaqların fəal iştirakı ilə tələffüz edirik. Onların əmələ gəlməsində alt dodaq üst dodaqla birləşərək müxtəlif maneələr yaradır. **[b]** səsindən fərqli olaraq, **[m]** səsi burun boşluğundan xaricə çıxan səs axını əsasında formalaşır. Tərkibində həmin

səslər olan baba, əmi, billah sözlərini tələffüz edərkən dodaqlar bir-birinə toxunur. Elə buna görə də tapmacanın cavabı «dodaqlar»dır [A. Kazımov. Tapmacaların sirri (tapmacalar-açmacalar). 2017].

Şagirdlərin lüğət ehtiyatını zənginləşdirmək üçün tapmaca nümunələrindən istifadə etməyin xüsusi praktik əhəmiyyəti də vardır. Belə ki, tapmaca nümunələrindən istifadə zamanı şagirdlər, bir tərəfdən, yeni leksik vahidlərə yiyələnir, onlardan öz nitqlərində istifadə edir, digər tərəfdən, eyni fikri müxtəlif formada istifadə etməyin mümkün olmasına aid elementar vərdişlərə yiyələnirlər, məsələn, şagird ***telefon, elektrik, təyyarə*** və s. sözlərin əvəzinə, onların müəyyən əlamətlərini işlətməyin mümkün olduğunu başa düşür:

Çağırıram hündürdən,
Səsim gəlir kəndirdən.
(telefon)
Bir sehrli fanaram,
Kibritsiz də yanaram.
(elektrik lampası)

Deməli, tapmacalar sinonim söz və konstruksiyalardan istifadə etməyə aid praktik vərdişlər aşılayır, bununla da nitqi zənginləşdirir. Ona görə də müəllim gələcək dərslərində sinonimlər haqqında məlumat verərkən bu faktlara əsaslanmalı, o baxımdan çıxış etməlidir.

Nəticə / *Conclusion*

Apardığımız araşdırmalara və qabaqcıl təcrübəyə əsaslanaraq demək olar ki, Azərbaycan dili dərslərində tapmacalardan istifadə olunmasının böyük praktik əhəmiyyəti vardır. Belə ki, tapmacalar bir tərəfdən şagirdlərin məntiqi təfəkkürünü və dərketməsini inkişaf etdirməklə yanaşı, digər tərəfdən onların lüğət ehtiyatının formalaşmasına, zənginləşməsinə də kömək edir. Tapmacaların dili sadə, lakonik, həcmi isə yığcam olduğuna görə şagirdlər həmin nümunələri asanlıqla əzbərləyib, uzun müddət yaddaşlarında saxlaya bilirlər.

Şagirdlərin tapmacalarla ilk tanışlığı, təbii ki, dərsliklərlə bağlıdır. Dərsliklərdə tapmaca nümunələrinin verilməsinin ilkin ənənəsi, bilavasitə A. O. Çernyayevskinin «Vətən dili» dərsliyi ilə bağlı olmuşdur. Həmin dərslikdə şagirdlərin maraq dairəsi nəzərə alınaraq, hər dərs nümunəsinə uyğun tapmacalar verilmişdir. Əvvəlki dərsliklərdən fərqli olaraq, mövcud Azərbaycan dili dərsliklərində tapmaca nümunələri, demək olar ki, çox məhdud saydadır. Dərsliklərdə tapmaca nümunələrinin sayının artırılmasına, onların mövzu dairəsinin genişləndirilməsinə ehtiyac vardır.

Ədəbiyyat / *Reference*

1. Əliyev H., Kazımov A. (2012). Azərbaycan dilinin izahlı lüğəti (ibtidai siniflər üçün). Bakı: 230 s.
2. Əliyev H., Kazımov A. (2015). Azərbaycan dilindən düşündürücü suallar və cavablar. Bakı: "Adiloğlu", 235 s.
3. Xuluflu V. (2019). Tapmacalar. Bakı: "Qərb-Şərq", 432 s.
4. İsmayılov R., Abdullayeva S., Qasımova X., Cəfərova D. (2019). Azərbaycan dili. (dərslik). IV sinif. Bakı: "Altun kitab", 223 s.
5. Kazımov A. (2017). Tapmacaların sirri (tapmacalar-açmacalar). Bakı: "Elm və təhsil", 64 s.
6. Kazımov A. (2018). Sirli-sehrli tapmacalar. Bakı: "Elm və təhsil", 387 s.
7. Kazımov A., Osmanova T. (2012). Azərbaycan dili dərslərində interaktiv təlim metodları (müəllim üçün vəsait). Bakı: "AM 965" MMS, 65 s.
8. Seyidov N. (2004). Tapmacalar. Bakı: "Şərq-Qərb", 208 s.
9. Soltanov M., Kazımov A. (2017). İmla mətnləri (ibtidai siniflər üçün). Bakı: "AM9 65" MMS, 96 s.
10. Zeynallı H. (2013). Azərbaycan tapmacaları (tapmacalar, bağlamalar). Bakı, "Elm və təhsil", 102 s.

Family and School

The role of parents in the spiritual development of children

Vusala Aliyeva
Teacher of Azerbaijan State Pedagogical University, doctor of philosophy in pedagogy. Azerbaijan. E-mail: vusale2000@gmail.com
https://orcid.org/0000-0003-2998-0543

Abstract. This article shows how parents can raise their children on the basis of moral values and lay a strong foundation for the future. Spiritual development allows children to understand the purpose and meaning of their lives. From infancy, parents can play a key role in the spiritual development of their children in an environment that simply satisfies their needs and gives them love and attention. It is important to create an environment that promotes family values to ensure the spiritual development of children. In this context, it aims to examine the views of parents with children between the ages of 3 and 6 on an adequate approach.

Keywords: children's development, spiritual development, parental role, parental authority, moral values.

http://dx.doi.org/10.29228/edu.346
To cite this article: Aliyeva V. (2020) The role of parents in the spiritual development of children. *Journal of Preschool and Primary Education,* V. 233, Issue IV, pp. 89–98.
Article history: Received – 21.08.2020; Accepted – 28.08.2020

Ailə və məktəb

Uşaqların mənəvi tərbiyəsində valideynlərin rolu

Vüsalə Əliyeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru. Azərbaycan. E-mail: vusale2000@gmail.com
https://orcid.org/0000-0003-2998-0543

Annotasiya. Məqalədə valideynlərin öz övladlarını mənəvi dəyərlər əsasında tərbiyə etmələri və bu sahədə gələcək üçün güclü bir təməlin qoyulması yollarından bəhs edilir. Mənəvi inkişaf uşaqların öz həyatlarının hansı məqsəd və məna daşıdığını dərk etmələrinə şərait yaradır. Qeyd olunur ki, valideynlərin övladlarının inkişafında əsas rolu sadəcə onların ehtiyaclarını təmin etmək, onları sevgi, diqqət və qayğı ilə əhatə etməkdən ibarət olmamalıdır. Uşaqların mənəvi inkişafının təmin edilməsi üçün, eyni zamanda ailə dəyərlərinə üstünlük verilən mühitin yaradılması vacibdir. Məqalədə 3–6 yaşlı uşaqları olan valideynlərin fikirlərinə adekvat yanaşılaraq araşdırmalar aparılır.

Açar sözlər: uşaqların inkişafı, mənəvi inkişaf, valideynin rolu, valideyn nüfuzu, mənəvi dəyərlər.

http://dx.doi.org/10.29228/edu.346
Məqaləyə istinad: Əliyeva V. (2020) Uşaqların mənəvi tərbiyəsində valideynlərin rolu. «Məktəbəqədər və ibtidai təhsil», № 4 (233), səh. 89–98.
Məqalə tarixçəsi: göndərilib – 21.08.2020; qəbul edilib – 28.08.2020

Giriş/ *Introduction*

Tərbiyənin mühüm tərkib hissəsi olan mənəvi tərbiyənin təməli ailədə qoyulur. Uşaq dünyaya göz açdığı mühiti zaman keçdikcə mənimsəməyə, kəşf etməyə çalışır. Ailədə hökm sürən tərbiyə mühiti bu ailənin cəmiyyətdəki statusunu müəyyənləşdirir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri,

elmlər doktoru, professor Hicran Hüseynova yazır: «Tarixən ailə xalqımızın yüksək mənəvi dəyərlərinin qoruyucusu, genofondumuzun daşıyıcısı kimi milli inkişafımızda mühüm rol oynamışdır. Önəmlidir ki, bir sıra toplumlardan fərqli olaraq, Azərbaycan cəmiyyətində ailə institutu özünün sosial təyinatını və milli-mənəvi missiyasını daha tam və dolğun şəkildə qoruyub saxlamaqdadır».[1]

Valideyn nüfuzu uşağın mənəvi inkişafında güclü təsirə malikdir. Valideynlərin uşağın mənəvi tərbiyəsinə göstərdiyi birbaşa təsir zamanla özünü büruzə verir. Mənəvi inkişaf prosesi uşaqlarda kiçik yaşlardan təqlidetmə ilə formalaşmağa başlayır, çünki uşaq ailədə gördüyünü götürür və valideynlərinin hərəkətlərini təqlid edir. Burada belə bir deyimi xatırlaya bilərik ki, «övladını tərbiyə etmək istəyirsənsə, özündən başla». Həqiqətən də, uşaqların mənəvi zənginliyi valideynlərindən qaynaqlanır. Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev demişdir: "Xalqımızın yaşaması üçün, öz mənliyini, qürurunu qoruması üçün ailə dəyərləri, milli dəyərlər əvəzolunmaz rol oynamışdır".

Əsas hissə / *Main Part*

Ümumiyyətlə, valideynlər çalışmalıdırlar ki, onların şəxsi nümunəsi uşaq üçün örnək hesab ediləcək səviyyədə olsun, çünki onların müsbət və ya mənfi xüsusiyyətləri övladlarının xarakterində təcəssüm olunur. Ailə sağlam dayaqlar üzərində qurulursa, sağlam gələcəyin təminatı da bunun üzərində yaranır. Bir çox valideynlər səriştəsizlik və məlumatsızlıq ucbatından uşaqların mənəvi tərbiyəsində səhvlərə yol verirlər. Sağlam əqidəli vətəndaşların yetişdirilməsi, formalaşdırılması üçün valideynlərin sağlam təfəkkürə və nüfuza malik olmaları önəmlidir, çünki övladlar valideynlərinin davamçıları və onların gələcəyinin təminatçılarıdır. «Uşaq şəxsiyyətinin formalaşmasında ailənin rolu əvəzedilməzdir. Gənc nəslin tərbiyəsi ailənin başlıca funksiyalarından, valideynlərin isə ən mühüm vəzifələrindən biridir. Biz yaxşı və pis uşaqlar haqqında danışırıq. Onların hər ikisinin atası da var, anası da, lakin valideynlərin öz-özlüyündə xeyirxah arzularından asılı olmayaraq, bir evdə yaxşı, digərində isə pis uşaq böyüyür».[2]

Uşaqların mənəvi inkişafında kütləvi informasiya vasitələrinin də rolu böyükdür. Televiziya və radio verilişləri vasitəsi ilə uşaq ictimai əhəmiyyətli məsələlərlə tanış olur. Əlbəttə, müasir dövrdə televiziya verilişləri sırasında uşaqların mənəvi inkişafına mənfi təsir göstərə biləcək amillər də var. Bu baxımdan da ailədə valideynlər uşaqların maraq dairəsini müəyyənləşdirməklə bu prosesə nəzarəti gücləndirə bilərlər, məsələn, mənəvi tərbiyəyə həsr olunmuş filmlərin ailə üzvləri

[1] http://www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_may2009/78970.htm
[2] https://aztehsil.com/news/4566-uaq-xsiyytinin-formalamasnda-valideynlrin-rolu.html

ilə birlikdə izlənilməsi filmdən sonra geniş müzakirə ilə davam etdirilə bilər. Bu müzakirə zamanı uşaq filmdə gördüklərini təhlil etməyə, anlamağa çalışacaqdır.

Uşağın mənəvi tərbiyəsində hər hansı bir boşluq meydana çıxarsa, onun yerini mənfi xüsusiyyətlər doldura bilər. Ona görə də tərbiyədə bu boşluqların olmasına imkan verilməməlidir, çünki mənəvi tərbiyə məhz insani keyfiyyətlər üzərində qurulur. Valideynlər və ya qəyyumlar uşaqların mənəviyyatının əsas tərbiyəçiləridir. Uşaqları ailə dəyərlərini təbliğ edən ailə layihələri və ənənələrində iştiraka cəlb etmək lazımdır. Belə tədbirlər tez-tez təkrarlanarsa, uşaqların tərbiyəsinə, gələcək həyatına müsbət təsir göstərmiş olar.

Ailədə valideynlər və ya tərbiyəçilər uşaqlara səmimiyyət, dürüstlük, etibarlılıq, xeyirxahlıq nümunəsi göstərdikdə, uşaqlar gələcək həyatlarında xeyirxah və şəfqətli yetkinlərə çevrilirlər. Buna nail olmağın yollarını aşağıdakı kimi qruplaşdırmaq olar:

- müsbət mənəvi xüsusiyyətləri nümayiş etdirmək və uşaqlara onların əhəmiyyətini izah etmək;
- uşaqlarda özünəinam hissi yaratmaq;
- uşaqlara dini dəyərlər haqqında məlumatlar əldə etməyə şərait yaratmaq;
- müsbət davranış qaydalarını nümunə göstərmək;
- mənəvi dəyərlərin inkişafında gündəlik hadisələrdən istifadə etmək;
- çətin anlarda mənəvi inanclara söykənmək və övladlarınıza onların yanında olduğunuzu bildirmək;
- onlara hekayə və nağıllar oxumaq;
- nümunə ilə öyrətmək;
- uşaqların maraq və meyillərini nəzərə almaq (onlarla oyunlar oynamaq, ev tapşırıqlarını birlikdə yerinə yetirmək və s.).

Valideynlər və ailə üzvləri uşağı ən yaxşı tanıyan şəxslərdir. Əlbəttə, onlar uşağın ailədə davranışını, öyrənmə tərzini, maraq və ehtiyaclarını daha yaxşı bilirlər. Buna görə də valideynlərlə əməkdaşlıq tərbiyəçi-müəllimlərə uşaq haqqında ətraflı məlumat toplamağa, öyrənmə prosesini səmərəli qurmağa kömək edir.

Nağıllar, dastanlar, bayatılar, oxşamalar, sanamalar və s. şifahi xalq ədəbiyyatı nümunələrinin valideynlər tərəfindən nağıl edilməsi uşaqların mənəvi tərbiyəsi işində önəmli rol oynayır. Hər bir xalqın özünəməxsus folklor nümunələri xalqın milli ideologiyasını özündə təcəssüm etdirir. Xüsusilə uşaqlara mənəvi dəyərlər haqqında nağıl və dastanların nağıl edilməsi onlarda erkən yaşlardan mənəvi tərbiyənin formalaşmasına təsir göstərir. Valideynlər uşaqlara elə nağıllar oxumalıdırlar ki, orada müsbət qəhrəmanlarla yanaşı, mənfi obrazlar da iştirak etmiş olsun. Uşaqlar belə nümunələr vasitəsi ilə güclü, qorxmaz obrazlara pərəstişkarlıq edib, onlara bənzəmək istəyirlər. Mənfi obrazların timsalında isə uşaqlarda qorxaqlığa, namərdliyə, digər xoş olmayan xüsusiyyətlərə mənfi

münasibət formalaşacaqdır. Nağıllarda təsvir edilən mətin və şücaətli obrazlar uşaqlarda bu xüsusiyyətlərə rəğbət hissi oyadır. Uşaqlara ötürülən mənəvi tərbiyə mesajı onları nağıl qəhrəmanları vasitəsi ilə tərbiyələndirmiş olur.

Məktəbəqədər müəssisələrlə valideynlərin qarşılıqlı fəaliyyətini təşkil etmək üçün onların köməyindən daha geniş istifadə etmək lazımdır. Uşaqlarda mənəvi tərbiyəni inkişaf etdirmək məqsədi ilə onlarda bir sıra hisslər (qayğı, sevgi, dostluq və s.) inkişaf etdirilməlidir, lakin bu hissləri uşaqlar yalnız eşidərək deyil, həm də yaşayaraq hiss etməlidirlər. Uşaqlarda tərbiyə olunacaq mənəvi dəyərləri aşağıdakı kimi ümumiləşdirə bilərik:

- vətənpərvərlik hissi;
- məsuliyyət hissi;
- xeyirxahlıq hissi;
- qayğıkeşlik hissi;
- dostluq hissi;
- humanizm hissi;
- inam hissi.[3]

Bütün bu mənəvi dəyərlərin tərbiyə olunmasının yolları və vasitələri haqqında tərbiyəçi-müəllimlər valideynlərə müntəzəm məlumat verməlidirlər. Uşağın mənəvi inkişafına aydın və düzgün qiymət verilməli, onun səhvlərinə deyil, vəziyyətin müsbət tərəfə dəyişməsi üçün vasitələr axtarılmasına daha çox diqqət yetirmək lazımdır. Tərbiyəçi-müəllim söhbət zamanı peşəkar terminlərdən deyil, valideynlərə aydın olan ümumişlək sözlərdən istifadə etməlidir.

Uşaqların mənəvi dünyasının formalaşdırılmasında ədəbiyyat, heykəltəraşlıq, xalq sənəti, rəsm, musiqi və s. incəsənət sahələri mühüm rol oynayır. Məktəbəqədər yaşlı uşaqlarda bu yaradıcılıq sahələrinə maraq oyanır. Bu, həm də insan münasibətlərinin, bir növ tənzimləyicisi rolunu oynayır. Bu sahələr mənəvi tərbiyə ilə də yaxından əlaqəlidir.

Bədii və estetik tərbiyənin səmərəliliyi uşaqların birbaşa müstəqil yaradıcılıq fəaliyyətinin prinsiplərinə riayət etmələrindən asılıdır. Yaxşı ifa, milli rəqslər, çalğı alətləri, musiqi bəstələmək, şeirlər, hekayələr oxumaq, teatr tamaşaları uşaqları sənət əsərləri ilə tanış edir, onlarda ifaçılıq bacarıqları formalaşdırır, bədii inkişaf, fərdi və kollektiv yaradıcılıq, özünüifadə vasitəsinə çevrilir.

Uşaq şəxsiyyətinin təməli, əsasən, beş yaşına qədər formalaşmış olur. Təsadüfi deyil ki, bir çox pedaqoq və psixoloqlar bu yaş dövrünü uşaq həyatının «qızıl dövrü» adlandırmışlar. Uşaq şəxsiyyətində əxlaqi-mənəvi keyfiyyətlərin istər müsbət, istərsə də mənfi istiqamətdə təşəkkülü prosesi uşaq məktəbəqədər müəssisəyə cəlb edilməzdən əvvəl, məhz ailədə başlayır.

---

[3] http://www.maam.ru/detskijsad/

Valideynlərin maariflənməsində «Açıq qapı» günləri böyük əhəmiyyət kəsb edir. Belə görüşlər zamanı tərbiyəçi-müəllim çalışır ki, valideynləri uşağın tərbiyəsi və məşğuliyyətləri, inkişaf səviyyəsi haqqında tam məlumatlandırsın. Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində tərbiyəçi-müəllimlə valideynin əməkdaşlığı ən əlverişli yollardan biridir.

Tərbiyəçi-müəllimin uşağın ailəsini ziyarət etməsi məktəbəqədər müəssisə ilə ailə arasında əlaqəni gücləndirir. Tərbiyəçi-müəllim ailə ilə tanış olmağa gedərkən verəcəyi sualları əvvəlcədən müəyyən etməlidir. Görüş zamanı tərbiyəçi-müəllim uşağın müsbət keyfiyyətlərindən başlamalı, daha sonra nöqsanlarını bildirməlidir. O, uşaq üçün ayrılmış otağa baxıb, öz məsləhətlərini verməlidir. Tərbiyəçi-müəllim ailəyə gedişi ilə əlaqədar gündəlik tərtib etməli, uşağın inkişafında gedən dəyişiklikləri müntəzəm qeyd etməlidir. Uşağın fəaliyyətinin nəticələri izlənilməli və qiymətləndirilməlidir.

Məktəbəqədər müəssisədə valideynlərlə iş valideyn birlikləri vasitəsi ilə də aparılır. Bu birliklər aşağıdakılardır: valideyn komitələri, şuralar, assosiasiyalar, yardım cəmiyyətləri, komissiyalar, klublar və s. Bu birliklərdən hər birinin öz nizamnaməsi, əsasnaməsi vardır. Bu sənədlərlə onların fəaliyyətinin başlıca istiqamətləri, tərbiyə prosesinin iştirakçılarının hüquq və vəzifələri müəyyənləşdirilir. Bir çox hallarda ailə, məktəbəqədər müəssisə və ictimaiyyətin birgə fəaliyyəti üçün vahid plan tərtib olunur.

Valideyn birliklərinin başlıca vəzifələrindən biri pedaqoji bilikləri yaymaqdır. Lektoriyalar (mühazirələr), valideyn universitetləri, dəyirmi masalar, konfranslar, valideyn məktəbləri, müntəzəm fəaliyyət göstərən bir çox cari və birdəfəlik tədbir formaları bu işdə valideynlərə kömək edir. Valideynləri öz pedaqoji biliklərini artırmağa stimullaşdırmaq, ailədə uşaqların düzgün tərbiyəsinin praktik əsaslarını öyrətmək valideyn məktəblərinin başlıca məqsədi və nəticəsi olmalıdır.

Təcrübə göstərir ki, ailədə tərbiyəyə təsir göstərən müxtəlif vasitələrin – ailə kitabxanasının, qəzetlərin, musiqi alətlərinin, kompüterin və s. olması, onlardan məqsədəuyğun şəkildə istifadə edilməsi uşaqların daha gözüaçıq böyümələrinə, onların dünyagörüşünün genişlənməsinə və təlim-tərbiyə prosesində daha fəal olmalarına təsir göstərən səbəblərdəndir.

Ailədə uşaqların mənəvi tərbiyəsi prosesində önəmli məsələlərdən biri də məktəbəqədər yaşlı uşaqların asudə vaxtının təşkili problemidir. Məktəbəqədər yaşlıların asudə vaxtlarının təşkili zamanı valideynlər onlara nağıl və hekayələr oxumaq, onlarla birlikdə cizgi filmlərinə tamaşa etmək, quraşdırma və yapma ilə məşgul olmaq, təbiət qoynuna, şəhərin görməli yerlərinə ailəvi gəzintilərə çıxmaq, ailənin yaşlı üzvlərini (nənə, baba, ailənin digər yaşlı üzvləri və b.) ziyarət etmək, müxtəlif bayramlar və mərasimlərin keçirilməsinə hazırlıq prosesinə uşaqları da cəlb etmək və s. üsullardan istifadə etməlidirlər. Valideyn öz övladı üzərində müşahidə aparmalı, onda baş verən dəyişiklikləri görməyi bacarmalı və lazım

gəldikdə, müdaxilə etməlidir. Hər bir valideyn övladına xas olan fərdi xüsusiyyətləri bilməli, tərbiyə prosesini bu xüsusiyyətlərə əsaslanaraq təşkil etməlidir. Bu baxımdan uşaqlarla keçirilən asudə vaxt valideynlərin öz övladlarının xarakterik xüsusiyyətlərini daha yaxından tanımağa kömək edən əlverişli imkandır.

Ailədə uşaqların mənəvi tərbiyəsi məqsədyönlü və sistemli aparılmalı, bu zaman onların yaş və fərdi xüsusiyyətləri nəzərə alınmalıdır. Bu baxımdan valideynlərin mənəvi tərbiyə anlayışı ilə bağlı təsəvvürləri və qavrayışlarının əhatəli və geniş olması önəmlidir.

Bir çox hallarda məktəbəqədər müəssisədə, ailədə uşaqların mənəvi tərbiyəsi sahəsində qarşıya çıxan çatışmazlıqların və onların mənfi davranışlarının səbəbləri aşağıdakılar ola bilər:

- gün rejiminin olmaması;
- tərbiyəçi-müəllim və valideynlərin uşaqlara olan tələbkarlığının lazımi səviyyədə, sistemli olmaması;
- ailə üzvləri arasında uşağa olan tələblərdə vahidliyin olmaması;
- ailədə valideyn nüfuzunun olmaması;
- uşağın məcburi tamaşaçısı olduğu, ailənin digər üzvlərinin mənfi davranışları;
- valideyn və tərbiyəçi-müəllimlərin diqqətinin daim uşağın nöqsanları üzərində toplanması;
- valideyn və tərbiyəçi-müəllimlərin tərbiyə sistemini dəyişmək əvəzinə ayrı-ayrı təsir üsullarının köməyi ilə uşaqlarda olan mənfi xüsusiyyətləri aradan qaldırmağa səy göstərmələri.

Valideynin öz övladının təlim-tərbiyəsində məsuliyyət daşıması uşaqların düzgün tərbiyə olunmaları üçün əsas şərtdir. Bu məsuliyyət sayəsində uşaqların təlim-tərbiyəsi nəzarətsiz qalmır, valideynləri tərbiyəçi-müəllimdən məsləhət almağa, öz hərəkətlərini diqqətlə nəzərdən keçirməyə məcbur edir.

Gənc nəslin yetişdirilməsində təhsil müəssisələrində qarşıya qoyulan məqsədlər, təlim-tərbiyəyə dövrün tələblərinə uyğun nəzarət özünü ailədə də göstərməlidir, yəni valideynlərin uşaqların qarşısına qoyduqları tələblər, münasibətlər təhsil müəssisələrindəki tələb və münasibətlərlə vəhdət daşımalıdır. Bir sözlə – bu tələblər bir-birini tamamlamalı və onlarda vahidlik prinsipinə əməl olunmalıdır.

Ailənin uşağın təlim-tərbiyəsində rolu haqqında görkəmli rus pedaqoqu A. S. Makarenko yazırdı: «Ailənin tamlığı məsələsi çox mühüm məsələdir və buna tamamilə şüurlu yanaşmaq lazımdır. Valideynlər öz uşaqlarını ürəkdən sevirlərsə və onları mümkün qədər yaxşı tərbiyələndirmək istəyirlərsə, onlar öz qarşılıqlı ziddiyyətlərini də ayrılmaq dərəcəsinə çatdırmamağa və beləliklə, uşaqları ən çətin vəziyyətə salmamağa çalışacaqlar» [Makarenko A.S. Seçilmiş pedaqoji əsərləri, 1983].

Bəzi valideynlər övladlarını fiziki cəhətdən sağlam böyütməklə vəzifələrini bitmiş hesab edərək, təlim-tərbiyə işlərini təhsil müəssisələrinin, pedaqoqların

vəzifəsi hesab edir, özlərinin bu sahədə rolunun mühüm olmadığını düşünürlər. Belə valideynlərin nəzarətsizliyindən uşaqlar istədikləri kimi istifadə edir, təlimə məsuliyyətsiz, intizamsız yanaşırlar.

Çox vaxt valideynlər uşaqların təlim-tərbiyəsi ilə yetərincə maraqlanmamalarının səbəbini vaxt məhdudiyyəti ilə izah edirlər. Təbii ki, bu, məsuliyyətdən boyun qaçırmağın ən bəsit üsuludur. Uşaqlarının təlim-tərbiyəsi ilə məşğul olmayan valideynlər onların təlimdə geridə qalmalarının, müvəffəqiyyətsizliklərinin səbəbini özlərindən başqa hər kəsdə görürlər. Valideynlər kiçik yaşlı uşaqların yanında özlərinin, təhsil müəssisələrinin, pedaqoqların nüfuzunu daim qorumalı, onları yüksək qiymətləndirməyə çalışmalıdırlar. Bəzi valideynlər isə uşaqlarının təlim-tərbiyəsi ilə həddindən artıq maraqlanır, lakin tərbiyəçi-müəllimin hər hansı bir fikrinə, iradına lazımi diqqəti göstərmək istəmirlər.

Uşağın mənəvi tərbiyəsində yaşıdlarının da müəyyən rolunun olduğunu, digər uşaqlarla ünsiyyətin təsirinin müxtəlif aspektlərini bir çox müəlliflər qeyd edirlər.

Tədqiqatlara əsaslanaraq deyə bilərik ki, məqsədyönlü sosial davranış artıq 3– 4 yaşda yaranmağa başlayır, uşağın mənəvi tərbiyəsinə müəyyən təsir göstərir. Hətta iki yaşlı uşaqlarda belə digər uşağa qarşı maraq və oyun xarakterli qarşılıqlı təsirin ilkin formaları özünü göstərir.

Uşağın digər uşaqlarla birlikdə praktik fəaliyyətə cəlb edilməsi onun şəxsiyyətinin inkişafına, mənəvi tərbiyəsinə, digər insanlara münasibətin formalaşmasına təsir göstərir.

Kiçik məktəbəqədər yaş dövründə valideynlər tərəfindən uşağın qarşısına qoyulan tələblər onun inkişafına təsir edir. Bu, uşağın həmin tələblərə münasibətindən, onlara riayət etmək və ya onlardan boyun qaçırmaq meyilliliyindən asılıdır. Məktəbəqədər dövr ərzində uşaqda mənimsənilmiş norma və qaydalara müvafiq olaraq öz davranışını tənzimləmək bacarığı inkişaf edir, lakin həmin yaş dövründə belə tənzimləmə özünəməxsus sərhədlərə malikdir – uşaqlar hər zaman "lazım olduğu kimi" davranmırlar. Bu, xüsusilə onların emosional müsbət münasibət qura bilmədikləri insanlarla ünsiyyəti zamanı, yaxud norma və qaydalara riayət etmək məcburiyyəti onların şəxsi maraq və istəklərinə zidd olduğu halda baş verir.

Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinə əməkdaşlığın təsiri məsələləri, bir sıra pedaqoji yeniliklərin təhlili və tətbiqi magistr dissertasiyaları səviyyəsində tədqiq olunur.

Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinə müasir yanaşmaların tətbiqi, baş verən yeniliklərdən istifadə etməklə uşaqların təlim və tərbiyəsində səmərəliliyi artırmaq məqsədilə müxtəlif fəaliyyət növlərində proqramların kompleks tətbiqinin təhsilləndirici imkanlarını müəyyənləşdirməkdən ibarətdir.

Məktəbəqədər dövrdən başlayaraq məşğələlər, ünsiyyət, bədii ədəbiyyatla tanışlıq, bağça yaşlı uşaqların sosial inkişafı və mənəvi tərbiyəsində müasir

yanaşmalardan istifadə edilərsə, hərtərəfli inkişaf etmiş insan yetişdirmək sahəsində düzgün istiqamət verilərsə, onların mənəvi tərbiyəsi və sosiallaşması üçün möhkəm bünövrə yaradılar.

Nəticə / *Conclusion*

Beləliklə, deyilənlərdən bu nəticəyə gəlirik ki, uşaqların mənəvi tərbiyəsində valideynlərin rolu böyükdür və mənəvi tərbiyənin təməli ailədə qoyulur. Valideynin öz övladının təlim-tərbiyəsində məsuliyyət daşıması uşaqların düzgün tərbiyə olunmaları üçün əsas şərtlərdən biridir. Tərbiyəçi-müəllimlər mənəvi tərbiyənin əsasını təşkil edən dəyərlərin tərbiyə olunmasının yolları və vasitələri haqqında valideynlərə məlumat verməli, bu işdə valideyn birliklərinin, dəyirmi masaların, konfransların, valideyn məktəblərinin imkanlarından istifadə etməlidirlər.

Təhsil müəssisələrində qarşıya qoyulan məqsədlər, təlim-tərbiyəyə dövrün tələblərinə uyğun nəzarət özünü ailədə də göstərməlidir. Valideynlərin uşaqların qarşısında qoyduqları tələblər təhsil müəssisələrindəki tələblərlə vəhdət daşımalıdır. Bu tələblər bir-birini tamamlamalı və onlarda vahidlik prinsipinə əməl olunmalıdır.

Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinə valideyn–tərbiyəçi-müəllim, valideyn–məktəbəqədər müəssisə əməkdaşlığının da böyük təsiri vardır.

Aparılan araşdırmalara əsasən, bu nəticəyə gəlirik ki, gənc nəslin tərbiyə olunmasında təhsil müəssisələrində qarşıya qoyulan məqsədlər, təlim-tərbiyəyə müasir dövrün tələblərinə uyğun nəzarət özünü ailədə də göstərməlidir, yəni valideynlərin uşaqların qarşısına qoyduqları tələblər, onların arasındakı münasibətlər təhsil müəssisələrindəki tələb və münasibətlərlə vəhdət təşkil etməlidir.

Ədəbiyyat / *Reference*

1. Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları. (2020). (Azərbaycan Respublikası NK-nin 2020-ci il, 29 sentyabr tarixli, 361 nömrəli Qərarı). Bakı, 23 s.
2. Ağayev Ə.Ə., Rzayev Y.T., Hüseynova T.M., Vahabova T.Ə. (2008). Sosial pedaqogika. Bakı: ADPU-nun nəşriyyatı, 177 s.
3. Dünyamalıyeva V. Uşaq şəxsiyyətinin formalaşmasında valideynlərin rolu.

https //aztəhsil.com/

4. Əlizadə H.Ə. (1993). Tərbiyənin demoqrafik problemləri. Bakı: "Maarif", 232 s.
5. Əliyeva Ş.Q. (2010). Məktəbəqədər pedaqogika. Bakı, 173 s.
6. Hüseynova H. Ailə milli-mənəvi dəyərlərin daşıyıcısıdır. www.anl.az saytı
7. Makarenko A.S. (1983). Seçilmiş pedaqoji əsərləri. I cild. Bakı: "Maarif", 384 s.
8. Məktəbəqədər təhsilin dövlət standartı və proqramı. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il, 16 iyul tarixli, 137 nömrəli qərarı ilə təsdiq edilmişdir.

9. Boyatzis C.J. (2003). Religious and spiritual development [Special issue]. Review of Religious Research. p. 443.
10. Boyatzis C.J. (2005). Children's religious and spiritual development. New York, NY: Guilford Press. p. 123-143.
11. http://www.maam.ru/detskijsad/
12. https://blogs.bible.org/encourage-spiritual-growth-ten-things-parents-should-know/

Educational history

Azerbaijani pedagogical press on the level of history and modernity

Farrukh Rustamov
Dean of the Faculty of Primary Education of the Azerbaijan State Pedagogical University, doctor of pedagogical sciences, professor.
E-mail: farrukhrustamov@gmail.com
https://orcid.org/0000-0003-2033-1678

Abstract. The article talks about the Azerbaijani pedagogical press and its history. It is noted that as ideology changes, so does society. The new ideology requires fundamental changes in the content of education, the creation of new schools, the formation of new pedagogical ideas. Ideas aimed at the development of education, the results of scientific research are reflected in the pages of the pedagogical press. So, the place where pedagogical theory and practice meet is the pedagogical press. The article also considers the development directions of pedagogical media in Azerbaijan, the direction, teaching and enlightenment activities of "Azerbaijan School" magazine, "Azerbaijan Muallimi" newspaper, which has been a companion of our education for many years in the implementation of reforms in the field of education, research of problems, study of advanced world and national pedagogical experience justified.

Keywords: "Azerbaijan School" magazine, "Azerbaijan teacher" newspaper, pedagogical press, pedagogical journalism, national press.

http://dx.doi.org/10.29228/edu.350
To cite this article: Rustamov F. (2020) Azerbaijani pedagogical press on the level of history and modernity. *Journal of Preschool and Primary Education,* V. 233, Issue IV, pp. 99–114.
Article history: Received – 12.11.2020; Accepted – 19.11.2020

Təhsil tariximizdən

Azərbaycan pedaqoji mətbuatı tarixilik və müasirlik müstəvisində

Fərrux Rüstəmov
Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin dekanı, pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar elm xadimi.
E-mail: farrukhrustamov@gmail.com | https://orcid.org/0000-0003-2033-1678

Annotasiya. Məqalədə Azərbaycan pedaqoji mətbuatı, onun tarixi haqqında söhbət gedir. Qeyd olunur ki, ideologiya dəyişdikcə cəmiyyət də dəyişir. Yeni ideologiya təhsilin məzmununda əsaslı dəyişikliklərin aparılmasını, yeni məktəblərin yaradılmasını, yeni pedaqoji ideyaların formalaşdırılmasını tələb edir. Təhsilin inkişafına yönəlmiş ideyalar, elmi tədqiqatların nəticələri məhz pedaqoji mətbuatın səhifələrində öz əksini tapır. Həmçinin məqalədə Azərbaycanda pedaqoji mətbuat orqanlarının inkişaf istiqamətləri araşdırılmış, Azərbaycanda təhsil sahəsində islahatların aparılmasında, problemlərin tədqiq olunmasında, qabaqcıl milli və dünya pedaqoji təcrübəsinin öyrənilməsində təhsilimizin uzun illər yol yoldaşı olan "Azərbaycan məktəbi" jurnalının, "Azərbaycan müəllimi" qəzetinin istiqamətverici, öyrədici, maarifləndirici fəaliyyəti işıqlandırılmışdır.

Açar sözlər: "Azərbaycan məktəbi" jurnalı, "Azərbaycan müəllimi" qəzeti, pedaqoji mətbuat, pedaqoji jurnalistika, milli mətbuat.

http://dx.doi.org/10.29228/edu.350
Məqaləyə istinad: Rüstəmov F. (2020) Azərbaycan pedaqoji mətbuatı tarixilik və müasirlik müstəvisində. «Məktəbəqədər və ibtidai təhsil», № 4 (233), səh. 99–114.
Məqalə tarixçəsi: göndərilib – 12.11.2020; qəbul edilib – 19.11.2020

Giriş / *Introduction*

Dünya ideyalar bazarında ən az tapılan xammal məhz pedaqoji ideyadır. Yeni pedaqoji ideyalar nəzəri-eksperimental axtarışlar və təcrübələr nəticəsində yaranır. Təhsilin inkişafına yönəlmiş bir çox ideyalar, elmi tədqiqatların nəticələri, elmi

və metodik yeniliklər, ilk növbədə, pedaqoji mətbuat səhifələrindən təcrübəyə gəlir, həyata vəsiqə alır. Deməli, pedaqoji nəzəriyyə ilə pedaqoji təcrübənin qovuşduğu məkan pedaqoji mətbuatdır. Sanballı tarixə və zəngin ənənələrə malik Azərbaycan pedaqoji mətbuatı təhsil sistemimizin salnaməsi olmaqla bərabər, həmçinin ölkədə təhsil quruculuğunun gedişini, təhsil ocaqlarının fəaliyyətini işıqlandırmaqda mühüm rol oynamaqla, təhsil müəssisələrinə elmi-metodiki və informasiya xidməti göstərməklə yanaşı, çox vacib olan istiqamətverici, öyrədici, maarifləndirici funksiyaları həyata keçirir. Görkəmli şəxsiyyətlər tərəfindən "pedaqoji irsimizin güzgüsü" (H. Əhmədov), "pedaqoji fikrimizin salnaməsi" (N. Kazımov), "pedaqoji biliklər xəzinəsi" (Z. Qaralov), "xalq maarifinin salnaməsi" (Z. Əliyeva), "maarif işçilərinin yaxın məsləhətçisi" (İ. Hacıyev), "pedaqoji biliklər carçısı", (M. Bayraməlibəyova), "Azərbaycan maarifinin əvəzsiz təbliğatçısı" (Q. Məmmədov), "idrak və ədəb çırağı" (M. İbrahimov) kimi səciyyələndirilən pedaqoji mətbuatımız ölkəmizdə xalq maarifinin inkişafında, pedaqoji və psixoloji elmlərin təşəkkülündə, inkişafında müstəsna rolu ilə seçilir. Yeni pedaqoji ideya və fikirlər mətbuat səhifələrində yayımlanmaqla bir az da cilalanıb dolğunlaşır, bitkin ideya və konsepsiyalara çevrilərək, təhsilin ayrı-ayrı sahələrinin inkişafına, məktəb quruculuğuna və böyüməkdə olan nəslin əqli, əxlaqi, etik, estetik, fiziki və ruhi inkişafına istiqamət verir. Müxtəlif pedaqoji təmayüllü jurnal və qəzetlərdə, elmi-pedaqoji məcmuələrdə əks olunan pedaqoji ideyalar pedaqogika elminin zənginləşməsinə xidmət edir.

"Azərbaycan müəllimi" qəzeti yada düşür. İnkaredilməz həqiqətdir ki, "rus yazarları Qoqolun "Şinel"indən, Azərbaycan yazarları C. Məmmədquluzadənin "Poçt qutusu"ndan çıxdığı kimi, azərbaycanlı pedaqoq, psixoloq və metodistlər də "Azərbaycan məktəbi" jurnalının və "Azərbaycan müəllimi" qəzetinin "cildləri" arasından çıxmışlar" [Əhmədov H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi, 2014]. Pedaqoq və psixoloqların milli intellektual potensialının formalaşmasına, böyüməkdə olan nəslin təhsil-tərbiyəsinə, pedaqoji və elmi-pedaqoji kadr hazırlığına, pedaqoji nəzəriyyələrin inkişafına xidmət edən qələmləri məhz burada püxtələşmiş, nəşr edilən hər bir yazı onlara elmi nüfuz qazandıraraq, onları şöhrətin uca zirvəsinə yüksəltmişdir.

Əsas hissə / *Main Part*

"Əkinçi"də səpilən "bir ovuc maarif buğdası"...

Həsən bəy Zərdabi "Əkinçi" qəzetində maarifçilik "toxumları" səpməklə yeni tipli təhsil müəssisələrinin yaradılması, təhsilin məzmununun milliləşdirilməsi, təlimin ana dilində aparılması, müəllim kadrlarının və milli dərsliklərin hazırlanması uğrunda mübarizənin əsas istiqamətlərini müəyyənləşdirdi və milli özünüdərkin gerçəkləşməsi üçün zəmin hazırladı. H. Zərdabinin ideyaları irticanın sərt

tələblərinə qalib gəldi, səpdiyi toxumlardan "Ziya" ("Ziyayi-Qafqaziyyə"), "Kəşkül", "Şərqi-Rus", "Kaspi", "Həyat", "İrşad", "Füyuzat", "Molla Nəsrəddin", "Dəbistan", "İqbal", "Açıq söz" qəzet və jurnalları "cücərdi". Həmin mətbuat orqanlarında təbliğ olunan ideyalar sayəsində milli dirçəliş, siyasi müstəqillik və dövlətçilik ideyaları formalaşdı və inkişaf etdi. Pedaqoji mühitdə Avropa meyarlarının tətbiqinə başlandı. Milli özünüdərk prosesi gücləndi, milli mənlik şüurunda oyanma baş verdi. Azərbaycan müəllimləri xalqa sadəcə əlifba öyrətməklə kifayətlənmir, onlara milli-mənəvi dirçəliş, fəallıq, ictimai inkişaf, həmrəylik, hüquq, əxlaq, milli qurtuluş, azadlıq və mübarizə ideyalarını təbliğ edirdilər. Maarifləndirmə hərəkatı da, milli dirçəliş hərəkatının tərkib hissəsi kimi, məhz həmin dövrdə geniş intişar tapdı.

Pedaqoji səciyyəli mətbuat uğrunda mübarizə

XX əsrin əvvəllərində ana dilində pedaqoji səciyyəli mətbuat uğrunda mübarizə Azərbaycan maarifpərvərlərinin fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edirdi. Millətin maarifə olan ehtiyacını pedaqoji mətbuatın köməyi olmadan ödəmək mümkün deyildi. Bu səbəbdən də maarifçilərimiz "Fikir" (A. O. Çernyayevski), "Cəmi-mərifət" (S. M. Qənizadə), "Təzə xəbər" (N. Nərimanov), "Novruz" (C. Məmmədquluzadə), "Sovqat" (S. M. Qənizadə, N. Nərimanov), "Nübar" (S. M. Qənizadə, H. Mahmudbəyov), "Çıraq" (S. Qənizadə), "Məktəb" (N. Nərimanov) adlı pedaqoji məzmunlu qəzet və jurnallar nəşr etdirmək məqsədilə dəfələrlə Qafqaz Mətbuat Komitəsinə müraciət edirdilər, ancaq onların müraciətləri hər dəfə müxtəlif bəhanələrlə rədd edilirdi.

İlk pedaqoji jurnallarımız

Bakıda nəşr edilən ***"Rəhbər"*** (1906 – 1907) adlı ilk pedaqoji jurnalın ömrü çox az oldu. Jurnalın cəmi 5 nömrəsi çıxdı. Jurnalın naşiri və redaktoru Mahmud bəy Mahmudbəyov idi. "Rəhbər" jurnalında təlim-tərbiyəyə, ictimai problemlərə dair məqalələr, Azərbaycan, rus və dünya ədəbiyyatından nümunələr dərc olunurdu. Jurnalda F. Köçərli, M. Ə. Sabir, A. Səhhət, R. Əfəndizadə, S. M. Qənizadə və b. müəlliflərin pedaqoji məzmunlu məqalələri nəşr olunurdu.

"Dəbistan" jurnalının (1906 –1907) da ömrü az oldu. Onun naşiri və redaktoru Əlisgəndər Cəfərzadə idi. Jurnalda N. Nərimanov, H. Zərdabi, M. Ə. Sabir, M. Hadi, A. Şaiq, S. M. Qənizadə və dövrün digər tanınmış ziyalılarının uşaqların təlim-tərbiyəsinə dair pedaqoji və bədii əsərləri, elmi-texniki yeniliklərlə bağlı materiallar dərc edilirdi. Hər iki jurnal demokratik, pedaqoji ideyaların təbliğatçısı olub, elmi bilikləri təbliğ edirdi.

Pedaqoji, ədəbi-bədii, demokratik istiqamətli ***"Məktəb"*** (1911–1920) jurnalı Bakıda, iki həftədə bir dəfə nəşr olunurdu. Jurnalın ilk nömrəsi 1911-ci il, noyabrın 29-da, sonuncusu 1920-ci il martın 21-də (cəmi 95 nömrə) çıxdı. 1-ci

nömrədə N. Nərimanovun uşaqlara "Əziz balalar!" başlığı altında müraciəti verilmişdi. "Məktəb" jurnalı pedaqoji biliklərin təbliğində, elmə, maarifə həvəsin artmasında, uşaqlarda müsbət əxlaqi keyfiyyətlərin tərbiyə edilməsində böyük və müsbət rol oynamışdır. Jurnalın redaktorları Qafur Rəşad (həm də naşiri) və Ə. Əfəndizadə olmuşlar. "Məktəb"də S. S. Axundov, Ü. Hacıbəyov, A. Şaiq, A. Səhhət, C. Cabbarlı və başqalarının pedaqoji məzmunlu yazıları ilə bərabər, rus klassiklərindən tərcümələr də nəşr edilirdi.

"Xalq maarifi" jurnalı

Azərbaycanda elmi-pedaqoji mətbuat orqanları XX əsrin 20-ci illərində yarandı. Həmin dövrdə yeni məzmunlu məktəb təhsilinin təşkili, onun təlim üsulları və digər maarif problemləri üzrə ciddi tədbirlər həyata keçirilməyə başlandı. Məktəblərdə təlim-tərbiyə işinin təşkilinə rəhbərlik etmək, müəllimləri, tərbiyəçiləri yeni pedaqoji metodlarla tanış etmək, məktəb haqqında rəsmi dövlət sənədlərini (qərar və göstərişləri, təlimatları, məktubları və s.) müəllimlərə çatdırmaq üçün pedaqoji mətbuatın yaradılması zərurəti yarandı. Xalq Maarifi Komissarlığı bütün çətinliklərə (kağız qıtlığı, mürəttib və jurnalist kadrlarının olmaması və s.) baxmayaraq, pedaqoji xarakterli mətbuat orqanlarının yaradılması təşəbbüsünü reallaşdırdı.

1920-ci ilin oktyabrında "Xalq maarifi" jurnalının ilk və son nömrəsi nəşr olundu. Azərbaycan xalq maarifi komissarı D. Bünyadzadənin "Maarifə dəvət" adlı baş məqaləsi ilə açılan jurnalda M. S. Ordubadinin ("Şura hökumətinin maarif siyasəti"), F. Ağazadənin ("Tərbiyənin tarixçəsi"), A. Rağibin ("Mübarizə"), Q. Rəşadın ("Əlifbamızı sadələşdirəlim"), A. İsrafilbəylinin ("Zəif uşaqlar məktəbləri"), H. Camalovun ("Uşaq bağçaları") məqalələri verilmişdi.

"Maarif və mədəniyyət" jurnalı

1923-cü ilin yanvarında yazıçı Tağı Şahbazinin redaktorluğu ilə nəşrə başlayan "Maarif və mədəniyyət" jurnalı pedaqoji mətbuatda canlanmaya səbəb oldu. Jurnal 1923–1927-ci illərdə Azərbaycan XMK-nın orqanı kimi nəşr edilirdi. Həmin illərdə jurnalın redaktoru Xalq maarifi komissarının müavini Cəlil Məmmədzadə olmuşdur [Rüstəmov F. Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları, 2020].

Jurnalda çap olunmuş "Zəhmət məktəbi haqqında", "İbtidai təlim", "Orta təlim", "İbtidai məktəbin vəzifələri", "Pedaqogika və psixologiya", "İnqilabi pedaqogikanın yol və məqsədləri", "Pestalotsi və müəllimlik", "Bağça – uşaqlar üçün tərbiyə evidir", "Kənd məktəblərində bədən tərbiyəsi", "Tərbiyə və tədris haqqında", "Köhnə və yeni sistem", "Məsai dərsləri", "Aktiv məsai dərsləri üsulu və məktəblərimiz" və s. məqalələr həmin dövrdə jurnalın məhz pedaqoji təmayüllü olmasına dəlalət edir. 1928-ci ilin yanvar ayından "Maarif və

mədəniyyət" jurnalının adı dəyişdirilərək, "İnqilab və mədəniyyət" adlandırıldı və Azərbaycan Yazıçılar Cəmiyyətinin orqanına çevrildi ["Xalq maarifi" jurnalı. Bakı, 1920, №1].

"Məktəb məcmuəsi"

1925-ci ildə nəşrə başlayan "Məktəb məcmuəsi"nin birinci səhifəsindəki "İdarədən" qeydindən məlum olur ki, o, nəşrini dayandırmış "Məktəb" jurnalının davamçısıdır. Jurnalın fəal müxbirlərinin cərgəsində 1911–1920-ci illərdə Bakıda nəşr olunan "Məktəb"jurnalının redaktorunun adının görünməsi də bunu təsdiq edir. Jurnalın əsas əməkdaşları Şarif Manatov (redaktor), Abdulla Şaiq, Xəlil Fikrət, İsmayıl Hikmət, Kərim İsmayılzadə, Məhəmməd Kərimzadə olmuşlar. Jurnalın son səhifəsində oxuculara ünvanlanmış müraciətdə deyilir: "Jurnal hər on beş gündə bir dəfə, müntəzəm surətdə çıxacaqdır. Məcmuədə ən dəyərli və bilikli müəllimlər ədəbi-elmi yazılarla iştirak edəcəklər. Həvəskar məktəblilərin də yazıları məcmuəmizdə məmnuniyyətlə dərc ediləcəkdir. Məcmuəmiz məktəblilərin olduğu üçün onu bütün məktəblilər almalı və yazı yazmalıdırlar". Təəssüf ki, "Məktəb məcmuəsi"nin ikinci nömrəsi işıq üzü görmədi. Pedaqoji İnstitutun direktoru vəzifəsində çalışan Şarif Manatovun Bakıdan getməsi ilə jurnal öz fəaliyyətini dayandırır.

"Azərbaycan məktəbi"nin sələfi – "Yeni məktəb"

Bütün məzmunu və mündəricəsi ilə tam pedaqoji mahiyyət daşıyan elmi-pedaqoji, metodik jurnal "Yeni məktəb" olmuşdur. Jurnalın ilk sayı 1924-cü ilin aprel ayında nəşr edilmişdir. Jurnal Azərbaycan XMK-nın elmi-metodik şurasının aylıq orqanı idi. Bu şura məktəblərə elmi-metodik rəhbərlik etməli, tədris proqramları və planları hazırlamalı, tədris kitablarının, metodik rəhbərliklərin nəşri ilə məşğul olmalı idi. Jurnal pedaqoji, psixoloji, tərbiyə tarixi, tədris üsulları, metodoloji didaktika, fəlsəfə, ictimaiyyat, bədiiyyat, sənət və s. elmləri müəllimin ixtisası dairəsində tədqiq və təbliğ etməli, qabaqcıl təcrübəni yaymalı idi. "Yeni məktəb" jurnalının məsul redaktoru Mustafa Quliyev böyük inamla bildirirdi ki, jurnal hər bir pedaqoqun yaxın köməkçisi, bütün maarif ocaqlarını, texnikum və nümunə məktəblərini ruhən birləşdirən mərkəzi orqan olacaq və müəllim heyətinin yenilənməsi ilə maarif ocaqlarının əsas məsələsi – zəhmət məktəbi təşkilatının həqiqətən vücuda gətirilməsinə rəhbərlik edəcəkdir. "Yeni məktəb" jurnalı "Maarif və mədəniyyət" məcmuəsinin bir sahəsinin – elmi-pedaqoji sahəsinin davamçısı idi. Jurnalın 1925-ci ildə nəşr olunan 1-ci nömrəsində verilmiş yazıda oxuyuruq: "Azərbaycanda müəllimlərə xidmət üçün xüsusi pedaqoji mətbuat ("Yeni məktəb" və "Путъ шкοлы") bulunduğundan, "Maarif və mədəniyyət" məcmuəsində pedaqoji məqalələr dərc etmək daha əlverişli olmadığı üçün təlim və tərbiyə qisminin qaldırılmasına qərar verildi", yəni

jurnalın "Təlim və tərbiyə" şöbəsi ləğv edildi, ancaq nədənsə uzun müddət "Azərbaycan məktəbi" jurnalının sələfi kimi "Maarif işçisi" jurnalı göstərilmişdir.

Azərbaycanda pedaqogika elminin inkişafına, sovet məktəbində təlim-tərbiyə işlərinin yenidən qurulmasına müəyyən xidmətlər göstərmiş "Maarif işçisi" jurnalı (1925–1929) "Yeni məktəb" jurnalı ilə eyni vaxtda, paralel nəşr edilirdi. Bu jurnal Maarif İşçiləri Həmkarlar İttifaqının orqanı idi. 1925–1929-cu illərdə nəşr edilən jurnalın 42 nömrəsi işıq üzü gördü. Jurnalın redaktoru tanınmış maarif xadimi Pənah Qasımov idi [Rüstəmov F. Azərbaycanda pedaqogika elminin inkişafında pedaqoji mətbuatın rolu, 1998]. Jurnal pedaqogika, məktəbşünaslıq, metodika və məktəb həyatının işıqlandırılmasında, maarif işçilərinin ictimai-siyasi biliklərə yiyələnmələrində mühüm rol oynamışdır.

1924-cü ildən Azərbaycan XMK-nın rəsmi bülleteni də nəşr olunmağa başladı ki, burada məktəb və maarifə dair rəsmi sənədlərlə yanaşı, məktəbdə təlim-tərbiyə işinin təşkilinə istiqamət verən təlimati məktublar da dərc olunurdu.

Azərbaycanda mədəni inqilabın həyata keçirilməsi, savadsızlığın ləğvi, şagird özünüidarə təşkilatlarının yaradılması, müəllimlərin ideya-siyasi səviyyəsinin yüksəldilməsi, təhsilin məzmununun və təlim metodlarının təkmilləşdirilməsi, şagirdlərin ictimai-siyasi tərbiyəsinin təşkili həmin dövrdə nəşr edilən pedaqoji mətbuat orqanlarının əsas missiyası idi.

Pedaqoji mətbuat 30-cu illərdə

Keçən əsrin 30-cu illəri ictimai-siyasi vəziyyətin kəskin dəyişməsi, məktəb təhsilinə yeni tələblərin verilməsi, ümumi icbari təhsilin həyata keçirilməsi və digər pedaqoji problemlərlə səciyyəvidir. Bu dövr pedaqoji mətbuatın inkişafında, onun mündəricəsinin genişlənməsi, təsir dairəsinin artması, tərbiyə nəzəriyyəsi ilə məktəb təcrübəsinin yaradıcı surətdə əlaqələndirilməsi, ictimai inkişafdan doğan yeni problemlərin nəzəri cəhətdən işlənməsi və əməli cəhətdən tətbiq olunmasında, müəllimlərin elmi-pedaqoji səviyyəsinin yüksəlməsində xüsusi bir mərhələdir. Təhsilin nəzəri, praktik və metodik istiqamətlərini araşdıran elmi-tədqiqat, tədris-pedaqoji müəssisələrinin yaradılması, elmi-pedaqoji əlaqələrin genişlənməsi, yüksək ixtisaslı, milli pedaqoji kadrların ilk dəstəsinin formalaşması pedaqoji mətbuatın inkişafına güclü təsir göstərdi. Pedaqoji mətbuatda pedaqoji elmlərin inkişafında mühüm əhəmiyyət kəsb edən nəzəri və praktik problemlərin araşdırılması aparıcı amil kimi ön plana çəkildi. 30-cu illərdə başlayan repressiya dalğası, ifşa iclasları, "izhari-nifrət" mitinqləri pedaqoji mətbuatdan da yan keçmədi. Ayrı-ayrı vaxtlarda pedaqoji jurnallara rəhbərlik etmiş Mustafa Quliyev, Mikayıl Rəhimli, Tağı Şahbazi, Şarif Manatov və başqaları repressiya maşınının təzyiqindən yaxa qurtara bilmədilər, cismən məhv edildilər. Pedaqoji mətbuatın fəal yazarları Xəlil Fikrət, Nazim Hikmət, Mühiddin Birgen, İsmayıl Hikmət pantürkist, panislamist, kamalizm ideyalarının, A. O. Makovelski, B. B. Komarovski,

Ə. Seyidov, Ə. Zəkuzadə isə marksizm-leninizm əvəzinə C. Dyui və Hegel ideyalarının təbliğatçıları kimi kəskin tənqid olundular. Onların hər birini "izahat" məktubları yazmağa vadar etdilər.

Bu dövrün pedaqoji problemləri "Müəllimə kömək" jurnalında ("Yeni məktəb" jurnalı 1930-cu ilin noyabrından 1941-ci ilin noyabrına qədər "Müəllimə kömək" adı altında çıxmışdır. 1933-cü ildə və 1941-ci ilin aprelindən 1943-cü ilin aprelinədək nəşr edilməmişdir), "Kommunist tərbiyəsi uğrunda" adlı elmi-pedaqoji jurnalda elmi diskussiyaların hədəfinə çevrilirdi. 1938-ci ilə kimi "Müəllimə kömək" jurnalı sırf metodik xarakter daşımış, onun səhifələrində ayrı-ayrı fənlərin tədrisi metodikası ilə bağlı yazılar geniş yer tutmuşdur. Jurnalın 1930-cu ildə nəşr olunan birinci nömrəsində, baş məqalədə yazılırdı: "Məcmuənin məqsədi, bir tərəfdən məktəblərdə qoyulan birinci dərəcəli ümumi və metodik məsələləri aydınlaşdırmaq, digər tərəfdən yeni proqramlarda verilən materialları mövzular üzrə qruplaşdıraraq ayrıca təhlil edib, məktəbdə tətbiq ediləcək şəkildə müəllimlərə verməkdir. Məcmuənin məqsədi müəllimə praktik kömək olduğundan bir çox praktik məsələlər: təbiiyyat təcrübələri, zəhmət vərdişləri, kənd təsərrüfatında işləmək üsulları, əllə vəsait hazırlama və qeyri-rəhbərlik məsələləri də lazımi yer tutacaqdır" ["Müəllimə kömək" jurnalı, 1930, № 1]. Pedaqoji mətbuatda aparılan diskussiyalar ikinci dərəcəli məsələlər ətrafında deyil, pedaqogikanın metodoloji məsələləri, pedaqogika – siyasət, pedaqogika – fəlsəfə problemləri ətrafında gedirdi. "Müəllimə kömək" jurnalı pedaqoji kollektivlər üçün qızıl fond hesab olunan qabaqcıl təcrübənin ümumiləşdirilməsi, qabaqcıl iş təcrübəsinin geniş yayılması və metodiki xarakterli məqalələrin verilməsində fəaliyyətini genişləndirdiyi halda, "Kommunist tərbiyəsi uğrunda" məcmuəsi daha çox pedaqogikanın elmi-nəzəri problemlərinin şərhinə girişir, pedaqoji cərəyanların mahiyyətinin açılmasına çalışırdı. Məcmuənin ayda bir dəfə nəşr olunması nəzərdə tutulmuşdu. Azərbaycan XMK-nın tədris-metodiki şöbəsinin orqanı olan məcmuənin ilk nömrəsi 1930-cu ilin noyabr-dekabr (№1–2) aylarında nəşr olundu. Məcmuənin ilk nömrəsində "Yeni məcmuə haqqında bir neçə söz" adlı baş məqalədə onun məqsəd və məramı açıqlanmış, pedaqoji ədəbiyyatda yaranan bu təbəddülat olduqca əhəmiyyətli hadisə hesab olunmuş, qarşıya qoyulmuş problemin həlli çox məsuliyyətli və mürəkkəb vəzifə kimi səciyyələndirilmişdi. Jurnalda verilən məlumata görə, bu mətbu orqan "Yeni məktəb" jurnalının davamı kimi nəzərdə tutulmuşdu. Baş məqalədə "Yeni məktəb" jurnalının adının dəyişdirilərək "Kommunist tərbiyəsi uğrunda" adlandırılmasının səbəbi aşağıdakı kimi əsaslandırılmışdı: "Məcmuə 1924-cü ildə "Yeni məktəb" adı ilə ortaya çıxdı. İndiyə qədər bu adı daşımışdır. Diqqət edilsə, daşıdığı ad ilə jurnalın mündəricatı hələ o zamandan uyğunlaşmırdı. Həmin ildən, pedaqojinin obyekti artıq uşaq deyil, bütün kütlə olmağa başladı. Sonralar isə məktəbəqədər və məktəb xaricində tərbiyə də təhsil şurası pedaqojisinə daxil oldu. "Yeni məktəb" adı isə bu geniş məsələlər sahəsini

zorla dörd divar arasına sıxışdırmaq demək idi. Həmin ad dardır. Yeni pedaqoji məqsəd və mündəricatı qavrayan isə "Kommunist tərbiyəsi uğrunda" adıdır ["Kommunist tərbiyəsi uğrunda" jurnalı. 1930, №1–2].

Diqqəti cəlb edən cəhət "Kommunist tərbiyəsi uğrunda" elmi-pedaqoji məcmuəsi ilə paralel olaraq "Yeni məktəb" jurnalının davamı kimi "Müəllimə kömək" jurnalının da nəşr olunmasıdır. Hər iki jurnal 1930–1932, 1934-cü illərdə paralel olaraq nəşr edilmişdir. Təəssüf doğuran cəhət isə, mətbuat tariximizi araşdıranların heç birinin öz tədqiqatlarında bu jurnalın fəaliyyətini işıqlandırmamasıdır. Halbuki, jurnalı cəsarətlə "dövrünün pedaqoji ensiklopediyası" və ya "pedaqogika dərsliyi" adlandıra bilərik. Jurnalın 30-cu illərin əvvəllərində pedaqogikanın nəzəri-metodoloji və tarixi problemlərinin araşdırılması, müəyyən elmi-nəzəri fikirlərin formalaşdırılması, elmi həqiqətlərin aşkarlanması, ümumi icbari təhsilin həyata keçirilməsi, pedaqoji fikrin inkişafı, dünya pedaqoqlarının pedaqoji irsinin azərbaycanlı oxuculara çatdırılması, təlimin həyatla, əməklə əlaqələndirilməsi, şagirdlərin hərbi vətənpərvərlik, vətənə sədaqət, ictimai fəallıq tərbiyəsinə aid nəşr etdiyi praktik əhəmiyyətli məqalələr müəllimlərin şəxsi təhsillərinin artırılmasında, peşəkar fəaliyyətlərinin səmərəli və düzgün istiqamətləndirilməsində mühüm rol oynadı.

Məcmuədə dövrün aparıcı pedaqoq-alimləri A.O. Makovelski, B.B. Komarovski, M. Rəhimli, Ə. Hacızadə, N. M. Maqarik, S. Hacıyev, S. Xəlilov, V. Mustafayev, Ə. Hüseynov, Ə. Qasımzadə və b. daha çox sovet məktəbinin məqsəd və vəzifələri, politexnizmin mahiyyəti, pedaqoji cərəyanların təsnifatı, pedaqogika və siyasət, pedaqogika və fəlsəfə, xarici ölkələrdə məktəb və pedaqoji fikir, böyüməkdə olan nəslin tərbiyəsi, qabaqcıl pedaqoji təcrübənin öyrənilməsi, məktəbşünaslıq, məktəbin iş metodları və digər problemlərlə bağlı məqalələrlə çıxış etmişlər.

XX əsrin 20-ci illərinin ikinci yarısı və 30-cu illərin əvvəllərində pedaqogika elminin nüfuzunun zəifləməsi, elmi-tədqiqat işlərində əlaqələndirmənin olmaması yetişməkdə olan gənc nəslin təlim-tərbiyə işinə böyük ziyan vururdu. Belə bir çətin dövrdə də pedaqoji mətbuat öz təhsilləndirici və istiqamətləndirici funksiyalarını məsuliyyətlə həyata keçirməyə çalışır, müəllimləri pedaqoji nəzəriyyələrin və təcrübənin ən son yenilikləri ilə tanış edirdi.

Təhsilimizin güzgüsü – "Azərbaycan müəllimi"

Azərbaycanda pedaqoji mətbuatın və pedaqoji jurnalistikanın inkişafında "Azərbaycan müəllimi" qəzetinin müstəsna xidmətləri vardır. "Azərbaycan müəllimi" qəzetinin nəşri respublikamızda xalq maarifinin inkişaf tarixi ilə qırılmaz surətdə bağlıdır. XX əsrin 30-cu illərində nəşr olunmağa başlayan qəzet ildən-ilə öz fəaliyyətini genişləndirmiş, respublikamızda "maarif və məktəbin aynası" olmuşdur. Qəzetin ilk nomrəsi 1934-cü il, sentyabrın 2-də "Kommunist

maarifi" adı ilə nəşr olunmuşdur ["Kommunist tərbiyəsi uğrunda" jurnalı. 1930, №1–2]. "Azərbaycan müəllimi" qəzeti pedaqoji fikrin inkişafına təkan vermiş, qısa bir müddətdə çoxminli müəllimlər ordusunun və xalq maarifi işçilərinin tribunasına çevrilmişdi. "Kommunist maarifi" ilk gündən xalq maarifinin səviyyəsinin yüksək pilləyə qaldırılması, məktəbdə təlimin keyfiyyətinin yüksəldilməsi, yeni insan tərbiyəsi, müəllimlərin pedaqoji yeniliklərə yiyələnməsi uğrunda maarif işçilərinin həqiqi və kütləvi təbliğatçısı, təşviqatçısı və təşkilatçısı olmuşdur. Qəzet 1938-ci ildən 1941-ci ilin iyulunadək "Müəllim qəzeti" adı ilə nəşr olunmuş, 1941-ci ilin iyulundan 1946-cı ilin aprelinədək nəşri dayanmış, 1946-cı ilin aprelindən isə "Azərbaycan müəllimi" adı altında fəaliyyətini davam etdirmişdir. 1958-ci ilin fevralına qədər həftəlik çıxan qəzet sonralar həftədə 2 dəfə nəşr olunmağa başladı. Qəzetə ayrı-ayrı vaxtlarda Rüstəm Hüseynov, Ağəli Bədəlov, Mirabbas Aslanov, Şahin Səfərov, Məhəmməd Baharlı, Bayram Hüseynzadə, Nurəddin Heydərov rəhbərlik etmişlər. Hazırda qəzet Sarvan İbrahimovun baş redaktorluğu ilə nəşr edilir.

"Azərbaycan müəllimi" qəzeti, təhsil sistemi işçilərinin etibarlı köməkçisi kimi, müəllimlərin yeni məktəb quruculuğu işinə, böyüməkdə olan nəslin təlim-tərbiyəsinin həyata keçirilməsinə cəlb edilməsində mühüm rol oynamış, ümumi icbari yeddiillik, səkkizillik və ümumi orta təhsilin həyata keçirilməsində müəllimlərə nəzəri, metodik və praktik cəhətdən faydalı materiallar vermiş, pedaqoji ictimaiyyətin qüvvəsini məktəb və maarifin tərəqqisinə, vahid əmək və politexnik məktəbin tələblərinin həyata keçirilməsinə istiqamətləndirə bilmişdir. Məktəblərin tədris bazasının dinamik surətdə möhkəmləndirilməsi, məktəbəqədər və məktəbdənkənar tərbiyə müəssisələri şəbəkəsinin genişləndirilməsi, yüksək ixtisaslı müəllim kadrlarının hazırlanması, onların peşəkarlığının təkmilləşdirilməsi, qabaqcıl pedaqoji təcrübənin öyrənilib yayılması məsələləri qəzetin səhifələrində geniş yer tutmuşdur. Böyüməkdə olan nəslin nümayəndələrinin şəxsiyyət kimi formalaşdırılmasında ailə və ictimaiyyətin rolunu ön plana çəkən qəzetdə tərbiyənin təsir imkanlarını üzə çıxaran, qarşılıqlı əlaqəni təqdir edən yazıların dərc edilməsinə də xüsusi diqqət yetirilmişdir.

"Azərbaycan müəllimi" qəzetinin səhifələrində görkəmli pedaqoq-alimlər (M. Mehdizadə, Ə. Seyidov, M. Muradxanov, H. Əhmədov, Ə. Əfəndizadə, Z. Qaralov, Y. Kərimov, A. Kərimov, Ş. Mikayılov və b.), tanınmış məktəb direktorları, pedaqoji təcrübə ustaları olan müəllimlər, metodistlər, təhsil işçiləri çıxış etmiş, pedaqogika elmini zənginləşdirən maraqlı ideyalar, nəzəri fikirlər irəli sürmüş, məktəbin yenidən qurulmasının mühüm problemlərini müzakirə etmiş, beş və altıyaşlıların təhsilə cəlb edilməsi ilə bağlı elmi diskussiyalar aparmışlar. Qəzetdə məktəb rəhbərlərinin işinin xüsusiyyətləri, şagird özünüidarəsinin təşkili və inkişafı, məktəb həyatının demokratikləşdirilməsi, humanistləşdirilməsi kimi problemlər də geniş işıqlandırılmışdır.

Pedaqoji təfəkkürün xəzinəsi

Pedaqoji təfəkkürün xəzinəsi olan pedaqoji mətbuatın, xüsusilə "Azərbaycan məktəbi" jurnalının Azərbaycanda pedaqoji fikrin inkişafında, dünya klassik pedaqoqlarının, Azərbaycanın görkəmli maarifçilərinin, yazıçı və şairlərinin pedaqoji ideyalarının təbliğində, xalqımızın zəngin mədəniyyət tarixinin ayrılmaz hissəsi olan təhsil tarixinin müxtəlif problemlərinin araşdırılmasında xidmətləri təqdirəlayiqdir. Pedaqoji fikir tariximizin nadir inciləri–xalq pedaqogikasından, "Avesta"dan başlayaraq, müasirlərimiz olan onlarla maarifpərvərin nəzəri fikirləri ilk dəfə pedaqoji mətbuatda öz əksini tapmışdır [Aslanov M. Pedaqoji mətbuatımız nə vaxtdan çıxır? 1971]. Keçən əsrin 30-cu illərində məktəbdə politexnik təlim, əmək təlimi və peşəyönümü problemləri, yeni proqramlara keçidin mahiyyəti, əhəmiyyəti, nəticələri, onların politexnik xarakteri pedaqoji mətbuatın ana xəttini təşkil edirdisə, 40–50-ci illərdə aktual pedaqoji, psixoloji və metodiki problemlərin şərhinə, aparılan tədqiqatların nəticələrinin müəllimlərə çatdırılmasına, onların pedaqogika elminin nailiyyətləri ilə tanış edilmələrinə xüsusi diqqət yetirilmişdir.

Respublikamızda ayrı-ayrı fənlərin metodikası, bir elm kimi, keçən əsrin 50-ci illərindən inkişaf etməyə başladı. Bu dövrdə bütün fənlərin metodikaları sahəsində elmi axtarışlar genişləndirilmiş, təlim üsulları, fənlərin tədrisinin elmi əsaslar üzərində qurulması problemləri metodist alimlərin tədqiqat obyektinə çevrilmişdi. Bütün bu axtarışların nəticələri mətbuat vasitəsi ilə, ətraflı şəkildə məktəblərə çatdırılmalı idi. 30–50-ci illərdə nəşr olunan müxtəlif pedaqoji mətbuat orqanları metodika elminə aid nəzəri materiallara geniş yer versələr də, bu, tələbatı ödəmirdi. Bu səbəbdən də müəllimlərə metodik cəhətdən daha çox kömək etmək məqsədi ilə yeni məcmuələrin nəşrinə icazə verildi.

"Azərbaycan məktəbi" jurnalına əlavələr

Dövrün tələblərinə uyğun olaraq "Azərbaycan məktəbi" jurnalına əlavə məcmuələrin nəşrinə başlandı. 1947-ci ildə "Русский язык в нерусской школе" məcmuəsinin ilk nömrəsi çap olundu. 1970-ci ildə "Русский язык и литература в азербайджанской школе" adlanan məcmuə 1979-cu ildən müstəqil jurnala çevrildi. 1951-ci ildən "Azərbaycan dili və ədəbiyyat tədrisi" (redaktorlar: prof. A. Abdullayev, Ə. Əfəndizadə), "Fizika və riyaziyyat tədrisi" (redaktorlar: prof. A. Abbaszadə, dos. Z. Qaralov), 1956-cı ildən "Kimya və biologiya tədrisi" (redaktor: prof. R. Əliyev), 1958-ci ildən "Əmək və politexnik təlim" (redaktor: dos. İ. Mayılov), 1964-cü ildən "Tarix, ictimaiyyat və coğrafiyanın tədrisi" (redaktor: prof. N. Allahverdiyev), 1970-ci ildən "İbtidai məktəb və məktəbəqədər tərbiyə" (redaktor: prof. Y. Kərimov), 1975-ci ildən "Məktəbdə bədən tərbiyəsi" (redaktor: dos. B. Quliyev) jurnal və məcmuələrinin nəşrinə başlanmışdı.

Metodik məcmuələrin nəşr olunması respublikada pedaqoji fikrin inkişaf istiqamətlərini genişləndirməklə yanaşı, metodikanın bir elm kimi inkişafını da

stimullaşdırırdı. Xüsusi metodikalar üzrə yeni ideyaların əsas daşıyıcıları olan əlavə metodik məcmuələr pedaqoji mətbuatın zənginləşməsində, məndəricəsinin genişlənməsində mühüm rol oynamaqla yanaşı, respublikanın qabaqcıl müəllimlərinin iş təcrübəsinin sistemli əks olunması, ümumiləşdirilməsi və qabaqcıl təcrübə ilə elmi ideyaların birləşdirilməsinin təmin edilməsi vəzifəsini layiqincə həyata keçirirdi. Zəngin təcrübə xəzinəsi olan bu məcmuələr pedaqogika nəzəriyyəçilərinin əsas elmi ideya mənbəyi olmuş, minlərlə müəllimin işinə istiqamət vermiş, fəaliyyətini tənzimləmişdir. Məcmuələr tədris planlarının, proqramlar, dərsliklər və metodik vəsaitlərin məzmununun izah edilməsində, müasir dərsin, təlim-tərbiyə prosesinin səmərəli təşkilində, mütərəqqi metod və vasitələrin tətbiqində praktiklərin ən yaxın köməkçilərinə çevrilmişdi. Pedaqoji-psixoloji və metodiki problemlərin şərhində, elmi tədqiqatların ən mühüm nəticələrinin pedaqoji ictimaiyyətə çatdırılmasında öz missiyasını şərəflə yerinə yetirən pedaqoji məcmuələr həm də elmdə yeni qüvvələrin formalaşmasına və püxtələşməsinə güclü təsir edirdi.

Pedaqoji mətbuat 80-ci illərdə

Keçən əsrin 80-ci illərində, əlavələri ilə birlikdə, 200 çap vərəqi həcmində, 700 min nüsxəyə yaxın tirajla nəşr olunan "Azərbaycan məktəbi" jurnalının və "Azərbaycan müəllimi" qəzetinin ana xəttini məktəbdə təlimin, əmək tərbiyəsi və mənəvi tərbiyənin keyfiyyətini yüksəltmək, müəllim və şagirdlərin əməyinin nəticələrinə qiymət verilməsində formalizmi aradan qaldırmaq, təlimin həyatla, məhsuldar əməklə əlaqəsini möhkəmləndirmək, şagirdləri ictimai-faydalı əməyə hazırlamaq, böyüməkdə olan nəsildə fəal həyat mövqeyinin tərbiyəsi təşkil edirdi [Əhmədov H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi, 2014].

"Azərbaycan məktəbi" jurnalına əlavə kimi çıxan məcmuələrin nəşrindən sonra jurnalın imkanları genişləndi, burada pedaqoji-psixoloji məsələlərə, məktəb təhsilinin problemlərinə, elmi-pedaqoji diskussiyalara (H. Əhmədov, N. Kazımov, Y. Talıbov, Ə. Həşimov, B. Əhmədov, Ə. Ağayev və b.), məşhur rus pedaqoq-alimlərinin (Y.K. Babanski, E.İ. Monoszon, D.B. Elkonin, P.M. Yakobson, A.V. Petrovski, M.N. Skatkin və b.) əsərlərindən tərcümələrə üstünlük verildi. Pedaqoji mətbuatın köməyi ilə təbliğ edilən didaktika, tərbiyə nəzəriyyəsi, məktəbşünaslıq, pedaqogika tarixi sahəsində aparılan elmi-nəzəri tədqiqatlar, yeniliklər respublikada pedaqoji fikrin inkişafına, pedaqoji elmə gələn tələbələrin və müəllimlərin nəzəri hazırlığının yüksəldilməsində böyük rol oynadı.

Pedaqoji mətbuatın inkişafında yeni mərhələ

Azərbaycan müstəqillik qazandıqdan sonra yeni qəzet və jurnallar nəşr edilməyə başladı. Mətbuat bolluğunda "itib-batan" təhsil tədqiqatçıları və praktik müəllimlər isə "Azərbaycan məktəbi" jurnalı və "Azərbaycan müəllimi" qəzetinin

taleyindən narahat idilər. 90-cı illərin əvvəllərində ölkədə baş verən siyasi qeyri-sabitlik, iqtisadi çətinliklər, bazar iqtisadiyyatının sərt tələbləri pedaqoji mətbuatın müntəzəm nəşrinə mane olurdu. Bu illərdə, tanınmış pedaqoji jurnalist Məhəmməd Baharlının təbirincə desək, pedaqoji mətbuat "tez-tez yolda dayanıb nəfəsini dərmək" məcburiyyətində qalırdı.

Ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizdə bərqərar olan sabitlik, davamlı inkişaf kursu sayəsində təhsilin bütün səviyyə və pillələrdə inkişafına, pedaqoji mətbuat orqanlarının normal fəaliyyət göstərməsinə şərait yarandı. 25 il "Azərbaycan məktəbi" jurnalına rəhbərlik edən Zəhra xanım Əliyevanın vətəndaşlıq qeyrəti, əzmi, inadkarlığı, fədakarlığı nəticəsində jurnal fəaliyyətini nəinki dayandırmadı, əksinə, daha da genişləndirdi, onun məzmun və məndəricəsi zənginləşdi, poliqrafik cəhətdən keyfiyyəti xeyli yaxşılaşdı. 2006 – 2018-ci illərdə dosent Nəcəf Nəcəfovun baş redaktorluğu ilə nəşr olunan "Azərbaycan məktəbi" jurnalı, 1993–2002-ci illərdə Məhəmməd Baharlının, sonrakı illərdə isə Bayram Hüseynzadənin baş redaktorluğu ilə nəşr edilən "Azərbaycan müəllimi" qəzeti təhsildə baş verən yeniləşmələrə, müasir inkişaf istiqamətlərinə uyğun olaraq, ölkənin təhsil sistemində layiqli yer tutdu, yeni elmi-pedaqoji ideyaların təcrübəyə tətbiqində, şəxsiyyətyönümlü təhsil konsepsiyasının formalaşmasında səmərəli fəaliyyət göstərdi. Həmin dövrdə nəşrini davam etdirən "Azərbaycan dili və ədəbiyyatı tədrisi" (baş redaktoru M.Baharlı), "Fizika, riyaziyyat və informatika tədrisi" (baş redaktoru H. Seyidli), "Məktəbəqədər və ibtidai təhsil" (baş redaktoru prof. Y. Kərimov), "Sənətkar" (baş redaktoru Ş. Balakişiyev), "Kurikulum" (baş redaktoru S. Mənsimov), "Təhsil" (baş redaktoru M. Novruzov) jurnalları, "Təhsil problemləri" (baş redaktoru M. Qurbanov), "Təhsil və zaman" (baş redaktoru prof. Ə. Ağayev) qəzetləri təhsildə baş verən innovativ yeniliklərin, təhsil quruculuğunun və müəllim hazırlığının konseptual məsələlərinin təbliğinə, yeni elmi-pedaqoji ideyaların formalaşdırılmasına dəyərli töhfələr verdilər.

Həmin dövrdə "Kurikulum" jurnalının nəşri pedaqoji mətbuatda xeyli canlanmaya səbəb oldu. Yeni jurnal pedaqoji mətbu orqanlar sırasına yeni dizayn, yeni texnologiya və yeni məzmunla daxil oldu. Əsas məqsəd yeni kurikulum sənədlərinin məzmunu və mahiyyəti, onlarla işin xüsusiyyətlərinin müəllimlərə, metodistlərə, məktəb rəhbərlərinə, təhsil orqanlarının əməkdaşlarına izah etməkdən, onların bu prosesə elmi-metodik və psixoloji hazırlığını təmin etməkdən ibarət idi.

"Azərbaycan müəllimi" qəzeti – operativlik, obyektivlik, dəqiqlik, peşəkarlıq

Ulu öndər Heydər Əliyev "Azərbaycan müəllimi" qəzetinin 60 illik yubileyi münasibəti ilə redaksiya kollektivinə göndərdiyi təbrik məktubunda qəzetin

fəaliyyətinə çox yüksək qiymət verərək demişdir: "Azərbaycan müəllimi" yalnız sahə qəzeti olmaqla kifayətlənməmiş, respublikanın həyatında baş verən ictimai-siyasi hadisələrə də nüfuz etmişdi. Qəzet respublikada jurnalistika sənətinin inkişafı işində əhəmiyyətli rol oynamışdır. Bu gün də, öz ənənələrinə sadiq qalaraq, pedaqoji maarif istiqamətində fəaliyyətini davam etdirir". Ulu öndərin təklif və tövsiyələri, neçə illərdir ki, qəzetin əsas fəaliyyət istiqamətlərini müəyyənləşdirir. Pedaqoji cəmiyyətdə elmiliyi, milli-mənəvi dəyərlərə sadiqliyi, milli təhsil quruculuğunun təbliğində operativliyi, obyektivliyi, dəqiqliyi və peşəkarlığı ilə seçilən "Azərbaycan müəllimi" qəzeti müasir pedaqoji mühitimizin güzgüsüdür. "Azərbaycan müəllimi" qəzetinin səhifələrində gənclərin ulu öndər Heydər Əliyevin zəngin və mənalı həyat yolu, çoxşaxəli fəaliyyəti nümunəsində tərbiyə edilməsi, onun siyasi irsinin öyrənilməsi zəminində gənc nəslin həyata hazırlanması, ölkə prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan təhsilinin infrastrukturu və məzmunu sahəsində baş verən köklü dəyişikliklər, Azərbaycan Respublikasının vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təhsilə göstərdiyi misilsiz qayğı, fondun dəstəyi ilə reallaşdırılan müvafiq layihələr haqqında mütəmadi olaraq analitik yazılar verilir. Qəzet cəmiyyətdə müəllim nüfuzunun, sosial rifahının yüksəldilməsi, məktəblərin və müəllimlərin fəaliyyətinin işıqlandırılmasında xeyli uğurlara imza atıb, əsl ziyalıların, peşəkar müəllimlərin, elm və təhsil fədailərinin tribunasına çevrilib. Məzmun zənginliyi, mövzu rəngarəngliyi, xüsusi dizayn və materialların yerləşdirilməsi qəzetin oxunaqlığını, Azərbaycanda və xarici ölkələrdə oxucularının sayını xeyli artırıb. Qəzetin internet saytı oxucu auditoriyasının daha da genişlənməsinə, pedaqoji maarifçilik işinin səmərəliliyinin artırılmasına müsbət təsir göstərir. Xüsusilə pandemiya şəraitində qəzetin onlayn versiyada təqdimatı redaksiya əməkdaşlarının peşəkarlığı kimi dəyərləndirilməlidir.

"Azərbaycan müəllimi" qəzeti təhsil-tərbiyə mədəniyyətimizin hər həftəsini işıqlandırmaqla, həm də təhsilimizin salnaməsini yazır, bugünkü uğurlarımızı gələcəyə aparır. Gələcək uğurlar isə yalnız bu gün təhsil-tərbiyə sahəsində qazandığımız nailiyyətlərin üzərində pərvəriş tapa bilər.

Pedaqoji mətbuatımızın flaqmanı

Bu gün Azərbaycan cəmiyyətində ciddi iqtisadi-siyasi islahatlar həyata keçirilir. Məqsəd cəmiyyətdə köklü müsbət dəyişikliklərə nail olmaqdır. Bu dəyişikliklərin əsasında isə təhsil dayanır. Təhsil bütün dəyişikliklərin açarı, millətin gələcəyidir. Təhsil sisteminin insan kapitalının inkişaf etdirilməsi çağırışlarına cavab verməsi məqsədi ilə ümumi təhsilin keyfiyyət göstəricilərinin yüksəldilməsi, ali təhsil səviyyəsinin Avropa standartlarına uyğunlaşdırılması, təhsili idarəetmə sisteminin yenidən qurulması, insan resurslarının inkişaf etdirilməsi, müasir standartlara

cavab verən təhsil infrastrukturlarının yaradılması və müəllim peşəsinin nüfuzunun qaldırılması istiqamətində mühüm işlər görülür. Görülən bu işlərin təbliğində, təhsilin metodoloji problemlərinin araşdırılmasında, elmi-nəzəri əsaslarının müəyyənləşdirilməsində, qabaqcıl dünya və milli məktəb təcrübəsinin öyrənilməsində "Azərbaycan məktəbi", "Məktəbəqədər və ibtidai təhsil", "Azərbaycan dili və ədəbiyyatı tədrisi", "Kurikulum", "Peşə təhsili və insan kapitalı" jurnallarının istiqamətverici, öyrədici, maarifləndirici imkanları daha da genişlənir.

Pedaqoji mətbuatın inkişafında yeni istiqamət – modernləşmə, rasionallıq, obyektivlik, kreativlik

Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin "Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında" imzaladığı Sərəncam milli mətbuatımızın inkişafına, o cümlədən, təhsilə, məktəbə, millətin mənəvi-əxlaqi tərəqqisinə ölkə başçısının diqqət və qayğısının təzahüri kimi dəyərləndirilməlidir. Sərəncamda milli mətbuatın ölkəmizdə həyata keçirilən köklü islahatlardan kənarda qalmaması üçün qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğunlaşması, cəmiyyətin obyektiv, operativ və peşəkar şəkildə məlumatlandırılması üçün səylərin gücləndirilməsi tövsiyə olunur. Azərbaycan Respublikasının Prezidenti, cənab İ. Əliyev tərəfindən mətbuatın inkişafının yeni istiqamətləri və hədəfləri aşağıdakı kimi müəyyənləşdirilmişdir: modernləşmə, rasionallıq, obyektivlik, kreativlik, qabaqcıl texnologiyaların tətbiqi, aparıcı trendlərin izlənilməsi və s.

Nəticə / *Conclusion*

Bu gün Azərbaycan cəmiyyətində ciddi iqtisadi-siyasi islahatlar gedir. Məqsəd cəmiyyətdə köklü dəyişikliklərə nail olmaqdır. Dəyişikliklərin əsasında isə təhsil dayanır. Təhsil bütün dəyişikliklərin açarı, millətin gələcəyidir. Təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi məqsədi ilə ümumi təhsilin keyfiyyət göstəricilərinin yüksəldilməsi, ali təhsil pilləsinin Avropa standartlarına uyğunlaşdırılması, təhsili idarəetmə sisteminin yenidən qurulması, insan resurslarının inkişaf etdirilməsi, müasir standartlara cavab verən təhsil infrastrukturlarının yaradılması və müəllim peşəsinin nüfuzunun artırılması istiqamətində mühüm işlər görülür. Görülən bu işlərin təbliğində, təhsilin nəzəri-metodoloji problemlərinin araşdırılmasında, elmi-nəzəri əsaslarının müəyyənləşdirilməsində, qabaqcıl dünya və milli məktəb təcrübəsinin öyrənilməsində "Azərbaycan məktəbi" (redaktor Rahil Nəcəfov), "Məktəbəqədər və ibtidai təhsil" (məsul katib Böyükağa Mikayıllı), "Kurikulum", (redaktor Sahib Məmmədov) "Peşə təhsili və insan kapitalı" (redaktor Şahbaz Balakişiyev) jurnallarının istiqamətverici, öyrədici, maarifləndirici missiyası daha da genişlənir.

Son illərdə "Azərbaycan məktəbi" jurnalının beynəlxalq əlaqələrinin genişləndirilməsi, yeni formatda və məzmunda nəşr edilməsi, Azərbaycan dilindəki məqalələrə ingilis dilində geniş xülasələrin yazılması, azərbaycanlı müəlliflərin ingilis və rus dillərində məqalələrinin nəşr edilməsi jurnalın elmi nüfuzunun yüksəlməsinə ciddi təsir göstərmişdir. Jurnal hazırda respublikamızda və xaricdə yüksək nüfuzu olan *Research Gate, Index Copernicus, Google Scholar, CiteFactor, DOAJ, Indeks Copernicus İnternational, İdealonline, COPE* indekslərinə malikdir. Yeni və peşəkar redaksiya heyəti, baş redaktor Rahil Nəcəfovun rəhbərliyi ilə, qısa bir vaxtda təhsilimizin 95 illik salnaməsinin yaradıcısı olan "Azərbaycan məktəbi" jurnalının elmi səviyyəsini yüksəltməyə, yeni formatda və məzmunda nəşrinə nail olmuşdur. Bu baxımdan "Azərbaycan məktəbi" jurnalını pedaqoji mətbuatımızın flaqmanı hesab etmək olar.

Ölkədə sağlam və şəffaf təhsil mühitinin, yeni pedaqoji təfəkkürün formalaşmasında mühüm rol oynayan pedaqoji mətbuat yarandığı gündən bu dövrə qədər dövlətin təhsil siyasətinin təbliğatçısı funksiyasını layiqincə və şərəflə yerinə yetirmiş, millətin elmi-pedaqoji, untellektual potensialının formalaşmasına, böyüməkdə olan nəslin təlim-tərbiyəsinə, pedaqoji və elmi-pedaqoji kadr hazırlığına, pedaqoji nəzəriyyələrin inkişafına təkan vermis, pedaqoji elmlərin inkişafını təmin etmişdir.

Ədəbiyyat / *Reference*

1. "Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam, 2020-ci il 30 iyun.
2. Aslanov M. (1971). Pedaqoji mətbuatımız nə vaxtdan çıxır? "Azərbaycan məktəbi" jurnalı, № 10, s. 63–68.
3. Əhmədov H. (2014). Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: "Elm və təhsil".
4. Rüstəmov F. (2016). Azərbaycan pedaqogikaşünaslığı. Bakı: "Elm və təhsil".
5. Rüstəmov F. (1998). Azərbaycanda pedaqogika elminin inkişafında pedaqoji mətbuatın rolu. Pedaqoji tədqiqatlar. "Elmi məqalələr" məcmuəsi. Bakı: ADPU, III buraxılış, s. 3-19.
6. Rüstəmov F. (2020). Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları. Bakı: "Elm və təhsil".
7. "Xalq maarifi" jurnalı. (1920). Bakı, Xalq Maarifi Komissarlığı. № 1.
8. "Kommunist maarifi" qəzeti. (1934). 2 sentyabr.
9. "Kommunist tərbiyəsi uğrunda" jurnalı. (1930). № 1-2.

Müəlliflərin nəzərinə

«Məktəbəqədər və ibtidai təhsil» jurnalında dərc ediləcək məqalələr üçün texniki tələblər

Məqalələrin məzmunu

Məqalələr aktual mövzulara həsr olunmalı, jurnalın məzmun və üslubuna uyğun akademik tələblərə cavab verməli, «Giriş» (Introduction), «Əsas hissə» (Main part) və «Nəticə»dən (Conclusion) ibarət olmalıdır. «Giriş»də mövzunun aktuallığı əsaslandırılmalı, «Əsas hissə»də tədqiq edilən məsələlər, qaldırılan problemlər bölmələr üzrə ətraflı şərh edilməli, «Nəticə»də isə elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq müəllifin gəldiyi elmi qənaət, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməli, təklif və tövsiyələr irəli sürülməlidir.

Məqalələrin strukturu, tərtib edilmə qaydaları və həcmi

1) Redaksiyaya təqdim edilən məqalələr Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının dövri elmi nəşrlərin qarşısında qoyduğu şərtlər də daxil olmaqla aşağıdakı tələblərə cavab verməlidir:

— Məqalənin adı, müəllifin adı və soyadı, vəzifəsi, elmi dərəcəsi, işlədiyi qurumun adı və ünvanı, elektron poçt ünvanı və telefon nömrəsi məqalənin titul səhifəsində yazılmalıdır.

— «Açar sözlər» (Azərbaycan və ingilis dillərində) 3-5 söz və ya söz birləşməsindən ibarət olmalıdır.

— «Xülasə» (Azərbaycan və ingilis dillərində) eyni məzmunda olmaqla, təxminən, 80-100 söz həcmində verilməlidir.

2) Məqalənin mətni Microsoft Word proqramında, A4 (210x297mm) formatda, Times New Roman — 12 şriftində yığılmalı, həcmi 8-10 səhifə olmalıdır.

3) Məqalənin adı böyük hərflərlə, yarımbaşlıqları isə yalnız ilk hərfi böyük olmaqla, qalın şriftlə, kursivlə yazılmalıdır. Başlıq və yarımbaşlıqlardan, cədvəl və şəkillərdən (həmçinin tənliklər və düsturlardan) əvvəl və sonra bir sətir ara boşluğu buraxılmalıdır. Səhifələr ardıcıl olaraq aşağı sağ küncdə nömrələnməlidir.

4) Cədvəl və şəkillərin adı olmalı və bu ad cədvəllər üçün cədvəlin üstündə sol küncdə, şəkillər üçün şəklin altında sol küncdə yerləşdirilərək, ardıcıl nömrələnməlidir.

5) Məqalənin mövzusu ilə bağlı elmi mənbələrə zəruri istinadlar olmalı, sonda verilən «İstifadə edilmiş ədəbiyyat»da istinad olunan ədəbiyyatlar mətnin içində [Məmmədov A. 2010] kimi verilməli, sonda isə əlifba ardıcıllığı ilə nömrələnməlidir. Elmi ədəbiyyata mətndə onlayn istinad olarsa, 1 qoyaraq aşağıda internet linki göstərilməlidir. Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam, dəqiq və orijinalın dilində olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbirlərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir.

Mətndə istinad olunan bütün mənbələr, səhifə nömrələri ilə birlikdə «İstifadə edilmiş ədəbiyyat» siyahısında aşağıdakı nümunələrdə göstərilən qaydada verilməlidir:

a) *Kitablara istinad:*
   Adilov M.İ., Həsənov İ.C. (2012). Qloballaşma və milli mənəvi dəyərlər. Bakı, «Elm». 476 s.
b) *Jurnallara istinad:*
   Kərimova F. (2013) Müasir təlim metodlarından istifadənin zəruriliyi. Məzmun islahatlarının təlimin keyfiyyətinə təsiri. Azərbaycan məktəbi. №4, Bakı: Ərgünəş, səh. 28-31.
c) *Toplularda məqaləyə istinad (konfrans, simpozium və digər):*
   «Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri». (2010). Respublika elmi-praktiki konfransının materialları. Bakı: «Şərq-Qərb», səh. 314-316.
ç) *Dissertasiyalar və avtoreferatlar:*
   Məmmədov H.B. (2013) Azərbaycan Respublikası müasir beynəlxalq siyasi proseslərin aktoru kimi. Elmlər doktoru dissertasiyasının avtoreferatı, Bakı: «Elm», 44 s.
d) *Müəlliflik şəhadətnamələri və patentlər:*
   Алиев С.Г., Джалалов К.Х. А.С. 163514, СССР // Б.И. 1988, № 4, с.50
   Langsam M., Savoca A. C.L. Pat. 4759776, USA, 1988.
e) *İnternet səhifələri (internet səhifələrinə istinadlar tam göstərilməlidir):*
   http://www.journal.edu.az.

Məqalədə son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir.

6) Məqalə redaksiyaya 2 formada: ya elektron poçtla (editor@journal.edu.az), ya da məqalə müəllifinin özü tərəfindən təqdim edilməlidir. Orijinal nüsxədə müəllif(lər)in imzası vacibdir.

Məqalələrin qəbul edilməsi və dərci

Təqdim edilən məqalələr redaksiyada nəzərdən keçirildikdən sonra oxunuş üçün (müəllifin adı gizli saxlanılmaqla) mütəxəssislərə göndərilir. Məqalə jurnalın profilinə uyğun olduğu təqdirdə və tələblərə cavab verərsə, çapa təqdim edilir. Müəllifin istəyindən asılı olaraq, ona məqaləsinin qəbul edilməsi barədə sənəd verilə bilər. Məqalələr növbəlilik prinsipi ilə dərc edilir.

Müəlliflik hüquqları

Jurnalda dərc edilən məqalələrdə müəlliflik hüququ qorunur və bu məqalələrin bütün nəşr hüquqları «Məktəbəqədər və ibtidai təhsil» jurnalına aiddir. Jurnalda çap edilmiş məqalələrin eyni ilə digər nəşrlərdə (məqalənin tezis şəklində dərc olunmuş variantı istisnadır) dərcinə yalnız redaksiyanın yazılı icazəsi, sitatların verilməsinə isə mənbə göstərilmək şərti ilə yol verilir.

Əvvəllər çap olunmuş və ya çap olunmaq üçün başqa bir dövri nəşrə göndərilmiş əlyazmaların jurnala təqdim edilməsi müəlliflik etikasına ziddir.

Yuxarıda göstərilən tələblərə cavab verməyən məqalələr qəbul edilmir. Dərc olunmuş məqaləyə görə müəllifə qonorar və jurnalın bir nüsxəsinin verilməsi nəzərdə tutulur.

For authors

Requirements to the articles submitted for publication in «Preschool and Primary Education»

Content of articles

The articles should be devoted actual topics, meet the academic requirements of journal' s style and content and consist of "Introduction", "Main part", and "Conclusion". The introduction should contain a thesis that will assert the main argument. In the main part, the studied issues and the raised questions should be explained and analyzed in detail in the sections. In the conclusion, the author should reinforce the importance of the main idea, emphasize his scientific contention and appreciate his topic in personally relevant ways, and it is notable to shine the scientific novelty and the benefits of the work and to offer suggestions and recommendations.

Rules of preparing of articles and scope

1) The articles submitted for the editorial must meet the following requirements, including the conditions set out for the periodical scientific publications presented by the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan:

— Title of the article, author's name, surname, position, academic degree, name and address of the organization where he works, e-mail address and telephone number should be written on the title page of the article.

— Key words (in Azerbaijani and English) should consist of 3-5 words and phrases.

— Abstract (in Azerbaijani and English) should be approximately 80-100 words, with the same content.

2) The text should be typed in Microsoft Word, A4 (210x297mm), Times New Roman — 12, size 8-10 sheets.

3) The title should be capitalized in capital letters, and subheadings should be written in bold, italic, with the first letter in uppercase only. Before and after the headline and subheadings, tables and figures (also equations and formulas), a single line spacing should be added. Pages should be numbered in the lower right corner.

4) The table and pictures must be named, and the name should be placed in the left-hand corner above the table, and pictures name should be placed in the left-hand corner under picture.

5) There should be references to scientific sources related to the topic of the article, as well as the sources noted at the end in "used works" should be mentioned in the text as [Mammadov A. Baku, 2010] and finally numbered in alphabetical order. If there is an online reference in the text, you should put an internet link below and number it from one. The information on each reference in the Literature List must be in full, accurate and the native language. The bibliographic description of the source should be based on its type (monograph, textbook, scientific article, etc.). The name of the article, report or thesis should be cited when referring to scientific articles, materials or theses of symposium, conference or other prestigious scientific events.

All sources referenced in the text should be cited in the "Used Works or References" list, along with the page numbers, as specified in the following examples:

a) *References to books:*
   Adilov M.I., Hasanov I.C. (2012). Globalization and national spiritual values. Baku, "Science" p. 476
b) *References to journals:*
   Kerimova F. (2013) The necessity of using modern teaching methods. Impact of content reform on the quality of training. Azerbaijani school. No 4, Baku: Ergunash, p. 28-31.
c) *Reference to the articles in scientific events:*
   «End of a transitional period in Azerbaijan economy: analysis and conclusions. Problems of National Development Model Formation" (2010). Materials of the scientific-practical conference of the Republic. Baku: "East-West", p. 314-316.
ç) *Dissertation thesis and abstracts:*
   Mammadov H.B. (2013) The Republic of Azerbaijan as an actor in contemporary international political processes. Doctoral dissertation abstract, Baku: "Science", 44 h.
d) *Copyright and Patents:*
   Aliev S.G., Jalalov K.Kh. A.S. 163514, USSR // B.I. 1988, No. 4, p.50
   Langsam M., Savoca A. C.L. Pat. 4759776, USA, 1988.
e) *Internet pages (references to web pages should be indicated in full):*
   http://www.journal.edu.az.

The article should give preference to scientific materials, monographs and other reliable sources for the last 5-10 years.

6) The article should be submitted to the editorial office in two forms: by e-mail (editor@journal.edu.az), or by the author himself. The original signature of the author is important.

Acceptance and publication of articles

After review, the presented article will be sent to experts (the author's name confidentiality is maintained) to be read out. If the article corresponds to the journal profile and meets the requirements, the printing is provided. If the author wishes, a document on his / her article acceptance may be issued. Articles are published on the principle of rotation.

Copyright

The articles published in the journal are copyrighted and all publishing rights of these articles belong to the "Preschool and Primary Education". The articles published in the journal are allowed to be published in other publications(except the variant of the article published in the form of a thesis) only with the written permission of the editorial board, and the source of quotation must be provided.

It contravenes the authorship ethics to submit manuscripts previously sent or published in another periodical.

Articles that do not meet the above requirements are not accepted.

According to the published article, the author will get a reward and a copy of the journal. Dear Authors don't send please your conflicts of interests and published articles in anywhere.